*Muxtar Qasımzadə*



# *NUHÇIXANDAN GƏLİRƏM*

Naxçıvan - 2013

*Muxtar Əziz oğlu Qasımzadə 1951-ci ildə Naxçıvan şəhərində anadan olub. Gənclik illərindən (1970) bu günə qədər jurnalistlik fəaliyyətini davam etdirməkdədir. Bədii yaradıcılığa da elə həmin illərdən başlayıb. Şeir və poemaları mətbuatdan, ədəbi jurnallardan, almanaxlardan, mavi ekrandan, radio dalğalarından ictimaiyyətə yaxşı tanışdır. Müxtəlif vaxtlarda Beynəlxalq poeziya festivallarının iştirakçısı olmuş, şeirləri rus, fars, ingilis dillərinə tərcümə edilmişdir.*

*Televiziya və radionun inkişafındakı xidmətlərinə görə ölkə Prezidentinin sərəncamı ilə (2006) "Tərəqqi" medalına layiq görülmüşdür.*

*Hazırda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində nəşriyyat bölməsinin müdiridir. O, 500-ə yaxın müxtəlif mövzulu kitabın redaktorudur. M.Qasımzadə öz poetik imkanlarını ölçüb-biçən, sözə qənaətlə yanaşan qələm sahiblərimizdəndir. "Nuhçıxandan gəlirəm" kitabı şairin oxuculara yeddinci ədəbi töhfəsidir. Kitaba müəllifin yeni yazdığı və əvvəlki kitablarından seçilmiş şeirləri toplanmışdır.*

***Muxtar Qasımzadə, Nuhçıxandan gəlirəm.*** *"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi, Naxçıvan, 2013, 248 səh.*

4700000000
053-2013

© "Əcəmi" 2013

And içdim torpağa, and içdim göyə,
Andım çörək haqqı, duz haqqı oldu.
Allahın verdiyi nemətdi deyə,
Andımın biri də “söz haqqı” oldu.

Sevdim yaradanı, könlüm açıldı,
Sandım varlığımı bahar şəklində.
Sözüm qanadlandı, dilim açıldı,
Mən dua oxudum şeir şəklində.

## HAÇADAĞ

Başında həmişə dumanlar gəzər
Çağlayar, qaynayar, daşar Haçadağ.
Çiçəklər köksündə yazıya bənzər,
Olar ilk bahara şüar Haçadağ.

Qoşa buynuzu var maral timsalı,
Olub Naxçıvanın hüsnü, camalı.
Dağlar maralına bənzər bu halı,
Sevən ürəkləri oxşar Haçadağ.

Hərdən şimşəklərin gələr tuşuna,
Göylər ildırımı çaxar başına,
Xırda təpələri yığar başına,
Özü sərkərdəyə oxşar Haçadağ.

✵

Həyat üçün, bəşər üçün
Gah ağlaram, gah gülərəm.
Susuz olsa Yer kürəsi,
Tapılmasa bir gilə su,
Çıxıb mavi səmalara
Buludları sıxmalaram, silkələrəm,–
Həyat üçün, bəşər üçün.

✵

## BU DÜNYANIN SƏBRİ BÖYÜK

Mat qalıb dünyanın işinə dağlar,
Torpağa quylanıb dizinə qədər.
Sıxıb yumruğunu döşünə dağlar,
Dartınıb göylərin üzünə qədər.

Dərdini yelləyib, körükləyən var,
Xocalı yanğısı canında qalıb.
"Araz aşığından, Kür topuğundan",
Yığılıb ağrısı canında qalıb...

Yer kürəsi milyon ildir fırlanır,
Fırladır üstündən ata xəbisi.
Dağlar az qalır ki, yerindən ola,
Yerindən qopara bilmir iblisi...

Bu dünyanın səbri böyük,
Görür öz işini dolaşa hələ.
Neytron qəzəbli, atom hikkəli
Üstündə namərdlər dolaşır hələ!

Mat qalıb dünyanın işinə dağlar,
Torpağa quylanıb dizinə qədər.
Sıxıb yumruğunu döşünə dağlar,
Dartınıb göylərin üzünə qədər...

## TANRI

Tanrı ağappaq taxtında
Öz işindəydi.
Təmənnasız vərdişində,
Ucalığında, ağlığında
Ağappaq gülüşündəydi.
Allah Məhəmmədə dedi
O da yazdı...
Sən görmədin, mən gördüm -
Yaradanı gördüm...
Sən odla oynayırdın,
Sən qanla oynayırdın
Səni görməzdən gəldim.
Sən Yer üzünün allahı deyildin
Səni tamahkarlar uydurmuşdu
Uyduranlar uyutmuşdu!
Allah Məhəmmədə dedi
O da yazdı:
Zordan allah olmaz
Zor zoru,
Var varı əzər.
İnsaf insafı,
Mərhəmət mərhəməti bəzər...
Sən görmədin,
Mən gördüm
Onu gördüm -
Özünü gördüm.
Tanrı ağappaq taxtında
Bərəkət yağdırırdı ağlığından.
Qızıl baxışlarıyla
Öz işindəydi
Ağlığında, ağalığında -
Ağappaq gülüşündəydi...

## BELƏCƏ

Eşitdiklərimi qulaqlarımda,
Gördüklərimi gözlərimdə,
Anladıqlarımı ağlımda,
Duyduqlarımı ürəyimdə saxladım.
Tanrının ərki insafa,
Yoxsulun ərki azadır.
Buludun ərki yağışa,
Şairin ərki kağızadır.
Zəngin insafını,
Yoxsul azını,
Bulud yağışını,
Şair kağızını
Zümzümə edir hər gün sakitcə.
Ən gözəl xorunu oxuyur bəşər,
Xor oxuyur beləcə...

2013

## YEDDİNCİ QİTƏ

Yeddi rəng,
Yeddi səs,
Yeddi gün...
Hamısı yeddi,
Hamısı düzgün
Bu lap aləm ki...
-Bəs yeddinci qitə hanı-
soruşsanız, deyərəm ki,
sualınız istəyimdi.
Altı qitənin
Dərdini çəkib
Yumağa dönən,
Yumruğa dönən

Yeddinci qitə
Köksümdə çarpan
Bu Ürəyimdi...

## DAĞLAR DA VƏTƏNDİR

Vətən müqəddəsdir oğullar üçün
ucaldar adını şərəfli adla.
Dağlar da vətəndir qartallar üçün
qucar zirvələri qoşa qanadla.

Bir yuva qurubdur adi daşında
Düşüb ildırıma, itəni olub.
Bir yuva xətrinə o boyda dağlar
Qartalın əbədi vətəni olub.

Sədaqət, etibar qaynar qanında
Zirvələr üzünə hər an açıqdır.
Qartallar qayadan qanadlananda
dağlar arxayındır, qayıdacaqdır.

Vətən müqəddəsdir oğullar üçün,
dağlar da vətəndir qartallar üçün.

## NAXÇIVANIMIN

Canım, gözüm, torpağım,
laylam, nəğməm, beşiyim.
Yurdum, yuvam, ocağım,
salam, evim-eşiyim.
Haçadağ kürsüm olsun,
İlqarından söz deyim

Atam Naxçıvanımın,
Anam Naxçıvanımın.

Tarix vüqar gətirib
qayasına, daşına.
Nuhdan xəbər gətirib,
çatıb müdrik yaşına.
Günəşimdir, Yer kimi
Mən dolanım başına,
dönüm Naxçıvanımın,
Anam Naxçıvanımın.

## VƏTƏN SEVGİSİ

Vurul bu torpağa minbir baxışla,
Müqəddəs duyğunla qəlbi naxışla.
Vətəndaş olursan, vətəndaşlığa,
Sənə zəmanətdir Vətən sevgisi.

Qorunub həmişə yer kürəsində,
Yaşayır hər kəsin öz nəfəsində.
Ürəyin məhəbbət xəritəsində,
Ən böyük dövlətdir Vətən sevgisi.

## OLMASIN

Dağlar qoşa dayansın,
Quşlar qoşa uçsunlar.
Ulduzlar qoşa yansın,
Güllər qoşa açsınlar.
Sevənlər qoşa gəzib,
Qoşaca qarısınlar.
Əllər də qoşa olsun

Bir işə yarısınlar.
İkilikdə gözəldir.
Ucalıqdır bu həyat.
Zirvələrə qaldırar,
Qartalı qoşa qanad.
Dünyanı belə görək
İnsan qəlbi dolmasın.
Sərhədləri götürək,
Vətən iki olmasın.

## VƏTƏN DESƏM ...

Günüm xoşbəxt, taleyimdən
ancaq ayrı düşənim var.
Mükafatım qarğış olub,
Bəxti vaylı düşənim var.
Qolu bağlı neçə elim -
Üzüquylu düşənim var.
Bu torpağa olmur oğul
Hər doğulan oğul, ana.
Bu torpağı qısqanıram
Bu torpaqda doğulana.

Ürəyimlə danışıram
Laqeyidlər gülümsəyir.
Həqiqətlə barışıram
Siyasətlər gülümsəyir.
Xəyanətlə çarpışıram,
Ədavətlər gülümsəyir,
Bu torpağa olmur oğul
Hər doğulan oğul, ana,
Bu torpağı qısqanıram
Bu torpaqda doğulana.

Şahə qalxan atlarıma
Əlli yerdən əl atan var.
Dizlərini qucaqlayıb,
Nallarını qopardan var.
Haq sözümə don geydirib
Çox kürədə boyadan var.
Bu torpağa olmur oğul
Hər doğulan oğul, ana,
Bu torpağı qısqanıram
Bu torpaqda doğulana.

Vətən desəm, neçə yerdən
Şölələnər bayraqlarım.
Qanım desəm, neçə əldən
Laləlnər bayraqlarım.
Döyüş desəm, üzə çıxar
İgidlərim, qoçaqlarım.
Bu torpağa olar oğul
Hər doğulan oğul, ana,
İnam yarat, qanad yarat
Bu torpaqda doğulana!

# YADDAŞ ÇIRAĞI



Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə yaşadan bir diyardır.

**Heydər ƏLİYEV**

Azərbaycan və ona bağlı Naxçıvan Muxtar Respublikası ən qədim mədəniyyətin daşıyıcıları olan tarixi abidələri ilə məşhurdur. Belə abidələrdən biri də xalqımızın tarixən bu torpağa məxsusluğunun daş pasportu olan Gəmiqaya tarixi-etnoqrafik abidələr kompleksidir.

*"Ordubad rayonundakı Gəmiqaya abidəsinin tədqiq edilməsi haqqında" Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri* ***Vasif TALIBOVUN*** *imzaladığı 26 aprel 2001-ci il tarixli sərəncamından.*



Atam abidələr,
anam türbələr.
Qardaşım qalalar,
bacım qübbələr.
Mavi minarələr
pak meracımdır.
O gəlin qayalar,
o Kül təpələr.
O gümüş zağalar,
şəkil təpələr.
O yazı daşları,
Carçı daşları
mənim alın yazım,
taxtım, tacımdır!

Yanar, meteortək
alışar onlar.
Dili var, dindirsən
danışar onlar.
Ta ki, dünəninə
dönməyi bacar.
Sən onu ürəkdən
sevməyi bacar.
Oxu tarixini,
oxu maraqla.
Vətən torpağıdır
kitabın, bala
varaqla, varaqla,
onu varaqla...

*

Tarix, xalqların keçmişinə və mədəniyyətinə güzgü tutan bir elmdir. Bu elmin prizmasından, işıqlı pəncərəsindən dərin qatlara boylananda doğma xalqımızın da tarixin sinəsində silinməz izlər qoyduğunun şahidi oluruq.

Keçmiş deyəndə, dərhal gözümüzün önünə qəhrəmanlıq səhifələri, şifahi xalq ədəbiyyatı nümunələri, yazılı abidələrimiz, habelə memarlıq incilərimiz gəlir.

Naxçıvan Muxtar Respublikası qeyd olunan xarakterik xüsusiyyətlərə görə tarixin səhifələrində özünəməxsus layiqli yerlərdən birini tutur.

Bu gün müstəqil Azərbaycan Respublikasının Konstitusiyası bütün abidələrimizin maddi və mənəvi sərvət kimi qorunmasını təmin edir. Bir sözlə, tarixi memarlıq abidələrimiz dövlət tərəfindən qorunur.

Şair-jurnalist Muxtar Qasımzadənin tarixi mövzularda yazdığı şeirlərlə yaxından tanış oldum. Müəllif öz üzərinə son dərəcə şərəfli bir iş götürmüş, vətəndaşlıq baxımından faydalı və əhəmiyyətli bir vəzifənin öhdəsindən demək olar ki, uğurla ğəlmişdir.

İlk baxışda hiss edirsən ki, hər şeir sanki bir poetik bələdçidir. Şeiri oxuduqdan sonra sözü gedən qala, yaxud türbə haqqında səndə böyük təsəvvür və məhəbbət yaranır. Hardan söhbət gedirsə, oranı görmək həvəsi oyanır qəlbində. Misralar boyunbağı kimi qatarlanan

Naxçıvan abidələrinə körpü salır elə bil. Hər şeirin özünəməxsus vəzifəsi, xasiyyəti vardır. Məsələn, coşqun ədəbi təfəkkürün məhsulu olan “Xaraba Gilan” şeirində möhtəşəm şəhər qalıqlarının canlı mənzərəsini, xronoloji tarixini, eyni zamanda mifiq Şərq fəlsəfəsinin elementlərini görürük.

Müəllifin “Gəmiqaya”sını xarakterinə görə tarfixi və siyasi baxımdan son dərəcə əhəmiyyətli şeir hesab etmək olar. “Bəkir oğlu Əcəmi”, “Oğlan qala, Qız qala”, “Əlincə”, “ Fərhad evi”, “Gülüstan”, “Qarabağlar türbəsi” və sair qızıldan qiymətli örnəklərimiz tariximizin canlı şahidləri kimi poeziya qiyafəsində bir daha ömür qazanmış, özünə bədii “pasport” almışdır.

M.Qasımzadənin gərgin zəhmət və axtarışlarının bəhrəsi olan bu şeirlər elmi-nəzəri faktorlarına, bələdçi rolunu oynayan xüsusiyyətlərinə görə hər bir tarixsevər üçün dəyərli töhfə, vətənpərvərlik vəsiləsidir. Bütövlükdə bu silsilə şeirləri qalalarımızın, türbə və abidələrimizin poetik xəritəsi də hesab etmək olar.

Əziz oxucu, əgər Muxtar respublikamızın–Nuhla yaşıd olan ulu Naxçıvanımızın tarixi mədəniyyəti ilə tanış olmaq istəyirsənsə bu şeirlərə müraciət et; hər qala könül dostun, sirdaşın, hər abidə qürurun, yaddaşın olsun.

*İsmayıl HACIYEV,*
*tarix elmləri doktoru, akademik.*

## GƏMİQAYA
*(Nuh əhvalatı)*

*

***Nuh çıxandan gəlirəm,***
***Bura Nuhun öz eli.***
***Köhnə qala- məzarı,***
***Gəmiqaya–heykəli!***

*

Yeri, göyü, asimanı,
dəryaları oxuyanlar.
Ulduzları, kəhkəşanı,
yuxuları oxuyanlar
dolanırdı yer üzündə.
Dərgahına fal açanlar,
Allahına əl açanlar,
sabahına yol açanlar
dolanırdı yer üzündə.
Günəş niyə doğdu görən,
şimşək niyə çaxdı görən,
bulud niyə yağdı görən?!
Adamların zəkasında
düşüncələr sayrışırdı.
Gələcəkdən, olacaqdan
Həzrəti Nuh danışırdı.
Elə bil ki, özü deyil,
içində ruh danışırdı:
Yer üzünün bu üzünü
su alacaq.
Bizə böyük gəmi gərək
nicatımız o olacaq!
Dinləyənlər şəkk elədi,
bəziləri qəşş elədi.
Aram-aram dağıldılar

ancaq Nuha güvənənlər,
ona iman gətirənlər
dövrəsinə yığıldılar.

*

Uzunluğu yüz əlliydi,
qayım-ətək.
Eni altmış,
hündürlüyü otuz dirsək
tökdü bütün xəracını,
kəsdi xurma ağacını
o dərmədən nəfəsini,
hazırlatdı gəmisini.
Gəmisinə toplamışdı
hər canlıdan,
bir də yetmiş altı adam.

*

Dəclə, Fərat sahilləri
gərnəşdilər.
Çaylar coşub birləşdilər.
Silkələnib
qalxdı gəmi su üzünə.
Mələklər dua oxudu
o üzünə, bu üzünə...
Yer partladı,
Gün çatladı,
buz qatları sındı Ərzin.
O zaman ki,
tərəddüdlər qucağında,
insan Allah sorağında
sürünürdü dizin-dizin.
Təndirlərin küfləsindən
su çağladı .
Yer ağladı, göy ağladı.
On üç fəsil

yanar-yanar sellər daşdı.
Dünyamızın bu üzünü
sular tutdu,
dağlar mavi dəryalarla
qucaqlaşdı.
Zəmiləri
su altında tel gətirdi
boylu-boylu qayaları
soyuq-soyuq əl gətirdi.
İnsan oğlu qəribsədi,
bir yanıqlı dil gətirdi:
"Dəryada gəmim qaldı,
biçmədim zəmim qaldı.
Məni Tanrım saxladı
o yanda kimim qaldı..."
Günəşə yalvaran,
Aya yalvaran
Ulduza yalvaran,
Suya yalvaran
əl açıb göylərə
dözür, dözürdü.
Tanrı sevimlisi,
Nuhun gəmisi
suların üzündə
üzür, üzürdü...
Gün keçdi, sıxıldı
təngidi tufan.
Axırda darıxdı,
səngidi tufan.
Qalxıb şükr etdilər
onlar Allaha.
Dalğalar gəmini
yormadı daha...
Ağrıya dəydi, döndü,

Kəmkiyə dəydi döndü,
Haçadağa süründü
batdı çənə, dumana
can atdı gündoğana
Göyləndi güldü yazı
qazlandı Qafaqazı
Gəmiqaya göründü!..
Sular tərk etmişdi
azacıq dağı.
Boy verdi,
boyuna Qafacıq dağı
Bərə-qayalığa
yan aldı gəmi,
boşaldı gəmi...
Yer üzünün göy üzünə
baxan yeri oldu ora
Nuhçuların quraqlığa
çıxan yeri oldu ora.
Ləpələri çəkildikcə
təpələri görünürdü.
Adamların qaya üstə
ləpirləri görünürdü.
Kəlmə-kəlmə toxudular,
nəğmə-nəğmə oxudular:
"Səndir-səndir su yatdı,
tufan bitdi, ur batdı,
Bu dağda bir elat var,
Nuh andı Urdubatdı".
Cığır açıb, daş oydular.
Yurdlarını qura-qura
ora-bura ad qoydular:
Ayıboğan, Çadır daşı,
Nəsir dağı, Xıdır daşı,
Palantökən, Qaranqucaq,

Tillək, Göydağ.
Qapıcığın gen sinəsi
ad qazandı: “Gəmiqaya.”
Nuh babamın məskənitək
məşəl kimi
alovlandı Gəmiqaya!..

*

Ayağım əlim olsun
Heşanım, vəlim olsun.
Yeri ha, dizim, yeri.
Bir cüt öküzüm, yeri.
…Əkirdilər, biçirdilər,
yeyirdilər, içirdilər.
Sənətkarın tişəsindən
iz düşürdü qara daşa.
Nəğməkarın ürəyindən,
söz düşürdü qara daşa.
Bu daşların, qayaların
sayı sonsuz.
Eraların tarixində
payı sonsuz...
O yay çəkən səyyada bax
bərə daşda o halı gör.
Bəri daşda sinəsi dağ
dərdə düçar maralı gör.
Gözlərindən yaşdı gələn
sanki deyir yaralıyam.
“Aman ovçu, vurma məni
mən bu dağın maralıyam”.
İrəliyə, geriyə bax,
qayalıqda “sürüyə” bax.
Dağ qoçunun
ox şəkilli buynuzları,
meşə salıb daş üstündə.

O zamandan bu zamana
qaya qalıb–
“beşqanadlı” quş üstündə!
Sinəsində
“kosmoqoniq” xəritələr,
yallı gedən ilk insanlar,
başlarında
çoxşaxəli “antennalar”...

*

Qədim, doğma Qobustanın
atasıdır, anasıdır
Gəmiqaya.
Nuh babamın nicat yeri,
xilasıdır Gəmiqaya.
Doğulanlar,
yaşayanlar oldu burda.
Dünyasını
dəyişənlər oldu burda.
Qəbirləndi, kəpirləndi
məzarıstan saldı burda.
Uzaqdaydı–
su altında uyuyurdu
hələ Fərat sahilləri.
Ancaq burda–
təzə yurdda
gündən-günə
çoxalırdı Nuh elləri...
İllər ötdü, ömür bitdi
Nuh babamız bu dünyadan
o dünyaya köçüb getdi.
Xan Arazın sahilində,
Nuh elində qəbir bitdi.
“Adını ozan ağlar,
dərdini yazan ağlar.

Burda Nuhum ölübdü,
qəbrini qazan ağlar...”
Ovundular, oxşandılar,
Yavaş-yavaş
aranlara daşındılar.
Törəndilər qız-gəlini,
mərd ərəni,
Yurd salanı, ad verəni:
“Nuhəcir”i, “Nuhdaban”ı,
“Nuhərəm”i...
Sal yazıda, gil yazıda,
“Avesta”da, “Bilqamıs”da
sətirləndi,
əsilləndi qaya-qalam.
Daş üstündə möhürləndi,
şəkilləndi qaya-qalam.
O zirvəni, o kürsünü
həqiqətin səsi bilin.
Dörd min metr ucalıqdan
tarixlərə hörmət deyir
Gəmiqaya!
Qoy eşitsin bütün dünya:
Bura Nuhun vətənidir
Nuhçıxandır–Naxçıvandır,
Diqqət, diqqət,
diqqət deyir Gəmiqaya!

## “FƏRHAD EVİ”

Şirin nə gözəliymiş
Fərhad nə gözəl oğlan.
Çapıb qayanı geymiş
Əyninə, gözəl oğlan.

Yaradıb yara-yara
Fərhad bəy otağını.
Köçürüb qayalara
Şirinin ağlığını.

Daş da quşa qoşular–
Taxıb qanad evinə.
Sağılıb ağ buludlar
Axıb "Fərhad evinə",

Süddür divarı, damı
Alnında dan sökülür.
Döşündən "Ağ bulaq"mı?
Süd arxımı tökülür...

Biçənəkdən yuxarı
Qaya saray, dağ saray.
Mat qoyub səyyahları
Dörd otaqlı "Ağ saray".

Şirin öldü-dedilər
Fərhad yandı xəbərdən.
Döndü dağlar, dərələr
Qanlıgölə kədərdən.

Yox, o "Qanlı göl" deyil
Fərhadın göz yaşıdı.
Susdu sevdalı könül
"Fərhad evi" yaşadı.

Qonub güllər içinə
Şirinin sorağında.
Bənzər ağ göyərçinə,
Batabat yaylağında.

## ƏSHABİ-KƏHF

Əl açdı göylərə yeddi kimsənə,
Bir olan Allaha inam gətirdi.
Tanrı könül verdi öz bəndəsinə,
Yeddi Kimsənəyə salam yetirdi.

Nuh çıxan ölkəsi vətənləriydi
Onlara dar idi doğma od-ocaq.
Yeddi müqəddəsə Allah biriydi,
Allahlıq eyləyən çoxuydu ancaq.

Dağ Yunus adında qəddar padişah-
“Mənəm tanrı” deyən zalım var idi.
Günlərin bir günü vəzir Təmleyxa,
Məslək dostlarıyla şahı tərk etdi.

Yeddi yoldaş olub yol getdi onlar,
Getdilər, getdilər Allaha sarı.
Şah qoşun göndərdi, tapılmadılar
Hər yerdə hifz etdi tanrı onları.

Bir kaha dibində yorğun düşdülər,
Üç yüz il yuxuya getdilər onlar.
Sağına, soluna keçdi mələklər,
Sanki muradına çatdılar onlar...

Oyanıb, gördülər gün tutub yeri,
Bulaqdan nişanə qalmayıb, belə.
Az qala Qitmirin itibdi qəbri,
Geydikləri libas gəlməyir ələ.

Onlar baş əydilər Tanrı sirrinə
Çöküb yalvardılar böyük Allaha.
Beləcə qeyb oldu “yeddi kimsənə”,
Pir oldu onların keçdiyi kaha.

Ziyarət edirik Əshabi-kəhfi,
İlk inanc yerimiz, qədərimizdi.
"İncil"də, "Tövrat"da, "Quran"da deyir
Tanrı ocaqları haqq yerimizdi!

## OĞLAN QALA, QIZ QALA

Qədim Şərur elində,
Arpaçay sahilində,
dalıb dərin xəyala
durub üzbəüz qala–
Oğlan qala, Qız qala.
Arpaçay axıb gedir,
min illərdi ortadan.
Sel Saranı aparıb,
kədərlidir o vaxtdan...
İtirib baharını,
sinəsi dağlar görüb.
Dağılmış saçlarını,
əl çəkib, Araz hörüb.
Özünü lap üzübdü,
çay quruyub az qala.
Bəlkə ondan küsübdü
Oğlan qala, Qız qala.
Oğlan öz qayasından
qıza baxarmış hər gün.
Qız da öz qalasından
Yola çıxarmış hər gün.
Xallı kəpənək kimi
uçub gələrmiş çaya.
Oğlan da ovlağını
endirərmiş oraya.

Beləcə qovuşarmış,
Xançoban Sarasıyla.
Xançoban tanınarmış
Durnatel sonasıyla.
...Şeytan yüyrək ayaqlı,
tərəflər qanlı imiş.
Oğlan yoxsul, çarıqlı
Qız varlı, şanlı imiş.
Ancaq məhəbbət quşu
oxuyarmış ucadan.
Dünya qopsa ayrılmaz
Sara ilə Xançoban.
Dözmədilər paxıllar,
dikəldilər ilantək.
hökm etdilər qalalar
Ucalsın təzdən gərək.
...Bir gün açılsın deyə
məhəbbətin yolları,
Sarasından güc aldı
Xançobanın qolları.
El yuxuya dalanda
Xançoban oyaq oldu.
Məhəbbətin yolunda
daş dönüb yumaq oldu.
Gözdən axan yaşları
ağır daşdı elə bil.
Ağır qala daşları
fağır daşdı elə bil.
Salmışdı hər salını
qalayçılar qalaya.
Çapdı-tökdü yolunu
qalan qaldı qalaya.
Bu gücü hardan aldı
Heç bilmədi Xançoban.

Arpaçaya yol açdı
sübhə kimi qaladan.
O tay qala bürcünə
Neyin səsi çatırdı.
Gedib sevgilisinə
düz nəfəsi çatırdı.
Qala divarlarından
uçub yarı gəlirdi.
Qanadlanıb qayadan
ona sarı gəlirdi.
Dalğalar ondan qabaq
qucaqladı Saranı.
Xançoban dalğalardan
soraqladı Saranı.
"Arpaçayı dərin olmaz,
Sara kimi gəlin olmaz
Apardı sellər Saramı
bir alagözlü yarımı..."
Arpaçay üzüquylu
düşdü xəcalətindən.
Küsdü çaylar, çeşmələr
çəkildilər o gündən.
Dözənmədi bu dərdə
sular yandı-töküldü.
Qaraldı Qara təpə
xiffətindən büküldü.
O günlərdən bu günə
nələr, nələr yaşandı.
Döndü sevgi mülkünə
əfsanələr yaşandı.
Arpaçay sahilində
Durub qoşa üz qala.
Yaşar Oğuz elində
Oğlan qala, Qız qala.

## DUZ SARAY

O möcüzə təbiətin deyil, yox
O, insanın əllərilə yonulmuş.
Divarı duz, tavanı duz, yeri duz,
dörd bir yanı pilə-pilə yonulmuş.

Fəvvarədir büllur, bəyaz sütunlar
Hörüklənib qatar-qatar elə bil.
Qübbəsindən nur tökülür o ki var,
salxımları çil-çıraqdı, duz deyil!

Yüz illərdi, min illərdi eləcə
Duz-qurumlar pərdələyib qapını.
Himə bənddir, nəfəsinə səs dəyə
tökə bilər salxımını, camını...

Daş aləti, duz aləti yerində
şaxtalarda əmanətdir Duz saray.
Dünənimdən bu günümə xatirə,
otaq-otaq həqiqətdir Duz saray.

Yer altında ilmələnib, tellənib
ustaların əməlləri, izləri.
Oyma-oyma, burum-burum güllənib
“divanları”, “kürsüləri”, “mizləri”.

Qoy hər yanda eşitsinlər adını
günbatanda, gündoğanda desinlər.
Sarayların ən gözəli, xatını
Naxçıvanda, Duz dağında, desinlər.

## ÇALXANQALA

Yer üzü bəy idi, xan idi onda
Ehey, ulu bəylər, xanlar, he, he, hey...
Adınız, sanınız vardı cahanda,
sizdən söhbət açır dastanlar hey, hey.

Dərdiniz-səriniz nəydi görəsən
bəlkə sərvətiniz, malınız şərik?!
Sizin əlinizlə bir idi vətən,
sizin əlinizlə o didik-didik...

Hər bəyin adına bir qala vardı,
Oğuz qala olsun, ya Çalxan qala.
Tarix cavabına çox intizardı
silkələn, danış di, a Çalxanqala.

Adın "Bəngidaş"dan,–şumerdən keçir,
Alın yazıların ömürdən keçir...
Səninlə öyünmək istəyirəm mən,
özündən öyrənmək istəyirəm mən.

Qaya parçasından ağır daşları,
sürtülən, yeyilən, yağır daşları
niyə qalaqlayıb Qala qurmusan?!
Axı, kimi kimdən sən qorumusan...

Mən belə düşündüm, sən dilini aç,
danış dərdlərini, a xaqan qala.
Divar daşlarının çatlayıb bağrı
danış, sirrini aç, a Çalxanqala!

Boylan Payız adlı öz humayına
Danış, dərdini tök
Cəhri çayına.
Çalxana-çalxana

içindən sökül,
Tökül tarix kimi ovcuma tökül!
Yurdu qorumağa qala qurmusan,
yaddan qorunmağa qala qurmusan...
Düşüb, ildırımlar qazıb himini,
qala divarların əkilib yerə.
Döyüşdə vurulan əsgərlər kimi
yaralı daşların tökülüb yerə.

Dikəl, sınıq qalam, qırıq qoşunum
axan qanlarına qan alan qalam.
Danış, tarixinlə öyünüm, coşum,
Mənim Çalxanqalam, Qəhrəman qalam!

## ƏLİNCƏ

Belinə kəmər kimi
bağlayıb sərt daşları.
Ehtiyat əsgər kimi,
saxlayıb mərd daşları,
sanki qoyubdu dincə,
Əlincə.

Dörd qaplandı hovuzlar,
alır buluddan bacı.
Zirehlənib hasarlar,
qurulub taxtı-tacı–
miladdan çox-çox öncə,
Əlincə.
Vuruşub zaman-zaman,
Düşməni əldən düşüb.
Olubdu yurda qalxan,
Miranşah dildən düşüb,

sıxıb Teymuru küncə,
Əlincə.

"Şahtaxtı"–şah qalası,
dizində ərlər yatır.
Şırımlanıb yaxası,
köksündə sirlər yatır,
daş alnında düşüncə,
Əlincə.

Burda Atabəy Özbək
qalaya bel bağlayıb.
"Xəzinəni" sonadək
Məlik Tahir saxlayıb.–
Döyüşübdü ölüncə,
Əlincə.

Cəlair dövlətinin
himni, bayrağıdır o,
Mö'min Şərafəddinin
yaddaş çırağıdır o–
təzkirəmdir bütüncə,
Əlincə.

## KÖHNƏ QALA HAQQINDA BALLADA

Naxçıvanın yaxasında
bir qala var–
Köhnə Qala.
Əsrlərdən qala-qala
köhnəlib o.
Tarixlərin tufanında,
torpaq olub,

ələnib o.
Silkələyin bu qalanı,
açılmayan sirləri var.
Mağaralar licimində
vahiməli yerləri var.
Bura uzaq eraların,
yozulmamış yuxusudur.
Bu "zağalar",
bu qalanın
ibtidai metrosudur.
Məlikməmməd
cəsarəti istəyirəm
bu sehrli "metrolardan"
keçib gələ.
Qədim nağıl dünyamızın
Yel atında,
ya Simurqun qanadında
uçub gələ...
Neçə-neçə əsrləri
yola salıb,
özü qalıb Köhnə qala,
köhnəlibdi qala-qala!
Buludların yağış dili
ovxarlayıb divarları.
Diksindirib bu qalanı,
şimşəklərin havarları.
Elimizin igidləri
döyüş üçün təbil çalıb.
Zaman-zaman abad olub,
zaman-zaman viran qalıb.
Karvan-karvan daşınıbdı,
şadlıq burdan töhfə kimi.
Boylan möhrə hasarlara,
dərd gətirib qabar-qabar,

hürgücü var dəvə kimi.
Bu “karvanın” ləngərinə
dağlar fikri çənli baxıb,
Araz gözü nəmli baxıb...
Sükut qara libasında
Кahalara əsir düşüb.
Tənhalıqdan bu qalanı
dərd əridib, qəm üşüdüb...
Səs verirəm,
səs alıram zağalardan.
Xoflanıram
qəhqəhəli sədalardan.
Gil tavandan
bir gil qopub suya düşür,
Bütün qala haya düşür...
Qulağıma ərənlərin
uğultulu səsi gəlir.
Lap uzaqdan
qaraltılar peyda olur–
Elə bil ki, bu qalanın
qayğısını, qeyrətini
çəkmək üçün
Dəli Həsən,
Dəli Domrul,
Neçə oğuz,
neçə oğul özü gəlir.
Qədim, ulu arxa kimi,
söykəyirəm
divarlara kürəyimi.
Nuh çıxandı doğma yerim,
el doğanın Əri burda.
Şeyxim, pirim, peyğəmbərim–
Nuh babamın qəbri burda.
Zağalardan

keçə-keçə əyilirəm.
Əyilmərəm!
Bu yerləri görmək üçün
görün necə əyilirəm...
Əlin dəysə toza dönər,
zalım daşlar fağır daşdı.
Döyüşlərin heyrətindən
donub qalan,
yaddaşları yanıb qalan,
burda sükut uçqunları
ağır daşdı!!!
Bürünürəm
qala boyda qaranlığa.
Qaradinməz sükutlardan
səksənirəm bir anlığa.
Elə bil ki,
mən yuxudan oyanıram.
Sıyrılıram
zağaların zülmətindən,
dünyamızın işığına
boyanıram.
Ürəyimdə bir qalanın
nağılını daşıyıram.
İtib-batan bir dünyanın
Qalxıb gələn
Sakininə oxşayıram.
Ulu yurdun Məkkəsini-
Nuh babamın
Türbəsini oxşayıram.
Göstərirəm yerə, göyə
nəğmə qala, söz qalamı.
Ürəyimin işığına
bələyirəm öz Qalamı...

## XARABA GİLAN

Ordubad mahalında
qədim bir şəhər vardı.
Zalım xilafətlərin
zülmündən yadigardı.
Ordular, qəbilələr
Hey üstünə yeridi.
İndi bu qədim şəhər
xarabalıq yeridi...
Çiliklənib çinilər
çin-çin olub tökülüb,
cin-cin olub tökülüb.
Sağsağan qanadıtək
saxsılar allı, güllü.
Daşlardakı kəpənək,
ya daşmı xallı, güllü?!
Ayağını yavaş bas,
səsini sal içinə.
Səsdi, səsə qulaq as
yazılıb sal içinə.
Dəyirman daşı kimi
sallanıb "val" içinə.
Sərdabələr qəbirdi,
döşənib lal içinə.
Neçə gözəli, mərdi
dalıb xəyal içinə.
Boyu, buxunu, qəddi
bükülüb şal içinə.
Dəbilqəsi, kəməndi
sərilib yol içinə.
Yurdun sevinci, dərdi
qazılıb gil içinə...
Oxu, oxuya bil ki,

qoru, qoruya bil ki
barı qoruğun olsun,
bir daş sənədin, bala,
bir daş varağın olsun!
Nəsillər sıralanıb
hörmətlə yeddi-yeddi.
Cecimlənib, ağlanıb
adətlə yeddi-yeddi.
Kürreyi-ərz hallanıb
cəhətlə yeddi-yeddi.
Yerlər, göylər yaranıb
Hikmətlə yeddi-yeddi.
Oxu, tanı Gilanı.
Yeddi arxadönəndi–
onu birinci tanı!
Möhtəşəm şəhəriymiş,
ər qalası, əriymiş.
Aza–qala qapısı,
"dər" söylədi yad ona.
Gilançay su tanrısı,
Düylün möhürbənd ona.
Başdan aşarmış varı,
varmış asma bağları,
saxlarmış yoxsulları,
bağlarmış etibarı
neçə şəhər, kənd ona...
Gözüdarlar, darğalar,
qarabaşlı "qarğalar"
Dağıtdılar Gilanı,
o güllü gülüstanı.
Soldu, söndü, saraldı
çəkildi qeybə Gilan.
Tarixdə adı qaldı,–
qaldı Xaraba Gilan.

Nə yaxşı ki, yurdumun
daşı göyərən, bitən.
Miras kimi qoruyur,
onu saxlayır Vətən.

## GÜLÜSTAN

Culfa şəhərindən bir az yuxarı
tağları dağılmış bir körpü vardı.
Cuğa vadisində bəlkə bu körpü,
Cığatay soyundan bir yadigardı.
İgid babaların, igid ərlərin,
aşıb karvanları burdan nə qədər.
Gedib Hindistana, Uyğurstana,
Uzanıb Təbrizdən, Qəzvinə qədər...
Gəl tutum əlindən, ay əziz bala,
qoşa addımlayaq , çıxaq bu yola.
Araz sahilini gəzək həvəslə,
Yan-yana düzülən karvansaraylar
bizi tənha qalan qoynuna səslər.
Gülüstan türbəsi, ona yaxşı bax!
Güllü yanağına, naxışına bax.
Durub məğrur-məğrur körpü başında.
Şimşək çilikləyib dəbilqəsini,
qalıb ildırımdan qəlpə başında.
Sirli pıçıltısı, möcüzəsi var,
Üzündə elə bil Azərbaycanın
səmavi naxışdan xəritəsi var.
Əynində ulduzlu köynəyini gör,
daşlardan biçilən ətəyini gör.
Bir az yaxında dur, ay əziz bala,
Ürəyi dumduru, tərtəmiz bala.

Sinə dəftərini aç Gülüstana,
nadir inci kimi göstər cahana.
Yaşı yeddi yüzü haqlayıb, ötüb.
Yaşını o baba yaşına söykə,
başını o qala başına söykə.
Məbəd bil, möhür bil, zühur bil onu,
o açıq alnını daşına söykə!

## XANƏGAH

Əlincə qalasından,
üç min dirsək yuxarı.
Gəlin, dərə yoxuşa
qalxaq gedək yuxarı.

Ceviz qocalıb tamam,
cadar-cadar qolları.
Kəndirlənib dizinə
Xanəgahın yolları.

Yüz illərdi beləcə,
Zaman dayanıb durub.
Heyran qalıb Əlincə,
Duman dayanıb durub.

Adlayıb on dörd əsri
yol gəlib Xanəgaha.
Qovuşub müridləri
Mövlana Fəzlullaha.

Dağdı, daşdı müridlər,
şeir deyir Nəsimi...
Xor oxuyur qəbrlər:
"Ya Fəzlullah Nəimi".

Sirri-Xudaya görə
bilir bu yer, göy nədir.
"İnsan üzü kitabə",
gözəlliyi Ayədir.

Mat qoyub teymurları,
çatıb haqqa, kamala.
Hürufilər Nigarı,
can dildarı Fəzlullah.

Xaliqin qüdrətiylə
faili-Muxtar olub.
haqqın kəramətiylə,
ocaq olub, pir olub.

Memar Cəmaləddinin
ehtişamıdı türbə.
Şeyx Fəzlullah cəddinin
yanar şamıdı türbə.

## ZORXANA

Ortalıq coşdu birdən,
Zurnada "Cəngi" dindi.
"Bu meydan, bu da şeytan",
Hünərin var, gir indi...

Genişqaldı, gözəldi
Ordubadın qoruğu.
"Zorxana" dörd yüz ildi
köksündə göz muncuğu.

Güştü tutub neçə ər,
görüşüblər burada.

Sınanıb, bərkiyiblər,
öpüşüblər burada.

Ürəkləri coşdurub,
çalınıb "Güləşəngi".
İgidlər səfə durub,
önə çıxıb zirəngi.

Güləşdi ha, güləşdi
atıl ər savaşına.
Meydana gir, güləş di,
çiçək yağsın başına.

Babalardan nişanə,
yadigardı Zorxana.
İgid varsa, buyursun
intizardı Zorxana...

1992

## KİRNADA "ALLAH EVİ"

Tanrı ayaq verib, əl verib ona
Qalxıb, qabarlanıb, boylanıb yerə.
Sanki qanad verib, qol verib ona
Səma qucağından sallanıb yerə.

Nəhəng hörümçəyə bənzəyir məbəd
Buğum ayaqları necə var, qalıb.
Ehtiram göstərib ona dörd cəhət,
Memar dörd yanından qapılar salıb.

Göylər yad eyləyib onu dörd dəfə
dörd Kitab göndərib hər qapısına.
Dörd tağ pəncərələr çatıb şərəfə,
hərəsi göz olub bir qapısına.

Üzünə üz düşüb, dodaq çəkilib
ümidlər asılıb Allah evinə.
Kərpic camalına sumaq çəkilib,
mələklər xətt salıb Allah evinə.

Adəm övladından hörmət görübdür,
müqəddəs hilaldı Kirna məbədi.
Ulu tarixlərdən ziynət görübdür,
Sanki Tac-mahaldır Kirna məbədi.
1988

## ŞƏRQ (İSMAYIL XAN) HAMAMI

İtib-batan bir inciydi
Torpaq altda uyumuşdu.
Bir zamanlar çox istiydi
Tənhalıqdan soyumuşdu.

Künbəzləri dəlmə-deşik
Sütunları şikəst, çolaq.
İlləti çox, dərdi böyük
İçi küllük, sinəsi dağ...

Görən onu bu hallara
Kimlər idi salan belə.
"Arıyanlar", "Yarıyanlar"
Sağın belə, solun belə...

Ətəyində Bazar çayı
Naxçıvana carçı idi.
Tapılmazdı ekiz tayı
Hamamların tacı idi.

Nə yaxşı ki, ömür çatdı
Öz hökmünü verdi zaman.
Ulu öndər əl uzatdı,
Cavanlaşdı "İsmayılxan"

Hovuzları, künbəzləri
Bu gün açıb zanbaq kimi.
Üç əsrlik dəhlizləri,
Cilvələnib çıraq kimi.

Unudubdu çoxdan dərdi,
Qovuşubdur abad çağa.
Yer altında məhkum idi
İndi çıxıb azadlığa.

2000

## BUZXANA

Çiynində səhəngi,
əlində camı.
Uşaqdan böyügə
Şirin İslamı
hamı tanıyırdı
bizim şəhərdə.
İşləri düşərdi
xeyirdə-şərdə.
Suyu Kəblə Musa,
Qızlar bulağı,
buzu, Buzxanadan
gətirərdi o.
Alışan ürəyin,
yanan dodağın
yanğısın buz ilə
söndürərdi o.

Bazarı dolanar,
toya girərdi
Suyundan içənlər
"şahı" verərdi.
...İndi o mənzərə
uzaqda qalıb,
Köçüb İslam dayı,
Buzxana qalıb.
İslamın özü heç,
babasından da
çox-çox qədimlərdən
vardı Buzxana.
Çayların ağappaq,
sal buzlarıyla
yayı bəs edərdi
o Naxçıvana…
Bəlkə də yaşından
beş yüz il ötüb
Durub sağsalamat,
kərpici bütün.
Babamın bu nəhəng
"buz dolabı"na
nə zaman istəsən
buz yığ, buz götür…
Gün keçib, əriyib
baharı, yazı.
Yel vurub, içində
yengələr gəzib.
Buzxana üşüyüb
xatirələrdə,
Buzuna tamarzı
ürəklər əsib.
Xeyirxah əllərlə
Daşı, kərpici

Bəzənib yenidən
artıb sevinci.
Durub Naxçıvanın
öz qucağında.
Yaşar Köhnə qala
qonşuluğunda.

## BƏKİR OĞLU ƏCƏMİ
(proloq)

O əllərin nə qəribə möcüzə,
O əllərin nə qəribə sehr imiş.
Yaratdığın neçə məğrur abidə
Azərbaycan torpağına mehr imiş.

Ey Əcəmi, hər baxışın öncədi,
Hər naxışın daşda bitən qönçədi.
Yaxın gəldim, görüm hələ necədi,
Toxunanda gördüm təzə-tər imiş.

Hər türbənə baxdım dönə-dönə mən,
Qüdrətinə sevgi deyim, ya nə mən?!
Sehrləndim öz yerimdə yenə mən,
kaşıların başdan-başa şeir imiş.
*

Keçmiş zamanda,
Nuhçıxan adlı
gözəl məkanda
müdrik, nurani
memar yaşarmış.

Onun ürəyi
xan Araz kimi
coşub, daşarmış.
Adamlar onu
çox sevərmişlər.
Hörmət, ehtiram
göstərərmişlər.
Kimiymiş görən
o bəxtəvər kəs?
Bilmək istəsə
yaxına gəlsin,
dinləsin hər kəs.
Söyləyək ona,
qəlbən vurulsun
memar oğluna...

*

Bəkir zəkalı
bir insan idi.
Yaradan əli
qızıldan idi.
Şanı, şöhrəti
ellər aşmışdı.
Ancaq qocalmış,
ahıllaşmışdı.
Oğlu Əcəmi
hələ uşaqdı.
Ata bilirdi
yalnız Əcəmi
ona dayaqdı.
Bir gün çıxdılar
eyvana qoşa.
Dönüb baxdılar
hər yana qoşa.
Zərli eyvanın

açıq hər yeri.
Onlar buradan
seyr elədilər
doğma şəhəri.
Baxıb gördülər
hər yan yaraşıq.
Memar Bəkirin
üzündə işıq
boylandı qəsrə,
neçə cameyə.
Dönüb söylədi
o, Əcəmiyə:
Bir gün köçərəm
əməlim qalar.
Göy minarələr-
heykəlim olar.
Hərbiş körpülər,
o dörd-beş qala,
istəməzdim heç
özümdən sonra
yarımçıq qala,
nisgilim ola...
Atanın sözü,
istəyi vardı.
Bunu oğluna
hey arzulardı.
Daş sənətini
yaşatsın deyə,
şan-şöhrətini
yaşatsın deyə!

*

Həyət-bacada
dünənə kimi,
Palçıqdan “evlər”

quran Əcəmi
on beş yaşına
çatmışdı artıq.
Ata sözündən
düşdü qəlbinə
sanki bir işıq.
Mavi gözləri
gülümsəyərək
dikəldi başı.
Göy qurşağıtək
çatıldı qaşı.
Qoşa çıxdılar
sabahdan yola.
Müəllim oldu
ata oğula.

*

O vaxtdan aylar,
illər keçmişdi.
Bəkir dünyadan
çoxdan köçmüşdü.
Oğlu Əcəmi
fikrə dalmışdı.
Atanın yolu
bir memar kimi
ona qalmışdı.

*

Doğma məkanda-
Nəqşicahanda
hələ o zaman,
məşhur pəhləvan
Üzeyir oğlu
Yusif varıydı.
El sərkərdəsi,
elin yarıydı.

Qoç oğullara
öndər idi o.
Qoçüstü adlı
Kiçik Qalaya
sərdar idi o.
Xələfi üçün
şan olsun deyə,
Türk əcdadına,
gözəl abidə
ucalsın deyə,–
elçi göndərdi,
sifariş verdi
gənc Əcəmiyə.
...Qatdı gecəni
gündüzə memar.
Durdu zamanla,
üz-üzə memar.
Qürub bilmədi,
dan üzü hördü.
Ay nuru içdi,
gün üzü hördü.
Deyilən vaxta
işini gördü.
Məğrur türbənin
qoydu başına
dərviş papağı.
Qızıl suyuna
çəkdi qurşağı.
Sirlə suvadı
o, səkkiz tağı.
Zərə tutuldu
səmavi türbə.
Hikmətlə doldu
mavi kitabə.

Memar üzünə
yazdı Hədisi.
Beləcə gəldi
bu yer üzünə
Üzeyir oğlu
Yusif türbəsi.

*

Artıq Əcəmi
məşhurlaşmışdı.
Onun şöhrəti
ellər aşmışdı:
Bərdə, Səmərqənd,
Marağa, Dərbənd,
bilmədi sərhəd
Əcəmi eşqi.
Nur kimi daşdı,
axdı, qarışdı.
Səs verdi ona,
söz verdi ona
Nizami eşqi.
Qalmışdı heyran,
ona çox xaqan.
Eldəniz oğlu
şah Qızıl Arslan.
Böyük Məhəmməd–
ünlü Atabəy
Cahan Pəhləvan...
Bir gün dolaşdı
bütün şəhəri
xəbər quş kimi.
Elçi göndərib
Cahan pəhləvan,
Deyir saraya
gəlsin Əcəmi.

*

Gənc Əcəminin
yeri başqaydı.
Şaha bərabər,
günəşə taydı.
Bəzəndi saray
büsbütün əlvan.
Əyan-əşrəflə
qəbul eylədi
Bəkir oğlunu
Cahan pəhləvan.
Söylədi ona:
–Ey böyük ustad,
qoy Tanrı versin
Sənə güc, qanad,
bir türbə yarat,–
Ana türbəsi.
Üzündə olsun
ismət pərdəsi.
Nurdan tökülsün,
o, mələk olsun.
Şərqdə birinci,
o gərək olsun!

*

İşə başladı
dahi sənətkar.
Aylar ötüşdü,
keçdi ruzigar.
Bəkir oğluna
güc verdi xaliq.
Yüz on beş aya
türbə ucaltdı.
Anaya layiq
qiblə yaratdı.

Baxanlar dedi
kaşanədəndir.
Boyu-buxunu
ilahidəndir.
Ulduz falıdı
dörd “medalyonu”.
Yalnız münəccim
oxuyar onu.
Naxışı incə,
naxışı qönçə,
Hələ gör necə
təzədi, tərdi.
Hər Ayəsi zər,
mat qalıb bəşər.
Allahu-əkbər
bu necə sirdi...
Yatır qoynunda
Mömünə xatın.
Müqəddəs ana,–
müqəddəs qadın.
Ziyarətinə
El-oba gəldi.
Hamı könüldən
baxıb söylədi:
Kərpic anamız,
bacımızdı o.
Şərəf-şanımız,
tacımızdı o.
Memar nəfəsi,
mehridi türbə.
Nəqqaş nəğməsi,
şeiridi türbə.

## QARABAĞLAR TÜRBƏSİ

Gözəlim Qarabağlar,
bağları barı bağlar.
Dumanı kəmər eylər,
başına qarı bağlar.
Boylu sütunların ortası xalı,
Sanki əl gəzdirib bahar boyuna.
Vətən küləyindən məst olub halı,
vurul bu türbənin çinar boyuna.
Kərpici gül butası,
narıncı, gül butası.
İlmələri bənövşə,
göy bürcü gül butası.
Gözləri ümidlə baxır dörd yana,
yol çəkir, həsrətin sonu görünmür.
Sükut əsir düşüb dörd qapısına,
nə vaxtdır yanından kölgə sürünmür.

Çevrilib daşa mərdi,
verib baş-başa mərdi.
O qoşa minarəmi?
ya durub qoşa mərdi...

Durub, inamla durub
Tanrının qüdrətindən,
On iki qardaş kimi
baş-başa sütunları.
Naxışlanıb, süslənib–
memar öz hikmətindən
verib igid görkəmi,–
ona qala vüqarı.
Yolunu sal türbənin
sən qüzey qapısına,

bəlkə oxuya bildin
Əhməd Əyyub adını.
Yeddi yüz əlli ildir
gözlər dikilib ona,
ruzigar soldurubdur,
düşmən oyub adını.

Bir həndəsə elmidir
Cilalanıb üzündə,
nəbati varaqlara
bənzər kənarələri.
Dan yeritək ağarır
yazıları köksündə,
bənövşəyi səmadı
sanki kitabə yeri...

Bir az bənizi qaçıb,
xal düşüb qurşaqlara.
Naxışları göz açıb,
zillənib uzaqlara.
Qızıl camdı haləsi,
Mələk tacıdı sanki.
Qarabağlar türbəsi
Sənət bürcüdü sanki.
Qoynu boşalıb, dolub
Şamdı çil-çıraqları.
Naxışlara tutulub,
Allanıb yanaqları.
Bürünüb kaşılara
kərpici güllü türbəm.
Bənzər yaza, bahara
Firuzə xallı türbəm.

1999

# İMAMZADƏ

Qərib qonaq, yesir qonaq, baş qonaq
Müsibətlər çəkən anın olubdur.
Türk elləri qollarını açaraq,
Könül dostun, pasibanın olubdur.

İmam nəsli, seyid nəsli müqəddəs
şəhadətin çırağına dönüblər.
Yüz illərdi təziyəsi kəsilməz
Haqq evinə, ocağına dönüblər.

Yanan çıraq, yanan ocaq, yanan şam,
şölələnib İmamzadə adına.
Türbə qurub, göstəriblər ehtiram
Müsəlmanlar əsilzadə adına.

Yapışıblar kərpicindən, daşından
Qərib İmam, qərib Xanım deyiblər.
Məhəbbəti, gözlərinin yaşından
tökə-tökə "din-imanım" deyiblər.

Müqəddəsdir imamların nəfəsi,
ocaqları ziyarətdir, ziyarət.
Harda varsa İmamzadə türbəsi
o torpağa şərafətdir, şərafət.

Naxçıvan şəhəri 1999

## BABƏK QALASI

Bu dağ qürurlanıb, vüqarlanıbdır
köksündə ünvandı Babək qalası.
Sərilib üstündə xumarlanıbdır
elə bil aslandı Babək qalası.

Aza körpüsünə, Dər məbədinə
Dizədən Behruda, Tivi səmtinə,
Gilançay, Pirağa, Biləv kəndinə,
qoruqdu, qalxandı Babək qalası.

Səngər ağuşları otaq-otaqdı,
“qumbara” daşları qalaq-qalaqdı,
Badam ağacları üstündə bağdı,
sehrli ormandı Babək qalası.

Qalxdım, zirvəsindən görüm yerləri,
kəsdilər yolumu daş “əsgərləri”
Qorxdum, yarısından çəkildim geri
arxamca boylandı Babək qalası.

Söz düşər çox eldə yüz qalasından,
Tapılar az eldə iz qalasından.
Dolanıb qayıtsaq Bəzz qalasından
Biləvdə qalandı Babək qalası.

Ər oğlu ər olub, mərd saxlayıb o,
Ağır döyüşlərdə yurd saxlayıb o.
Babək Xürrəmidən ad saxlayıb o,
Milli qəhrəmandır Babək qalası.

Biləv kəndi, 2000

## CAVİDİN MƏQBƏRƏSİ ÖNÜNDƏ DÜŞÜNCƏLƏR

Etdi azadə gəzən ruhumu qərq,
Daldım əfsanəsinə sözlərinin
Qəlbimin aynasına doldu şəfəq,
Uyudum nəğməsinə sözlərinin.

Xəyyamın sübhə çəkən məclisi şən,
Sənətə hikmətin ahəngi düşüb.
Sevda əldə dolanır badəsi şən,
Şəraba qovsü-qüzeh rəngi düşüb.

Yalvarır, səcdə edir xəstə bəşər
Ulu Peyğəmbərin hikmətlərinə.
Çırpınır qaibanə səsdə bəşər,
Ağlayır yer üzünün dərdlərinə.

Tərpədir dörd tərəfi çərxi-fələk
Dəli knyazlara, Jasmenlərə bax.
İblisin qəhqəhəsi odlu külək,
Püskürən, ərzi boğan kinlərə bax.

Altun üstündə cahan çarpışıyor
Qoca Teymur dayanıb çöhrəsi kin.
Bir tərəfdə əsir Afət oxuyor
Şaha, xaqanlara hər naləsi kin.

Kəpənəklər dolaşır güllü yeri,
Bağrıqan lalələrin könlün alır.
Azərin sülh havalı nəğmələri,
Ucalır, hərb evinə lərzə salır.

Sənanın qəlbi tutub göy üzünü,
Xumarın eşqi ilə orda uçur.

Cavidin yerlər udubdur özünü,
Ruhusa doğma səmalarda uçur...

Ana torpaqda yanan məqbərəsi,
Dağıdır dərdi-qəmi Cavidimin.
Sanki ağ şamdı onun məqbərəsi,
Alışır qəlbi kimi Cavidimin.

## XAN EVİ - XALÇA EVİ

Ziynətini vuran əllər
ilhamını eldən alıb.
Tağlarını quran əllər
Camalını güldən alıb.

Qürrələnib "Xan dikində"
toydan çıxan bəy kimidir.
Eyvanları gün rəngində
Otaqları ay kimidir.

Ehsan xandan xatirədir
deyin, qəbri nurla dolsun.
"Qönçə bəyim" evindədir,
Ruhu şaddır, xeyri olsun.

Qonağı var yaxın, uzaq
Muzey olub nimdaş evi.
Qumaş geyib otaq-otaq,
Xalçalanıb dörd tərəfi.

Sərgilənib, baxışlanıb
Əriş-arqac gülzarıdır.

Çəmən-çəmən naxışlanıb,
Xan evinin baharıdır.

Hanaları, cəhrələri
qəməltisi, qayçısı var.
Çeşid-çeşid tikmələri,
Divar-divar xalçası var.

Ürəyinin tellərindən
Qopan eşqi, həvəsidir.
İlmələrdə zirvələnən
O, Kamilin “Dahi”sidir.

Butaları cığır bilib
Xalça üstə düşüb izə–
At belində qonaq gəlib,
Xan evinə “Abbas Mirzə”.

Bir tərəfdə “Leyli-Məcnun”,
Bir tərəfdə “Üç xaqan”ı.
Bir yanında “Salma söyüd”,
bir yanında “Gülüstan”ı.

Tariximdən söz bitirib
xalça anam, xalça bacım.
Xan evitək abidədir,
muzey kimi sənət tacım.

2004

# MƏN AYAQ ÜSTÜNDƏ GƏZƏN TORPAĞAM



## XOR OXUYAQ

Xor oxuyan millətlərə,
Hörmət ilə baxıram mən.
Nisgilimi uşaq kimi
Ürəyimə sıxıram mən.

Xor oxuyur məmləkətlər,
Gur oxuyur məmləkətlər,
Bir oxuyur məmləkətlər
Heyrət ilə baxıram mən.

Düşüm yallı həvəsinə,
Coşum Himnimin səsinə.
Yollar çəkim yer üzünə,
Gedim çıxım axıra mən.

"Birlik harda, dirlik orda"–
Ata sözü qalıb darda.
Xor oxuyaq lap bazarda
Xoş niyyətlə baxıram mən.

Yar-yar deyib aramaqdan,
Bülbül kimi zarımaqdan,
Ondan-bundan qorunmaqdan–
Təklənməkdən qorxuram mən.

Vedi, Zəncan, Dərbənd ilə,
Qovuşum, tutum əl-ələ
Qarabağa gülə-gülə
Çoxdan gedib çıxaram mən!

Xor oxuyaq: "Özər-bay-can!"
Gur millətik, görsün cahan.
"Ayrılmasın könül candan",
Heyran olum bu xora mən.

## MƏN AYAQ ÜSTÜNDƏ GƏZƏN TORPAĞAM

Mən ayaq üstündə gəzən torpağam.
İlkim Adəm idi, adam dedilər,
Can atdım həmişə insan olmağa
Bədxahlar yüyürüb, dayan,-dedilər.

Mən ayaq üstündə gəzən torpağam
Tapanam, kotanam, dözən torpağam.
Günəş məndən yana özün yandırır
Mən göylərə görə hələ ki, sağam.

Yorula-yorula əriyib canım,
Ovulub gedirəm bir yarpaq kimi.
Daha ayaq üstə nədən dayanım?
Əgər dostum varsa gen torpaq kimi...

Yazdığım ağaclar qocalıb yaman,
Sevdiklərimin adı görən hardadı?
Olub keçənləri xatırlamışam,
Bir də baxmışam ki, könlüm qubardı...

Mən ayaq üstündə gəzən günaham
Buludla danışıb-dinməyim gəlir.
Yusun ürəyimi,
asım günəşə,
Günlərin bir günü quruya bəlkə
Dünyaya təzədən dönməyim gəlir.

2013

## ÖMRÜMÜZ

Ömrümüz
bir qatar,
günlər–
vaqonları.
hər gün hər vaqona
bir qələbə mindirək,
mənzil başına
boş-boşuna
getməyək
barı...

## ZƏRRƏ

Zərrəyə zərrə tək baxma həyatda,
Damlada bir günəş doğur görürsən.
Bir çınqıl nədir ki, ayağın altda
Qalanda, adamı yıxır görürsən.

## KÖRPƏ QƏLBİ

Uşağın qəlbinə toxundu biri
Elə bil qəlbimə dəydilər mənim.
Körpə sevincinə nədən ötəri
Bir böyük qəzəbi kəsilsin qənim?!

Bu dəcəl-ərköyün şıltaqlığıyla
Od vurub dünyanı yandırmayıbdır.
Oyuncaq sındırıb uşaqlığıyla,
O ki, bir ürəyi sındırmayıbdır.

## ÜMİD İŞIĞI

Məskəni, yuvası ürəkdir,
O, sənə gərəkdir,
mənə gərəkdir.
Gözəgörünməzdir,–
mələkdir.
Ümid adında bu bəyaz yoxluq
varlıqdan nəhəngdir!
Bu müqəddəs işıq,
kəpənək işıq.
Bu titrək işıq,
bu kövrək işıq,
sinəmdən asılan ən nurlu məşəl.
Ümid qəlbimizdə
müqəddəs məbəd,
ən ulu heykəl...

II

Ümidi qırılmış kimsələr
sahilə atılmış balıqdı,
sahibi ölmüş neydi.
Ümid qırmaq
ev yıxmaq, körpü dağıtmaq,
körpə ağlatmaq kimi
bir şeydi.

III

Könlümdə bir ümid çırağı yanar,
işığında sevincim dirçələr.
Şəffaf-şəffaf qucağında
yol gələn arzularım
uzanar, dincələr...

IV

Könlümdə bir ümid çırağı yanar,
Yanar, məhəbbətə döndərər məni.

Qəlbimdə qalalar, körpülər qurar,
Təzə planetə döndərər məni.

Gümüş ulduzlarım, qızıl Günəşim,
Mənim gözlərimdən daşar dünyaya.
Yeddinci qitədir İnsan ürəyi,
Dünyada doğulub, oxşar dünyaya.

Könlümdə bir ümid çırağı yanar,
Mat qoyar dünyanı pərvərişiylə.
Milyon illərdi ki, çıxıb səfərə,
Yol gedər öz odu, öz atəşiylə.

Sevgimlə nurlanar yurdum, ocağım,
Könlümdə bir ümid çırağı yanar.
Sevincim, fərəhim, xeyirxahlığım,
Onun ətrafında dönər, dolanar.

Ümid çırağıdır mənim ürəyim,
Yaşamaq marağım, sevgi marağım.
Bu odlu Kürənin cazibəsiylə
Həyat yollarını ölçür ayağım...

## SƏHƏRLƏRƏ GEDƏN YOLLAR

Günəş ömrümüzdən qaçar gecələr,
Nə bilim, dünyanın hayanlarına,
Ulduzlu qoynunu açar gecələr,
Gündüzün yol gələn yorğunlarına.

Gecə baxışlarda sevgi, od olar,
Gecə məhəbbətlər artar, durular,

Heyrətdən utancaq qızlar vurular
Dünyanın ən fağır oğlanlarına.

Gecə həzin-həzin durnalar uçar,
Gecə xəlvət-xəlvət qönçələr açar,
Gecə kəpənəklər gülləri qucar,–
Bürünər al-əlvan yorğanlarına.

Təbiət uyuyar, düşər mürgüyə,
Ay da dirsəklənər qaya–kürsüyə.
İşığı çevrilər gümüş süngüyə,
Sancılar dərənin dumanlarına.

Qara fikirlərlə gəzər qaranlıq,
Axırda özünü üzər qaranlıq.
Günəşin girinə keçər bir anlıq
Atılar üfüqün o yanlarına...

## ƏSGƏR ANDI

*Şəhid Elçin İshaqzadənin*
*əziz xatirəsinə*

Ucalardan ucasan
Ucalar uca olur.
Ucalığa ucalan
Günəşcə, Ayca olur.

Bu sevginin sirrini,
İgidlər bilər ancaq.
Ucalığın yerini
Şəhidlər bilər ancaq.

Sən əsgər şərəfini
Ən müqəddəs borc sandın.
Yardı düşmən səfini
Əzmin, döyüşçü andın!

Torpağın hər qarışı
Candan əzizdi sənə.
Bu ellərin alqışı
Coşqun dənizdi sənə.

Döyüşlərə atıldın
Susdurdun neçə düşmən.
Səni bağrına basdı,
Qoruduğun bu Vətən.

Şəhidi Allah sevər,
Nurlu nəğməyə döndün.
Şəhidlik uca zirvə,–
Özün zirvəyə döndün.

## ÜRƏK SAATIM

Ömrün ömrə məxsus olan
Anlarını sayır ürək.
Vurur, vurur...
Öz səsini
Könül adlı dünyasına yayır ürək.
Sinəmizdə saat olub,
Çox amansız işləyir o.
Fasiləsiz, təmənnasız işləyir o.
Ancaq ürək "saatımın"
Qəribədir təbiəti-
Ömrün qızıl anlarını
Arzu adlı millərində
Daşımaqla, işləməklə yorulmayır.
Di gəl, həyat vərdişindən usandımı,
Bir anlığa dayandımı,
O bir daha qurulmayır...

1971

## GÜNƏŞ

Bəzən unuduruq bir həqiqəti,
Ən böyük qayğını anmayırıq biz.
Günəş bizim üçün yanır əbədi,
Günəşə bir dəfə yanmayırıq biz.

Ehtiram göstərək bu nəvazişə,
Bəlkə kahin olaq, baş əyək ona.
Ad günü keçirək qızıl günəşə
Ən sadiq zəhmətkeş söyləyək ona.

Bu yer kürəsinə nur ələməkdən
Nə dönür, nə də ki, usanır günəş.
İşə gələnlərtək çıxıb səhərdən,
Bir də axşam evə yollanır günəş.

## GÜLÜZLÜ GÜNƏŞ

Bu gülüzlü günəş,
camallı günəş
üz döndərəndə,
qaranlıq dünyanı ayaqdan salar.
Sarı Aşıq olar, Ay ağlar qalar...
Gecə məxmər yallı qara at kimi,
gəzər yer üzünü qara yerişlə.
Qaranlıq dünyanın qara fikrimi?
Üzər yer üzünü qara yerişlə.
Bu gülüzlü günəş üz döndərəndə
Ay dərdli qalarmış ümid içində,
Saralıb-solarmış ümid içində.
Özünü həsrətdən üzər, üzərmiş.
Gecənin qapqara hörüklərinə,

ağlaya-ağlaya ulduz düzərmiş...
Bu gülüzlü günəş
üz döndərəndə,
bizdən o yanlara nur əndərəndə,
saçı uzun sular qara tellənər,
üzü uzun dağlar qara geyərmiş!
Bu gülüzlü günəş üz döndərəndə,
bizdən o yanlara nur əndərəndə,
dünyanın bu üzü nəyə dəyərmiş...

## TOYUNA ÇAĞIRSAN

Toyuna çağırsan, gələrəm, bacım,
Təbriz toylarını görməmişəm heç.
Yolumu gözləyib hər gələn yazın,
Gəlib bir gülünü dərməmişəm heç.

Tale yasaq sayıb o tayı mənə,
Çatıb hər nisgilin dolayı mənə.
Göstər o mağarı, o toyu mənə,
Özümü bu yolda yormamışam heç.

Çırpına-çırpına inad yelkənim,
Qopar limanından ümid yelkənim.
Yüz yol qana düşüb orda Vətənim,
Bir damla qanımı verməmişəm heç.

Gərək öz əlimlə kəsəm ağrımı,
Açam şad günündə əl-ayağımı.
Sərhəd dirəkləri yarıb bağrımı,
Bağımda bir çəpər hörməmişəm heç.

Boyunu görməyə ürəyim əsər,
Toyunu görməyə ürəyim əsər,
Toyuna gəlməyə ürəyim əsər,
Təbriz toylarını görməmişəm heç.
1981

## YADİGAR QALIB

*İstedadlı tarzən Arif Quliyevin*
*unudulmaz xatirəsinə*

Köksündə bulaq kimi,
Bir vaxt çağlardı tarın.
Ərköyün uşaq kimi,
Dolub ağlardı tarın.
Ürəyinin telinə
Telin bağlardı tarın.
İndi pərişan qalıb,
Səndən nigaran qalıb.

Dindirsən "Rast" tökülər
Barmağın gəzən tardan.
Xalından dərd tökülər
Qəlbini üzən tardan.
Ağlar, "Qərənfil" ağlar,
Ruhunu əzən tardan.
Sinəsində qor qalıb-
Tarın yadigar qalıb.

Sən "Ana" laylasına
Vurğunuydun əzəldən.
Tarla baş-başa idin,
Coşğunuydun əzəldən.
Sənət pərvanəsiydin-
Yorğunuydun əzəldən.

Tarında qübar qalıb,
Səndən yadigar qalıb.

Muğam çəmənzarında-
Ruhun gülzar yerdədir.
Bir vaxt "Dan ulduzu"ydun
İşığın hər yerdədir.
Azərbaycan nəfəsli
Udun "Dəli Kür"dədir.
Hələ də çağlar qalıb,
Səndən yadigar qalıb.

"Oxu, tar"ın sədası
Tellərdə üsyan idi.
"Bayatı"sı, "Hicazı"ı
Bir ülvi dastan idi.
Mizrabda Əhsən kimi,
Pərdədə Qurban idi-
Arif necə var, qalıb
Sənəti bahar qalıb.

## ÜRƏK AĞRIYIRSA ...

Ürək ağrısına tutulmuşam mən
Ürəyim ağrıyır ürəksizlərə.
Qayğı dünyasına atılmışam mən,
Arxa olacağam köməksizlərə.

Ürək var, hər günü fərəhlə keçib,
Nə ağrı yanlayıb, nə də qəm onu.
Hər gözdən bir kədər giləsi içib,
Ürək ağrımırsa, neynirəm onu.

Ürək ağrıyırsa təmizdir, təmiz
Ağrısız ürəklər eh, kimə gərək.
Ürək ağrıyırsa, yaşayırıq biz
Kiminsə qeydinə qalırıq demək!

iyun, 1970

## METRO FƏHLƏSİ

Metro fəhləsiyəm, yer altında mən,
Həvəslə çəkirəm çətin yolları.
Görüşə tələsən, işə tələsən
Keçir min fərəhlə həmin yolları.

Çiynimdə izdiham dalğalı şəhər,
Qranit daşları düzmüşəm burda.
Gücümlə, eşqimlə qazanıb zəfər
Yerin ürəyini üzmüşəm burda.

Məni Məlikməmməd hünərli edən
Qatarlar ağ qoçum, qızıl qoçumdur.
Yerdən qatarlanıb işığa gedən
Qanadlı pillələr Simurq quşumdur.

Bura fəhlə evim, bura iş yerim,
Yanıma çağırdım sevgilimi də.
Sahildə olsa da ilk görüş yerim,
Qoy gəlib o görsün əməlimi də.

Yeraltı sarayım nurlanıb yenə,
Budur üstümüzə nur çəkilibdir.
Bir vaxt zülmət olan yerin qəlbinə,
Məhəbbət gəlibdir, görüş gəlibdir...

## MƏN SAKİT OLANDA ...

Mən sakit olanda, dinməz olanda,
Mənim lallığımı üzümə vurma.
Xəyal dünyasından dönməz olanda,
Söz atıb qəlbimin səsini qırma.

Haqqın yollarında dumanlar qatı,
Hələ həqiqətin bir əli darda.
Mənim ürəyimdə səngərlər yatır,
Fikrim əsgər kimi döyüşür orda.

Lovğa məclisində qərib bir kəsəm,
Mənim ürəyimi qırmağa nə var...
Eyham daşlarından sınıb tökülsəm
Bilirəm çoxları ləzzət aparar.

Belə zamanlarda sakit oluram,
Belə nadanlara uşaq deyirəm.
Mənə göy at verir Xətai babam
Ruhumu ruhuyla zirehləyirəm...

Nifrətim qılınca dönür bir anda,
Zalımın evinə tufan salıram.
Mələk sifətində, iblis donunda
Neçə rüşvətxoru əsir alıram.

Rüşvət papağını çırpıram yerə,
Rüşvət başmağını soyundururam.
Təmiz adamların alıb heyfini
Bir az ürəyimi ovundururam.

Mən sakit olanda, dinməz olanda
Haqqı qorumaqdır işim, yürüşüm.
Öz gizli dünyamdan dönməz olanda
Bilin, qurtarmayıb hələ döyüşüm...

## DARIXANDA

Könlümün harayı çatmaz heç kimə
İçimdə qırılıb səs darıxanda.
Məni dizin-dizin sürüklər qəmə
Köksümdə çırpınıb söz darıxanda.

Qəyyumluq baş alır  ara-bərədə,
Nəzərdən salınır bəzən hünər də,
Qış fürsət axtarır qayıda bir də,
Qəfil boran düşüb, yaz darıxanda.

Quru təkəbbürdən, sorğudan uzaq,
Uzaq ol, minnətli qayğıdan uzaq.
Bilsən ki, bəxtinə lap gün doğacaq,
Əlini o yerdən üz, darıxanda.

Lalın qarğışını yazan gəzirəm,
Korun baxışını yozan gəzirəm.
Kəlməsi dumduru insan gəzirəm,
Könül darıxanda, göz darıxanda.

## MƏNİM ÜRƏYİM

Heç kimə vermərəm ürəyimi mən,
Dünyada müqəddəs gərəyimi mən.
Onu istəyincə ovutmaq çətin,
Mənim ürəyimi ürəkləndirib,
Güldürmək möcüzə, ağlatmaq çətin.
Heç kimə vermərəm ürəyimi mən,
Ürəyim oyuncaq olar əllərdə,
O hələ alına-satıla bilər.
Sonra hara gəldi, atıla bilər.
Qərəzlər, hiylələr hədəfi olar,

Ağrılar, tənələr hədəfi olar.
Dalda asıb-kəsən mahir yaltaqlar,
Dildə pəhləvanlar, işdə qorxaqlar
Ortada yeyənlər, yanda gəzənlər,
Könül bulandırıb, ürək üzənlər,
Baxtı açılana çəpik vuranlar,
Taxtı uçulana təpik vuranlar
And içə dünyada məhəbbət adlı
Tanrıya–
Verməərəm ürəyimi mən,
Dünyada müqəddəs gərəyimi mən...
Mənim inadımı bilə, yığışa,
Adamlar marağa gələ, yığışa,
Tərsliyim baş alıb ağına gedə,
Başdan-ayağacan süzə boyumu,
Nadanlar yerində uğuna gedə...
Yenə qoruyaram ürəyimi mən,
Dünyada müqəddəs gərəyimi mən.
Onu qalxan kimi vətən uğrunda
Döyüşə gedənə bağışlayaram.
Qəlbində mən adda sevda bitirən
Sevdiyim sənəmə bağışlayaram.
Doğma oymaqlara hədiyyə kimi,–
Təşnə torpaqlara şəlalə kimi–
Əziz vətənimin əziz adına,–
Oduna, suyuna, təmiz adına,–
Aydın səmasına, ağ buluduna–
Dağına, daşına verərəm onu,
Nə gəlsə xoşuna,
Verərəm onu!..

## SÖYKƏNDIYIM AĞACLAR

Mənim söykəndiyim yaşıl ağaclar
Mənim bacılarım,qardaşlarımdı.
O cavan ağaclar, ahıl ağaclar
Könlümü oxşayan sirdaşlarımdı.

Mənim söykəndiyim yaşıl ağaclar
Durnadı, leyləkdi başımın üstə.
Sevincdən, fərəhdən qol-qanad açar
Taki kölgəsindən sərinlik istə.

Ələnib başına qar da, yağış da,
Dönüb yolçuların yol çətirinə.
Hərdən kölgəsini salsınlar yada,
Qoy kölgə olsunlar barı birinə.

Hələlik, payıza bürünən ağac,
Səndən ayrılıram gözümdə kədər.
Eh, bizi duymağa varmı ehtiyac?
Sağ ol, əziz dostum, bahara qədər.

2013

## NƏSİMİ

Şərin üzünə
Qayıtdı deyə,
Şərqi
Oyatdı deyə–
Soydular.
Dönmədi
Məsləkindən, diləyindən.
Onsuz da
Soya bilmədilər

Əqidəsini ürəyindən!..
Qürub etdi
Hələb çarmıxında,
Cismində Vətən diksindi,
Qırmızı üfüqlər
Söküldü bağrında...
Çəkildi həqiqət göylərinə
Günəş kimi.
Əsrləri nurlada-nurlada
Qovuşdu əbədiyyətə
Nəsimi.

## ATAM BƏNNA İDİ

Atam bənna idi, elin dayağı
Əlləri torpaqdan, daşdan tutardı.
Çəkdiyi divarın öz yaraşığı,
Hördüyü evlərin işığı vardı.

Ona xoş gələrdi xeyirxahlığı,
Sakit əməlinə gülümsəyərdi.
Yadına düşməzdi kasıbçılığı,
Hər vaxt allahına şükr eləyərdi.

Qonaqpərvər idi, mehrli idi,
Özünü bununla öyərdi atam.
"Daş üstə daş qoymaq adam işidi,
Ev yıxmaq günahdı" –deyərdi atam.

Mavi gözlərində bir gizli istək
Sonsuz səmaları oxşayardı o.
Ardıc çubuğunu tüstülədərək,
Xəyala dalmağı xoşlayardı o.

Əlləri qabarlım–atam o idi,
Bəzən yorğun gələr, yorğun düşərdi.
Dostu, həmsöhbəti radio idi
Xeyir xəbərlərlə yüngülləşərdi.

Alnının təriydi alın yazısı
Çörəyi hördüyü daşdan çıxırdı.
Həmişə bol idi onun ruzusu,
Çünki əllərinə çox əl baxırdı.

Atam bənna idi, o mənim kimi
Misra düzməyirdi, kərpic düzürdü.
Möhrə divarların ətirli nəmi,
Axıb çöhrəsindən nur tək süzürdü.

Hörmət qoyulardı ehtiqadına
Yayın ortasında oruc olardı.
Qışın şaxtasında Tanrı adına
Sübhün ətəyində namaz qılardı.

Atam bənna idi, qəlbi düz idi,
“Hədis” oxuyardı hər axşam bizə.
Atam məndən ötrü çox əziz idi,
Ata haqqı-sayı sığarmı sözə?..

Sevdim, uca tutdum əziz adını
Düşündüm, hər şeyin öz sırası var.
İndi oğlum qoyub Əziz adını
Evində mehriban bir “babası” var.

## SİZİN XƏTRİNİZƏ...

Mən dünyaya gələndə,
Sizə ümid olmuşam.
Qəmdən, sevincdən keçib,
Gah su, gah od olmuşam.
Darıxan insanlara,
Qoşa qanad olmuşam.
Ata, sənin xətrinə,
Ana, sənin xətrinə.

Ot kök üstə bitəndi,
Bu yazıya pozu yox.
Könlüm yarı vətəndi,
Qismətimin nazı yox.
Səsim həmən, həməndi
Səsimdə yad səsi yox.
Ata, sənin xətrinə,
Ana, sənin xətrinə.

Boyum Ağrıdan gəlib,
Səsim Biləv salından.
Həqiqət alın yazım,
Dönməmişəm yolumdan.
Bir qoca büdrəyəndə
Yapışmışam qolundan,
Ata, sənin xətrinə,
Ana, sənin xətrinə.

## GÖZLÜYÜM

Qara çərçivəli, bəyaz şüşəli
Dünyanı göstərən zər gözlüyüm var.
Təbiət həvəsli, həyat təşnəli
Gözümə göz olan bir gözlüyüm var.

Onsuz uzaqlara getməz baxışım,
Onunla boylanıb qəlbim günəşə.
Qarşıma çıxanda dostum, tanışım
Uzaqdan göstərib mənə həmişə.

Gözlüyüm gözümdür mənim elə bil,
Həyatdan gözəllik içib gözlüyüm.
Sevdiyim qızı da gözlərimlə bir,
Sevən ürəyimə seçib gözlüyüm.

Gördükcə, duyduqca ağ şüşələrdən,
Nurlu sevincimi ona bağlaram.
Onu gözlərimtək sevirəm deyə,
Həmişə gözümün üstə saxlaram.

## ORDUBADIN

Cənnət adlı bir aləmə
Yeri düşmüş Ordubadın.
Mis qayası döymə-döymə,
Naxış-naxış Ordubadın.

Ətəyinə duman sinər
Sakit-sakit sular dinər.
Güllərindən şeh ələnər
Yağış-yağış Ordubadın.

Qızlarının saçı kimi,
O tökülən şəlaləmi?
Başdan-başa bu görkəmi
Sərgi, baxış Ordubadın.

Bayaqdandır ürəyi şən,
Mən aşıram hər gədikdən.
Dağları da sinnilikdən
Qırış-qırış Ordubadın...

## NƏĞMƏ KİMİ

*"Bakı, sabahın xeyir"*
*İslam Səfərli*

İlhamının qanadları
Nəğmə olub,
Sevinc olub diləklərə.
Ömrün-günün sətirlənib,
Yazılıbdı ürəklərə.
Səndən sonra bu dünyada
Gah ay ötüb, gah il keçib,
Neçə-neçə fəsil keçib...
Bu dünyada
Nələr olub səndən sonra
Neçə dəfə günəş çıxıb,
Ay doğulub səndən sonra.
Mərcan gözlü Batabatın bulaqları,
Daş dibinin bardaş quran ocaqları,
Göy ilməli çəmənlərin
Sənsiz qalan qucaqları
Səni anıb...
Uçub yazın havasına
Dönə-dönə,

Leylək dönüb yuvasına
Dönə-dönə,
Yanıb, yanıb,
Yanıb hicran qovğasına
Dönə-dönə
Səni anıb...
Giley düşüb
Kəblə Musa çeşməsinə,
Səndən yana hər yaz başı
Qoşa söyüd boylanıbdı kölgəsinə
Səni anıb.
Xəzər çılğın ədasıyla,
Xəzri coşqun sədasıyla,
Bakı insan dalğasıyla
Səni anıb.
Könüllərdə
Nəğmə-nəğmə boy atırsan
Səhər-səhər üzügülər,
Gözügülər insanları
Nəğmən ilə oyadırsan.
Hamı ürəkdən deyir:
"Şair, sabahın xeyir".

## SƏN YENƏ VARSAN...

*Gənc alim E. Rəcəblinin xatirəsinə*

Uzaq üfüqlərin ulduzu axdı,
Dedilər: kiminsə söndü taleyi
Bəxtinin vədəsiz şimşəyi çaxdı,
Əsdi saçlarında ölüm küləyi...

Bir insan azaldı bu yer üzündən
Arzusu dalğaydı çəkildi getdi.

Ürək açılardı nikbin səsindən
O səs xatirəyə büküldü, getdi...

İnsafı yoxuymuş göyün, yerin də
Sənə sərhəd oldu otuz yeddi yaş.
Ananın qapqara hörüklərində
Ağappaq dərd oldu otuz yeddi yaş.

Saçların onsuz da gümüş kimiydi
Qəlbinin alovu qonmuşdu ora.
Ürəyin o qədər atəşli idi
Yatdığın torpaq da düşər odlara...

Adın cərgəsində təmiz adların
Bu belə həyatmış, eybi yox, Emil!
Səni öz qəlbinə yazan dostların,
Sənin yoxluğuna inanan deyil!.

1978

## BİR UŞAQ BƏLƏKDƏ ÖLDÜ...

Hələ duruş gətirməmiş,
Hələ yeriş gətirməmiş,
Hələ gülüş gətirməmiş
Bir uşaq bələkdə öldü,
Qarı nənə.
Qılıncıydı, qında qaldı,
Dərdi iki canda qaldı.
Gözü gündoğanda qaldı
Bir uşaq bələkdə öldü,
Qarı nənə.

Ölümün qəlbi daşmış,
Nə günümüş, nə yaşımış.

Yoxsa ömür bir qarışmış
Bir uşaq bələkdə öldü,
Qarı nənə.

Anasının döşlərində
Qisməti, payı qaldı.
Fələk çırağını üfürdü
Dam dolusu toyu qaldı.
Bir uşaq bələkdə öldü
Ömrünü bağışladı sənə.
Dünyanın işlərinə
Qar yağsın, qar yağsın.
Qarı nənə.

## MUSİQİ DÜŞÜNCƏLƏRİ

Yenə kaman səsi, yenə tar səsi,
Səslər qanadında yüksəlirəm mən.
O cansız simlərin dilə gəlməsi...
Xəyallar içində dincəlirəm mən.

Ürəyim silkinir... dərinliyində
Şirin arzularım musiqiləşir.
Nəsə kəşf edirəm öz-özlüyümdə
Kaman telləriylə qəlbim birləşir.

Ötəri hisslərə ürək qəsd edir,
Dinləyir "Cahargah" silsiləsini.
Nəğmələr ruhumu yenə məst edir,
İçirəm musiqi piyaləsini...

Mənə nəğmə verin siz dodaq-dodaq,
Qoymayın bir an da nəğməsiz olum.

Musiqi ucalsın, musiqi ancaq
Nəğməyə bir daha qoy həris olum.

Nəğməsiz nə həyat, nə gərdiş axı,
Nəğməsiz könüldə arzu doğarmı?
Nəğməsiz ömrümüz daş parçacığı
De, daş parçasının duyğusu varmı...

İnsan yaşa dolmuş nəğməylə qoşa,
Gənclər qovuşanda biz toy çalırıq.
Bir ömür dövranın vuranda başa,
Onu da nəğməylə yola salırıq.

Musiqi təmizlik, paklıq dünyası,
Onun sədaları xoşniyyət olur.
Musiqi oduyla kinin mayası,
Əriyib ürəkdə məhəbbət olur.

Mənim qanadlarım, mənim boyumdur.
Könlüm sevgisiylə uçunur yenə.
Nəğmə çörəyimdir, nəğmə suyumdur,
Nəğmə bir sərhədsiz vətəndir mənə.

## DAN SÖKÜLÜR...

Dan sökülür–
İnsanlar
Ulduz-ulduz ələnir
Küçələrə, düzlərə.
Dan sökülür–
Bir axın
Çıxır ağ gündüzlərə.
Dan sökülür–
Ürəklər

Ən şirin arzuların
Əməlinə can atır.
Dünya bir gecədən də
Gülüb düşür səhərə
Hamının sevincinə
Günəş muştuluq çatır.

## AÇIL, SABAHIM, AÇIL...

Günüm gündən üzülübdü,
Açıl, sabahım, açıl.
Əl dünəndən üzülübdü,
Açıl, sabahım, açıl.

Təzə günə gəliş üçün,
Fərəh üçün, gülüş üçün,
İnsanlarla görüş üçün.
Açıl, sabahım, açıl.

Qapını gün döyər hələ,
Dünya mərdi öyər hələ,
Xeyrin şəri əyər hələ,
Açıl, sabahım, açıl.

Ulduz axan, Ay batandı
Əllər Günəşə uzandı,
Tənhaların bağrı qandı,
Açıl, sabahım, açıl.

Eşqə düşən ürək kimi
Qönçə qalan çiçək kimi,
Bir naqafil şimşək kimi,
Açıl, sabahım, açıl.

Günəş ulu tanrımızdı
Ruzumuzdu, uğrumuzdu,
Qaranlıqlar ağrımızdı,
Açıl, sabahım, açıl.

## DUEL RUSİYANIN DAR AĞACIYDI

Haqqın, ədalətin dili acıydı,
O, göz çıxarırdı əməlləriylə.
Duel Rusiyanın dar ağacıydı,
Özünü asırdı öz əlləriylə.

Dikbaş zadəganlar, kübar xanımlar
Saxta məhəbbətlə yaşayırdılar.
Kilsə şamlarından işıq umanlar,
Ürəkdə kölgələr daşıyırdılar.

Rusiya tanımırdı özünü hələ,
Faytonlar üstündə yol gəlirdi o.
Gəlirdi duelə marağa görə
Uğunub, içindən sökülürdü o.

Qərar çıxaranlar həzz alırdılar,
Mərcə satırdılar ağıllarını.
Təzə ölümlərə söz alırdılar,
Duel sovururdu oğullarını.

Fevral gülləsindən diksindi dünya,
Taxtı silkələndi Piterburqun.
Açdı qollarını qoca Rusiya
Şair sinəsinə baş qoydu, yorğun...

Yanar sütun kimi alovlanırdı,
Qalmışdı sənətin sehrində şair.
Ölüm öz hökmünü çoxdan danırdı,
Heykələ dönmüşdü yerində şair.

Yaralı köksündə dan sökülmüşdü,
Ordan qan yerinə şeir axırdı.
Dantes ayaq üstə çoxdan ölmüşdü,
Puşkin məğrur-məğrur ona baxırdı.

Misra fışqırırdı güllə yerindən,
Boylanıb dünyaya baxırdı Puşkin.
Qızara-qızara, duel yerindən
Şeir günəşiydi, doğurdu Puşkin!..

## GÖRƏRMİYƏM

*(mahnı)*

*Bəstəkar*
*Şəmsəddin Mustafaoğlu*

Ulu dünya, qoca dünya
Yaşınca gün görərmiyəm.
Güneyində qızıl qaya
Qaşınca gün görərmiyəm.

Düzlüyünü dənlik edən,
Çöllüyündə mənlik edən,
Güllüyündə şənlik edən,
Quşunca gün görərmiyəm.

Ayın, Günün para-para,
Bəxtin düşüb əcəb tora,
Sinəndəki çopur, qara
Daşınca gün görərmiyəm.

Gedərmisən, gələrmisən,
Ağlarmısan, gülərmisən,
Qoca dünya, bilərmisən?!
Xoşumca gün görərmiyəm...

## YA QİSMƏT

Ümidimin çırağıdır hər günüm,
İşığında dolanmağa, ya qismət.
Ocağımı çatacağam bir zülüm,
Bardaş qurub qızınmağa, ya qismət.

Ağrıların daşıqçısı ürəkdi,
Ayaqlarım bu yollarda ləlikdi.
Ürəyimin daşlığında söz əkdim,
Kölgəsində uzanmağa, ya qismət.

Külək kimi qanadlıdır hər xəbər,
Qulağımda ağacdələn şər xəbər.
Məclis dostu, çörək dostu nə qədər,
Ürək dostu qazanmağa, ya qismət.

Qəlbi dönüb, quzeylənib gün kəsim,
Hardan alım, işığından gün kəsim.
Qızıl qanad taxım, qəlbi gün gəzim,
Güneylənib bəlkə doğa, ya qismət.

## ÇAĞIRIŞ

*Dünyanın bəzi sularına atom gəmiləri*
*yerləşdirilmişdir.*
*Qəzetlərdən*

Biçin, biçin bu dəryanı,
Keçin, keçin bu dəryanı-
Zahiri mələk,
Batini qorxulu dəryanı!
Qayası bayquş,
Daşları bayquş balası
bu dəryanın dibini şumlayın!

Bu sular balıqların
əsir düşmüş vətənidir.
Dalğalar çürümüş kəfənidir...
Delfinlər göz yaşı tökdülər
o ki var.
İnsanlığın o tayındakılar
kef çəkdilər o ki var!
Bədniyyətlər qara fikir ovxarlayır,
Atomların caynağında,
gəmilərin yedəyində,
Yer kürəsi balıq kimi çabalayır.
Ağıl kəsə-kəsə, göz görə-görə,
Səsimiz içimizdə,
içimiz sözümüzdə ağlayır.
Falasını altından çəkin,
qarnında nüvə kürüsü tökənlərin.
Başında turp əkin,
hərbə avar çəkənlərin!
Keçin, keçin bu dəryanı,
biçin, biçin bu dəryanı,
Yarasına məlhəm qoyun,
dalğasına məlhəm qoyun.
Su pərisi ərə getmək,
Balıqlar yaşamaq istəyir.

## HƏQİQƏT

Nə vitrindən asılası,
nə gözə görünəsidir.
Namərdlə döyüşənin pənahı,
dara düşənin qibləsidir.
Həqiqəti
özündən didərgin salıb
onu dara çəkən,

bağrını yarıb, sinəsini sökən,
özü çəkiləndə dar ağacına,
çörəyinin qırıntısına qalan
lütün də,
Qapısına mehr salan itin də
acığı gəlməyəcək!
Həqiqətə qara yaxanın
Tövbə ahlarına
Allahın da yazığı gəlməyəcək...
Ağlaya-ağlaya əl götürsə də,
haqqa iman gətirsə də.
Göz yaşını axıtmaqdan
Ağlını itirsə də.
Torpaq yeyib, daş çeynəsə də,
sürünməkdən göynəsə də
haray olmayacaq
həqiqətin düşməninə
bu dünyanın torpağından, daşından.
Ölmək istəyəcək–
Ölüm də çıxmayacaq yaxşılığından.

## BURA ŞUŞADI...

*(Şeir Şuşanın işğalından
əvvəl yazılmışdır)*

Dağların yaxasında
Boy atıb, bitib evlər.
Sanki yallı gedəcək,
Əl-ələ tutub evlər.
Ucalıb pillə-pillə,
Zirvəyə çatıb evlər.
Bir-birinin dizinə
Baş qoyub, yatıb evlər.
Şirin-şirin nəğməyə,

Nağıla batıb evlər.
Qalıb qonağı oldum,
Doğmasıtək oxşadı,
Bura Şuşadı.

Bağçaları, bağları,
Şirinlik tabağıdır.
Uca dağlar qoynunda
Sanki cənnət bağıdır.
Qarabağın əlində
Gözəllik bayrağıdır.
Doğma Azərbaycanın
Musiqi ocağıdır.
Düşdüm ulu Qarqara
Gördüm ilham çağıdır.
İsa bulağı üstə
Mürsəl muğam başladı,
Bura Şuşadı.

Xəlfəlisi möcüzə,
Daşaltısı nağıldı.
Qol-boyun meşələri
Üfüqlərə sığaldı.
Dərəsinə söz atdım,
Hər daşdan səs sağıldı.
Məxmər yamaclarını
Gəzdim, huşum dağıldı.
"Xarı bülbül"ə qıyan
Paxıldan da paxıldı.
Çəməni xalı-xalça,
İlməsi tamaşadı,
Bura Şuşadı.

Xan qızı Natəvanın
Ayna bulağını gör.

“Xuraman qayası”nın
Pərişan tağını gör.
Boylan Cıdır düzünə
Vaqifin “dağını” gör.
Cabbarın eyvanını,
Xanın otağını gör.
Baş əy Nəvvab ruhuna,
Seyid ocağını gör.
Sənətkarı, sənəti
Əbədilik yaşadır,
Bura Şuşadı.

Abidələr diyarı,
Gözəllik qoruğudur.
Sanki qala divarı
Boynunda muncuğudur.
Ormanları Çənlibel,
Hər qaya Koroğludur.
Dərə döşü təbildi,
Gur sellər yumruğudur.
Havalanan qovaqlar
Niyazi çubuğudur,
Burda dahi Üzeyir
Zirvələrlə qoşadı,
Bura Şuşadı.

Çadır-çadır zanbağı
Bənzər gümüş xalına.
Çıraq-çıraq lalələr,
Nur səpir camalına.
Dolanıb dörd yanından
Bahar girib qoluna.
Hüsnündən doymaq olmur,
Xoş Şuşanın halına.

"Maraldağın" "Qırxqızın"
Qovuşdum vüsalına.
Könlüm ovsuna düşüb
Sevgisiylə yaşadı,
Bura Şuşadı.

Xana-xana evləri
Ədalı göyçək kimi.
Gül-çiçəyin içinə
Qonub kəpənək kimi.
Şuşa təzə gəlindi–
Bəzənib mələk kimi.
Burum-burum zirvələr
Çiynində səhəng kimi.
Bəyaz-bəyaz buludlar
Başında örpək kimi,
Dönüb hayana baxdım
Toy evinə oxşadı,
Bura Şuşadı.

## DÜNYANIN NƏ VECİNƏ

Dünya təzələnib, nura bələndi
Qoynunda hər dəfə körpə güləndə.
Dünyanın axırı harda bitəndi?
Həqiqət asılıb, vicdan öləndə!...
Bu dünyanın paxılı
dünyanın paxırıdı.
Yaxşılıq-pislik ki var,
gəliri, çıxarıdı.
Hərdən sənə görə,

ya mənə görə,
üzü ağ olandı, qara olandı,
Bu rəngi dünyaya yaxan insandı–
Dünyanın nə vecinə,
Dünya öz işindədi.
Ayı nur biçimində,
Günü gülüşündədi...
Xanı balıqlarına
qəlyanaltı kilkələr,
əli belində gəzən
talançı çəyirtkələr,
ala gözünü süzən
çatmaqaş qarışqalar,
alnı par-par parlayan,
qarabaş qarışqalar
dünyanın məzəsidi.
Qar istəyən qarğalar,
ləhləyən tısbağalar,
dünyanın həvəsidi...
Əyri əməlləri atıb üstünə
Sudan elə bildik qupquru çıxdıq.
Arabir qızışıb durduq qəsdinə,
Guyaki dünyanın evini yıxdıq.
Dünyanın nə vecinə,
Dünya öz işindədi.
Ayı nur biçimində,
Günü gülüşündədi...
İşıqlı, havalı, sulu
evimiz-eşiyimizdi dünya.
Qocalanda axırımız,
Uşaq olanda
beşiyimizdi dünya.
Nə vaxtsa
yığışıb qurduğumuz

bir çadırdı.
Tavanından çil-çıraq asmışıq.
İçində toy qurub,
qəbir qazmışıq.
Torpağına ziynət vurmuşuq,
yara da!
Güllə də səpmişik,
darı da!
Adını zalım da qoymuşuq,
vəfasız da!
Hər şeyi dəyişik demişik,-
Özümüz dəyişə-dəyişə,
dünya dəyişib,-demişik.
Dünyanın nə vecinə...

## AĞRIYA-AĞRIYA

*Qələm dostum Cəlil Vəzirova*

Qönçəsini açıb gülər
Çiçək ağrıya-ağrıya.
Sevincini tapa bilər,
Ürək ağrıya-ağrıya.

Çəmənlərdə tumarlanar,
Dərələrdə xumarlanar,
Sərhədlərdə yaralanar
Külək ağrıya-ağrıya.

Yağış döyən çıraq kimi,
Tez ovunan uşaq kimi,
Şimşək kimi, bulaq kimi,
Gülək ağrıya-ağrıya.

Çox təkləyib nahaq haqqı,
Salıb haqdan uzaq haqqı,
Bağrımıza basaq haqqı,
Sevək ağrıya-ağrıya,

Dünyanın öz sözü vardı,
Yeddi rəngi, üzü vardı,
Bizə qalan duyğulardı,-
Bölək ağrıya-ağrıya.

2004

## VAXT ÖLDÜRƏNLƏR

Tez-tez vədələşir, görüşür onlar
Hərlənir, fırlanır, gəzir ortada.
Himə, atmacaya gülüşür onlar,
Vaxt dəli adamtək süzür ortada.

Çox zirəng olurlar təklif verməyə,
Əl-ələ verməyə “vaxtları” olmur.
Elə bil ölürlər vaxt öldürməyə
Ancaq iş görməyə “vaxtları” olmur.

Vaxt belə anlarda dözə bilməyir,
Özünü gah ora, gah bura sıxır.
Əriyir, incəlir, ancaq ölməyir
Çırpınıb, çırpınıb aradan çıxır.

Nə qədər dilə tut, dayanmır belə
Üzünə qırışdan şəkillər salır.
Qanadlanıb uçur vaxt gülə-gülə,
Vaxt öldürənlərdən intiqam alır.

Ləngiyən arzunun vaxtıdır qənimi,
Vaxt günü, vaxt ayı, vaxt ili sökür.
Sərçə günəbaxan dənləyən kimi,
Vaxt-bevaxt vaxt ömrü dənləyir-tökür.

Vaxt öldürənlərin səsini qırın,
Vaxtın ölümünə qol çəkir onlar.
Onlar qənimidir istedadların
Öldürəndən sonra əl çəkir onlar.

Hərzə söhbətləri bitib tükənməz,
Yer belləyəni yox, gül əkəni yox.
Hünəri, zəhməti, işi bəyənməz,
Daş üstə daş qoyub, tər tökəni yox.

Sovrular samantək vaxt xırmanında,
Diksinib oyanmaz vaxt öldürənlər.
Ətalət zəlitək gəzər qanında
Özünə inanmaz vaxt öldürənlər.

## PAYIZ TOYLARI

Toy-büsat qurulub hər addımbaşı
Şadlıq nəğməsini çalır ürəklər.
Ağaclar uzadır qızıl şabaşı,
Yüyürüb əlindən alır küləklər.

Payız yola salır köçən quşları,
Çinarlar yolunda çıraq yandırır.
Məhəbbət diləyir qız baxışları,
Oğlan ürəyini maraq yandırır.

Payız sevgi fəsli, məhəbbət fəsli
Tənha gözəlləri xəyal təkləyir .

Eşqə düşənlərin açılır dili,
Qızların yolunda söz çiçəkləyir.

Gəlin bəlgəsinə baxın, sevinin
Payız sovqat qoyub tabaqlarına.
Uzanıb, yıxılıb oğlan evinin
Yolu, qız evinin ayaqlarına.

Yenə xatirələr baş alıb gedər,
Çəkər ortalığa söz məhəbbəti.
Payız toylarında toy-bayram edər
Hərənin qəlbində öz məhəbbəti.

## NOVRUZ GECƏSİ

Sevincli, fərəhli arzularımı,
Bu gecə oxşayıb, əzizlər ürək.
Gözlərimə dolan yuxularımı,
Küləklərə tutub dağıdam gərək.

Bənövşə bayramım, bahar bayramım,
Bəzənib-düzənib, al-əlvan gəlir.
Yüyürüm çeşmədən, çaydan dolanım,
Sarılım boynuna, uzaqdan gəlir...

Baxım qönçələrin açılmasına,
Bu axşam könlümü çalım, oxudum.
Güllərin açılıb-saçılmasına
Ürəyimi tutum, qəlbimi tutum.

Vədə yellərinə verim yaxamı,
Novruz nəfəsini duyum doyunca.

Çiçək nübarından ilk yaz axşamı,
Dəstələr bağlayım qoynum tutunca.

Baharla mən qoşa enim səhərə,
Açım qapıları, sıxım əlləri.
Qoşulub qəlbimdə daşan fərəhə,
Günəşin yoluna səpim gülləri...

## BU EL ADƏTİDİR

Yenə parıldayır donuq sifətin,
Harın dostlarınla söhbət edirsən.
Sənin həyat tərzin, işin, adətin
Qeybət eləməkdir, qeybət edirsən.

Bu el adətidir, elin yasıdır,
Elin adətinə bürünüb sürün.
Onsuz da bilirəm kefin çox sazdır
Barı bu üç günü kədərli görün.

Ata itirmisən əli qabarlı,
Bəyənib heç qoşa addım atmadın.
Sən onun dəfninə gəldin tumarlı
Qəbrinə bir ovuc torpaq atmadın.

Yaltaqlar tökülüb, dolublar yasa
Üçqat bükülmək var sənin adına.
Onlar doluşmazlar belə hər yasa
Rəhmət bu dünyadan gedən atana.

Rüşvət pullarıyla ehsan verirsən
Yoxsula süfrəndə yer olmaz yəqin.
Bahalı siqardan hey sümürürsən
Banketə dönübdür yas mərasimin.

Sadə adamlara məhəl qoymursan.
Heç ayağa durmaq yadına düşmür.
Bir “böyük” gələndə dik atılırsan,
Təzədən oturmaq yadına düşmür.

Özün kimilərə fürsət vermisən,
Yaman alıbdılar səni dövrəyə.
“Fatə” eşidilmir qiybət səsindən,
Yas yeri dönübdür müşavirəyə.

Qulaq eşitməyir ağız deyəni,
Qohumda, qonşuda tükənib səbr.
Başına dolanlar isidir səni,
Hardasa üşüyür bir tənha qəbir...

## 8 MART

Bu gün qadınların bayram günüdür,
Əziz bayramınız mübarək olsun.
Zərif duyğuların ilham günüdür,
Nəsibiniz odlu bir ürək olsun.

Çoxdur ömrümüzün toy-bayram günü,
Ancaq bu bayramın tamı başqadır.
Qadın əlləriylə evin, ocağın,
Alışan çırağı, şamı başqadır.

Qoy versin subaylıq yelə ömrünü,
8 Mart səadət bayramı olsun.
Bu gün oğlanların qəlb açan günü,
Qızların məhəbbət bayramı olsun.

# MARSA ZƏNG EDƏCƏYƏM

Marsa,–
dostuma
zəng edəgcəyəm:
Bizə gəlsin,
Yaz gülü gətirsin mənə.
Mars gülü gətirsin mənə.
Çıxıb xiyabanları gəzinək,
Söhbətimizdə isinə-isinə,
İşimizdən, gücümüzdən danışaq,
Dünyaya baxım ölçümüzdən danışaq,
Qəlbimizi qayğılara bükək,
Bir Mars siqareti çıxarıb çəkək,
Yer müştüyündə
Şəhərin tünlüyündə,
Məhəbbət adasında–,
Çöhrəsi təbəssümlü
İnsanlar arasında!
Bir gün bizdə qalaq,
həmsöhbət olaq.
Günəşin istisi
Üzümüzü qarsa-qarsa,
Sabahısı gedək Marsa!
Bulud təpələrdən ötə-ötə,
Ölkə-ölkə, qitə-qitə...
Kainatın bəyaz yollarında
Növbəti əsrin sürət qatarında.

1970

## ÖZ QAYAM

Bir qaya dikəlib çay yatağında,
Min ildir beləcə dayanıb, durub.
Sellər ayağını qazıb nə qədər,
Köksündən nə qədər zərbələr vurub...

Yerindən tərpədə bilməyib onu
Sular sərt qayamı aşa bilməyib.
Tufan hənirtisi, dalğa oyunu,
Onu yedəyinə qoşa bilməyib.

Çox gövdəli daşlar helləncə dönüb,
Qapazlar altında selə düşübdü.
Dalğa qabağında gülüncə dönüb,
Aran həvəsiylə lilə düşübdü.

Mənim igid qayam, mənim mərd qayam
Yenə öz yerində vüqarla durub.
Sonsuz səmalara göz qoya-qoya,
Məğrur sinəsindən qartal uçurub.

Düşüb axınlara yol azmayıbdır,
Dalğanı dizinə bağlayıb qayam.
Çılpaq uşaqları qorxuzmayıbdır,
Günəvər köksündə saxlayıb qayam.

Sinsimiş, qarımış ərik ağacı,
Odur, qollarını salıb boynuna.
Yenə əvvəlkitək söyüddür tacı,
Üstü unlu iydə körpüdür ona.

Aran həvəsiylə düşməyib küyə,
Dağlı balasıtək sınanıb durub.

Bir vaxt görüşünə gələrəm, deyə
Ömürlük bir yerdə dayanıb, durub.

Müqəddəs sayıram mən öz qayamı,
Onun sinəsində çox uyumuşam.
Burda keçirmişəm uşaqlığımı,
Ən böyük dincliyi burda duymuşam.

Məbəd tək öpürəm mən öz qayamı,
Budur, dayanmışıq yenə üz-üzə.
Uşaqlıq dostuyuq, qoy bilsin hamı
Qayamla hər görüş bayramdır bizə.

## ÖZGƏ ÜRƏYİ

Yaman narahatam, yata bilmirəm
Ürəyim ağrıyır, ürəyim yenə.
Ürəyi dilə də tuta bilmirəm,
O ki, uşaq deyil, aldana mənə.

Həyatım naminə dəyişilməli
Köksümdən asılan bu doğma ürək.
Demək yaşamağa ümid var, bəli
Anamın gözündə gülür min istək .

Deyirəm, ay ana, bu şadlıq nədir,
Ömrümün bir daha mənası varmı?
Özgə ürəyiylə yaşasam, de bir
Mən səni sevməyi bacararammı?

## OXUYUM

Gedim, durnalara qoşulum, gedim,
Gedim, Şah göləndə bir az oxuyum.
Təbriz öz içinə çəkib səsini,
Coşum, varkönüldən bir az oxuyum .

Telində Cəngisi, Misrisi olum,
Körüklənən dərdi, nəşəsi olum.
Bayatısı olum, nəğməsi olum,
Gedim öz elimdə bir az oxuyum.

Sellər, sular axıb duruldu axı,
Nəğmə ürəkləri duruldur axı.
Yasla hansı taxt-tac quruldu axı,
Gedim taxt-tacıyla həmraz oxuyum.

Yalvarım, yaxarım, əlindən öpüm,
Bülbül kimi ötən dilindən öpüm.
Diz çöküm, küsəyən gülündən öpüm,
Alışan qəlbini köz-köz oxuyum.

Təbriz, 1990

## BULUD

Alışdım dərdlər çəkməyə,
Yurdda qürbətlər çəkməyə,
Verməldin üstümə çəkməyə,
Yorğanın cırılsın, bulud.

Bulud, dərdimi ağlarsan,
Şəhid mərdimi ağlarsan,
Ağlasan, yurdumu ağlarsan
Göz yaşın var olsun, bulud.

Dumanlar,çənlər göyərib,
Qəribə günlər göyərib,
Çadır-vətənlər göyərib
Örpəyin yar olsun, bulud.

Bu nə çalmaq, nə oynamaq,
Yurd talanıb oymaq-oymaq.
Göbələktək artıb yaltaq
Yağma, qoy qurusun, bulud.

Kürsülər yaman püsgürür,
Vəd verir, yalan püsgürür,
Canımda yaram püsgürür,
De, haram sarınsın, bulud.

Bəsdi mərciмək yardımı,
Təsəlli, dilək yardımı,
Cavanşir, Babək yardımı,
Dərdimə yarısın, bulud.

Al məni bəyaz belinə,
Şimşək ver geyim əynimə,
Yeriyim əsir elimə,
Boynuma sarılsın, bulud.

1994

## İNANAQ

Demə ömür keçir, harda qalmışam,
Əsgəri döyüşən bayraq kimiyəm.
Hissimin əlində əsir olmuşam
Şarını yel qovan uşaq kimiyəm.

Dünyanın başına oyunlar açıb,
Hikkəmi çırpmışam torpağa, göyə.

Bildim, insanlardan zəhləsi qaçıb,
Sərçələr çiynimə qonmurlar niyə...

Min yol təbiətin qəsdinə durub
Yaşıl sevincinə dərd gətirmişəm.
Yaralı dağ kəli boynunu burub,
O ümid istəyib, mən itirmişəm.

Vaxtsız çiçəkləri sovurduğumdan,
Qönçənin qorxudan bənizi qaçıb.
Dünyanın özünə tor qurduğumdan,
Özümün özümdən zəhləsi qaçıb.

Bərabərlik himni oxusun bəşər,
Hər sünbül dəninə biz ki, şəriyik.
Quşlar çiynimizə qonsun hər səhər,
İnanaq, dünyanın bəxtəvəriyik.

## ARAZ BOYU, QATAR YOLU...

İstəklər, arzular yaman ləngiyir,
Ləngiyir, bu qatar yaman ləngiyir.

Qoşub yedəyinə vaqon-ilxını
ahəstə-ahəstə keçir bu qatar.
Büküb dirsəyinə səsi, ağrını,
lap dabanı üstə keçir bu qatar.
Qabağını kəsən qara-qorxunu,
Qıvrıla-qıvrıla biçir bu qatar.
Çırpınan səbrimin yorğunluğunu,
sanki damla-damla içir bu qatar.
Mənim həsrətimin uzunluğunu
arxayın-arxayın ölçür bu qatar.

Uzana-uzana hicran ləngiyir,
ləngiyir bu qatar, yaman ləngiyir.

Nəmli pəncərələr ala-torandır,
görən söküləcək dan yeri nə vaxt.
Hələ Savalanın qaşı dumandır,
açılar üzümə səhəri nə vaxt.
Hər qaya uyumuş bir pəhləvandır,
diksinib oyanar hünəri nə vaxt.
Cilov gəmirməkdən köpüyü qandır–
bir də yəhərlənər kəhəri nə vaxt.
Tikanlı simlərin kirpiyi qandır,–
quruyar lalənin qəhəri nə vaxt.
Ağır səfərlərə karvan ləngiyir,
ləngiyir bu qatar, yaman ləngiyir.

Xallı kəpənəklər uçur doyunca,
uçur sərhəd boyu, –nə var?–tələsmir.
Əlvan çiçəkləri qucur doyunca
mənə gül verməyə bahar tələsmir.
Dağlar əsir düşüb sərhəd boyunca
Haqqını almağa dağlar tələsmir.
Bütün təsəllilər olmaz bir onca,
könlümü almağa o yar tələsmir.
Yaman tələsirəm ona çatmağa
o yana çatmağa qatar tələsmir.
Yolumun üstündə duman ləngiyir
Ləngiyir bu qatar, yaman ləngiyir...
mart, 1981

## AVTOPORTRET

Soyudum, buza döndüm, əlim üzümdə qaldı,
Şeytan quyruq bulayıb yenə ortaya düşdü.
Dinib, danışmadım heç, sədaqətim bol oldu–
Özüm görünmədim heç, şəkilim suya düşdü.

Üzdə biganə oldum, içim yandı qayğıdan,
Soyuqqanlı dolandım, qəlbim nur aldı haqdan,
Sevgimi günəş kimi pıçıldadım uzaqdan,
Günəş buludda qaldı, salavat Aya düşdü,
Özüm görünmədim heç, şəkilim suya düşdü.

Həyat nazlı pəritək göründü sərxoş mənə
Döndük bağrıbadaşa oldu o sirdaş mənə.
Ürəyimi açmağı öyrətdi yavaş mənə.
Arzularım sıxıldı, çoxu havayı düşdü,
Özüm görünmədim heç, şəkilim suya düşdü.

Çiçək sevən arıyam iynəm betərdi vallah,
Aydan, sudan duruyam, dilim zəhərdi, vallah.
Zorla gülümsəyirəm, qəlbim qəhərdi, vallah
Yansaq sifətlilərin hər günü toya düşdü,
Özüm görünmədim heç, şəkilim suya düşdü.

Minnətli qayğılardan xoşlanmadım düzü heç,
Minnət ağırdı dostum, görünmədim gözə heç,
Qoymadım çayımı da doğmalarım süzə heç,
Mən insafın quluyam, yolum buraya düşdü,
Özüm görünmədim heç, şəkilim suya düşdü.

Mizan tərəzi düzdü, qoşa tabağı haqdan,
Yol çəkən iki gözdü, qoşa çırağı haqdan
Bəndənin özü sözdü, yaşamaq haqqı haqdan
Ruhum candan üzülüb hüsnü-xudaya düşdü,
Özüm görünmədim heç, şəkilim suya düşdü.
Səbr dözümdən doğub, dözüm zülümdən əvvəl,

Dünya dönüb dolanır, olum ölümdən əvvəl.
Mən yalan astarıyam, içim dilimdən əvvəl,
Qələm xuda əlində, səsimə payı düşdü,
Özüm görünmədim heç, şəkilim suya düşdü.

## NƏNƏMİN "QULAĞI GƏLİR"

Qəlbində təsəlli, sevinc bitirər,
Qulağı səslənər, "gələr" nənəmin.
"Qulağın gəldimi, qonaq gətirər"–
Dodağı səyriyər, gülər nənəmin.

Cəbhədən gəlməyib oğul sorağı,
Nənəm kölgə kimi çöküb yollara.
Bəzən haqlayıbsa kədər, yazığı
Dərdini toz kimi töküb yollara.

Onun ümid dolu ürəyi vardı,
Qəlbində hər yükü daşıya bilməz.
Nənəmin tanrıdan diləyi vardı,
İnamı olmasa yaşaya bilməz.

Yollardan çəkməyib o, gümanını
Hər səsə, sədaya ümid bəsləyir.
Nənəm qulağına öz inamını
Hələ itirməyib, oğul gözləyir...

## BAYRAM ŞARI ÜRƏYİMLƏ

Həməsrim, döymə qapımı,
Məni tək bürax,
incimə ancaq...
Deyirlər əbədi yaranmış zaman,

Ömrümüzü
bir göz qırpımı
sanmış zaman.
Köksümdə yellənən,
Dünyası güllənən
Bayram şarı–ürəyimlə
Çiynimdə Günəş haqqı,
Ayağımda Yer haqqı,
borcumla, istəyimlə,
Gah dəniz, gah hava, gah torpaq,
gah dəmir yolunu ölçürəm,
bir ömür yolunu ölçürəm!...
Hər günüm
əllərimlə şumlanmış
qara torpaq olmalı,
Sevincim–
boylu sünbül sacağı.
işimlə, yürüşümlə
Zamanı yarıda qoymalıyam
İnsanam axı!!!

## GÖZƏLDİR...

Hərdən mənə elə gəlir
Danışmağa dəyməz daha.
Min il, milyon il əvvəl
Susan bu dağlar kimi.
Sevincini, qəmini
Çiçək licimində, gül licimində
sakit-sakit köksünə
yazan bu dağlar kimi!..
Hərdən mənə elə gəlir,
Anadan olmaq hələ

böyük kişilik deyil,
adi vərdişdi, vərdiş...
heç kəs namərd doğulmur,
Namərdlik dərsi olmur.
Ot kimi, ağac kimi
günəş işığında
boy atır, çiçəklənir adam.
Çörəyini, suyunu bitirən
torpaq görəndə
ürəklənir adam.
Yaşıl-yaşıl qurbağalar,
Göy üzünü meydan edən
Sabın oğrusu qarğalar
Çox-çox əzəldi bizdən.
Hərdən mənə elə gəlir
Dünya gözəldi bizdən...




NAĞILLAR
ADASI

## BİR OĞLAN NAĞILI, BİR QIZ NAĞILI

Ömründən-günündən yadigar kimi
Yarpaqlar başlayır payız nağılı.
Düşür xatirəmə bəyaz qar kimi,
Bir oğlan nağılı, bir qız nağılı.

Günlərin bir günü necə olubsa,
Günlərin o günü necə olubsa,
Yel kimi, sel kimi keçib gəliblər,
Dünyada gözəl qız səni biliblər.
Yandırıb sehrli çıraqlarını
Gəzib axtarıblar mənim könlümü.
Yuxulu olmuşam, bilməmişəm heç
Birdən ayılmışam, nə səsdir belə,
Baxmışam, yarıblar mənim könlümü
Səni aparıblar, qulaq as hələ...
Vurub yarpaqları dağıdıb payız
Görmüşəm qaraqaş, qaragöz bir qız–
Dünyada müqəddəs, pak məhəbbətim,
Nağıl qəhrəmanım, ilk məhəbbətim
Sehrli çırağın işığı altda
Ceviz ağacının yarpağı altda
Dolub bir gecədə sevgi yaşına
Ayın işığını salıb başına
Müqəddəs yaşamaq qəsdində gedir,
Bir qərib "Vağzalı" üstündə gedir...
Bulaq nağıl deyər, çay nağıl deyər,
Yığıb ulduzları ay nağıl deyər,
Düşər xatirəmə cığır, iz hələ,
Bu da bir nağıldı, qulaq as hələ.
Yarpaqlara yağan payız nağılı,
Bir oğlan nağılı, bir qız nağılı...

# SEVGİ QATARI

İllər arxasında bir qız böyüyüb
Məndən uzaqlarda, məndən kənarda.
Yığıb gözlərinə bu yeri, göyü
Yol gedir mənimlə indi qatarda.

Nə adımı bilir, nə ünvanımı,
Gizli sevdasına tən olmamışam.
Dünyada mən adda sevən tanımır,
Heç vaxt xəyalında mən olmamışam.

Ömrümün-günümün qərib çağında
Bu qərib axşamın qəsdi nə imiş.
Niyə belə durub bu qız yaxında
Ay allah, görəsən dərdi nə imiş...
Belə gül açmayıb ömür bağımda
Bu dəli könlümün bəxti nə imiş...

O ağıllı gözlər fikrimi çəkir
Nigaran qalmışam istəklərindən.
Yanında günahım olmazdı bəlkə
Durub asılsaydım hörüklərindən.

Qəlbimiz duyğular selindən keçib
Dil açar, danışar səhərə qədər,
Dünyanın işıqlı üzündən qaçıb
Hissimiz alışar səhərə qədər.

Bu qız ürəyimin ağlar səsidi,
Qayıdıb ömrümə dübarə gəlib.
Sevgi ilahəsi, su pərisidi,
Çıxıb dəryalardan kənara gəlib.
Qəlbini tənhalıq üzüb, bəsidi,
Bu axşam yanıma bahara gəlib.

Təkərlər üstündə bir dünya gedir,
Çıxarıb yolundan baxışı məni.
Yanıb kül olmasam oduna indi
Tutar o gözlərin qarğışı məni.

Qəlbimi odlara salıb bu çiçək
Əlləri qoynunda hələ donmuşam.
Düşüb ayağına yalvaram gərək
Elə bilməsin ki, dəmirəm, daşam.
Hələ görməmişəm mən belə kövrək,
Mən belə sevgisi gözündən daşan.
Bir vaxt xəyalına ovunar ürək
Dayanıb qarşımda halı pərişan.
Elə bil, göylərdən enib bu mələk,
Tapılıb dərdimə dözən, yaraşan...

Deyib əllərinin yorğunluğunu–
Açıb ürəyinin həvəsini də.
Qəlbimdə qışqıran, yanan duyğunu
Tərəddüd ağladıb öz qəfəsində.

İllər arxasında bir qız böyüyüb
Məndən uzaqlarda, məndən kənarda.
Yığıb gözlərinə bu yeri, göyü
Yol gedib mənimlə bir vaxt qatarda...

## GÜLÜŞLƏRİNDƏN UZUN...

*"Yenə o bağ olaydı..."*
*M.Müşfiq*

Yenə o bağ olaydı
Yenə o qumlu sahil.
Başında dəli sevda
Sular ötəydi dil-dil
Ləpələr uşaq kimi
Atılaydı, düşəydi.
Yenə heç nəyin üstə
Dalğalar döyüşəydi.
Ay sevgi nəğməsini
Oxuyaydı ahəstə.
Qəlbimiz o həvəsdə...
Uçunaydıq o ki, var,
Yenə gümüş qayalar,
Kölgəsinə qaçaydıq,
Bənövşənin, yelmiyin
Çəngəsinə qaçaydıq.
Yenə o bağ olaydı
Sənə şer deyəydim,
Yenə şer deyəydim,
Ürəyinə girəydim...
Zərif qumların üstə
Heykəlini quraydım.
Küləklər uçuraydı,
Qaçıb özün duraydın.
Çağlayıb hörüklərin
Töküləydi səhərin
Dabanından aşağı.
Qaranlığa bataydı
Üfüqlərin qurşağı.
Gözlərinin yuxusu
Ulduzlara qalaydı,
Yenə o bağ olaydı...

## SƏNİN ÜRƏYİNLƏ, MƏNİM ÜRƏYİM

Qaçar, yuxulardan gizlənib qaçar
Sənin ürəyinlə, mənim ürəyim,
Açar, bir-birinə məhəbbət açar
Sənin ürəyinlə, mənim ürəyim.

Biz idik qatarın harayı idi,
Yuxu da, dinclik də havayı idi.
Şeirli, nəğməli bir dünya idi,
Sənin ürəyinlə, mənim ürəyim.

Bir budağa qonan quşlardı, sanki
Elə dindilər ki, danışdılar ki,
Düşündüm, lap köhnə tanışdılar ki,
Sənin ürəyinlə, mənim ürəyim...

## BU HƏMİN SEVGİDİR

*(Zarafatyana)*

Sən uşaq deyilsən ovuda bilim,
Ya ötən günləri salım yadına.
Bu həmin ürəkdir, yaxın gəl, gülüm
Bu həmin sevgidir, isin oduna.

Yanımdan yad kimi ötürsən sərin,
Soyuqluq gəzdirmə baxışlarında.
Sən səssiz-səmirsiz bilən illərin,
Xatirə gizlənib yaddaşlarında.

Gəncliyin laqeyd ədası səndə,
Çoxmu bu naz ilə öyünəcəksən?
Kövrək duyğuların harayı məndə,
Dindirmək istəsəm, neynəyəcəksən?!

Gözümlə öpdüyüm ipək telləri,
Əlimlə öpdüyüm titrək əlləri,
"Şanlı" məktubunda solan gülləri
Dindirmək istəsəm, neynəyəcəksən?

Könlün haçandandır könlümə bənddir,
Bütün aləm bilir kim kimə bənddir.
İndi subay qızlar bir himə bənddir,
Dindirmək istəsəm, neynəyəcəksən.

## QAYITMAQ İSTƏRƏM

Onda uşaq idik, adicə uşaq
Nə qayğı anardıq, nə qəm bilərdik.
Səhərdən axşama ikimiz ancaq
Bir kiçik həyətdə deyib-gülərdik.

"Ev" tikib, "yurd" salıb o həyətdə biz
Oynardıq, dərdimiz, qəmimiz azdı,
Saxsı qırıqları ev bəzəyimiz,
Ceviz yarpaqları palazımızdı.

Danışıb səmimi, dinib səmimi
Hərdən də küsüşüb, ya dalaşardıq.
Hərəmiz bir yanda tək qalan kimi
Oynamaq xətrinə tez barışardıq...

Bir dəfə qəlbinə dəydim, bilmədim
Ağaca söykənib ağladın sən də.
Gözünün yaşını onda silmədim
Bəlkə ağlayırsan hələ indi də...

İllər oğrun-oğrun, illər astaca
Qopardı o çılğın günləri bizdən.

Kəpənək dalınca hey qaça-qaça
Çıxdıq uşaqlığın çərçivəsindən.

O qədər dəcəllik eylədik onda
Qovdu böyüklüyə uşaqlıq bizi.
Kaş uşaq qalaydıq elə cahanda
Böyüyüb itirdik bir-birimizi...

Qayıtmaq istərəm ötən çağlara
Qayıtmaz ötüşən aylarım, ilim.
Bəlkə qoşulmusan yad uşaqlara
Ay uşaq sevgilim, uşaq sevgilim....

## DÜŞÜBDÜ

Mənə intizarı, məlalı qalıb
Sənə şirin dili, sözü düşübdü.
Mənə ilk eşqimin xəyalı qalıb,
Sənə səadətin özü düşübdü.

Tale özü küsən, özü gələndi,
Kimə kədər verən, kimə güləndi.
Mənim günlərimə qarı ələndi,
Sənin qismətinə yazı düşübdü.

Əlləri qoynunda yalqız ağlayır,
O, bahar ağlayır, payız ağlayır,
Mənim ürəyimdə bir qız ağlayır,
Sənin daş qəlbinə səsi düşübdü...

## DEYİL Kİ...

Gözlərinin yalvarışı-yaxarı
Bir də məni oda salan deyil ki.
Ayrılığın könül sıxan qübarı
Sevincinə qənim olan deyil ki.

Qəfil sevda sənə yaman güc gəlib,
Bu məhəbbət heyif mənə gec gəlib...
Ayrılığın qorxusundan incəlib,
Qəlbin sınan, gözün dolan deyil ki.

Bülbül ötər oyanmamış hələ gül.
Öz eşqini nahaq vermə yelə, gül.
Taleyinə gülümsəyən üzə gül
Eşq oyuncaq, qismət yalan deyil ki.

Ürəyimin bu hissinə vurulma,
İstəyimin tüstüsünə kor olma,
İndən belə yolum üstə yorulma,
Məndən ötrü ömrün talan deyil ki...

## ELƏ BİLMƏ ASANDIR...

Boylanıb ümid ilə sevda yoxuşlarına
Qəlbimin harayına bir səs ala bilsəydim.
Eşqimi çiçək kimi səpib baxışlarına
Könlünü həmişəlik əvəz ala bilsəydim...

Bu tilsimi qırmağın özü böyük dərd olub,
Sevəsən, ürəyini açmayasan yamandır.
Həsrətindən, ay gözəl, könlümə od vurulub
Bu yanğından qurtarmaq elə bilmə asandır.

Nə sən bir söz deyirsən, nə də mən dilibağlı
Baxışıb ayrılırıq bu minvalla beləcə.
Gördün mən danışmıram, danış sən dilibağlı
Sevincin heyrətindən donum qalım eləcə.

Hissimiz, həvəsimiz könüllü görüşübdür,
Hər dəfə baxışların məndən şirin söz dilər.
İlk dəfə könül açmaq oğlanlara düşübdür,
Sən mənə könül açsan yəqin qızlar söz elər...

Bu tilsimi qırmağın özü böyük dərd olub
Sevəsən, ürəyini açmayasan, yamandır.
Həsrətindən, ay gözəl, könlümə od vurulub
Bu yanğından qurtarmaq elə bilmə asandır.

## SƏNSİZ YAŞAYARAM

Unut doğmaları, uzaqları gəz
Sən özün özünə ögey olarsan...
Təzə mahnı kimi dodaqları gəz
Köhnə mahnı olub unudularsan.

Soyuq ürəklərdə üşüsən belə,
Daha səndən ötrü yanan deyiləm,
Nə qədər yalvarıb, dəyişsən belə
Bir də sənə tərəf dönən deyiləm.

Qaldıran deyiləm səni bir daha,
Vüqarın yıxılıb özündən qabaq.
Dumana çevrilib düşüb yollara
İndi izlərini silirəm ancaq.

Qəlbimdə qoymaram xatirənə iz,
Xatirən qəlbimdən yadlanıb düşər.

Çinar kölgəsində görüşlərimiz
Yağış nəğməsində islanıb düşər.

Daha səndən mənə nə qalar axı,
Ömrümdən biryolluq düşüb itərsən.
Üzünə bağlanar könül otağım
Peşiman-peşiman çıxıb gedərsən.

İtər üfüqlərin günəş sığalı
Bəzər üfüqləri ay incə-incə.
Bitər günlərimin sevgi nağılı,
Sənsiz yaşayaram, elə-beləcə.

## HƏMİN QIZSAN

*(mahnı)*

*Bəstəkar*
*Ş.Mustafaoğlu*

Könlüm qalıb sənə həsrət
Sevə-sevə, bilə-bilə.
Bir od imiş ilk məhəbbət
Döndərəcək məni külə.

Sən ruhuma yazım-yazım,
Bu yazını necə pozum...
Ahım tutar, mənim quzum,
İlk eşqinə şəfa dilə.

Köçən durnam, həmin qızsan,
İçi ağlar bir avazsan.
Sən məni ovudanmazsan,
Gözlərindən gülə-gülə.

## BİLƏRƏM

*(mahnı)*

*Bəstəkar*
*Ş.Mustafaoğlu*

Buluddan ay boylanar,–
Gülər üzün bilərəm.
Ulduzlar qoşa yanar,-–
Bir cüt gözün bilərəm.

Çəkib intizar yenə,
Qəlbim tökər qar yenə.
Bir gül versən yar, mənə
Onu yazım bilərəm.

Hardan bilim sən,.. gülüm,
Məni sevirsən, gülüm?
Görüşə gəlsən, gülüm,
Sözün düzün bilərəm.

Bir günəşsiz səhərəm,
Sənsiz heçəm, hədərəm.
Səni necə sevirəm,–
Bunu özüm bilərəm...

## OLMASIN

*(mahnı)*

Gülsün səadət,
Üzülsün həsrət.
Yolumda sərhəd,
Olmaz,olmasın.

Yazda gül bitər,
Saralıb gedər.
Sevgin o qədər,
Solmaz olmasın.

Günəşdən öyrən,
Məhəbbəti sən.
Könlündə nəğmən,
Səssiz olmasın.

Olma pərişan,
Əhdini pozan.
Qəlbində xəzan,
Payız olmasın.

Dünya gül tağı,
O, toy otağı.
Yandır çırağı
Şamsız olmasın.

## SƏNİ

*(mahnı)*

Ay gözü şəhla, özü leyla gülüm
Gör bir havaxtdan sevirəm mən səni.
Məhləmizdən gəlib keçərdin hər gün,
Vallah, o vaxtdan sevirəm mən səni.

Ayrılığından saralıb düşmüşəm,
Elçi daşından vurulub düşmüşəm.
Lap qapınızda yorulub düşmüşəm,
Sanma uzaqdan sevirəm mən səni.

Xatirinə dəyməsin hər söz hələ,
Nazını çəkdim bu qədər, qız hələ.
Toy da, nişan da olacaq, döz hələ
Ay dəli, çoxdan sevirəm mən səni.

Eşqimizi nəğməli, şən görmüşük
Qəlbimizi sevgiyə tən görmüşük.
Laləli, nərgizli çəmən görmüşük
Güllü bulaqdan sevirəm mən səni,
Gör bir havaxtdan sevirəm mən səni.

## DEYİRSƏN
*(mahnı)*

Öz yanağın bir sözümdən allanıb
Laləyə bax, qanı axır, deyirsən.
Bülbüllərin nəğməsinə boylanıb,
Budaq üstə gül darıxır, deyirsən.

Bir bağçanın iz düşməyən qatında-
Alışırıq sevgimizin odunda,
-Gəl oturaq bu ağacın altında
Gedib çıxar yola cığır,- deyirsən.

Üfüq aşır günün qızıl addımı,
Ay gətirir kəndimizə axşamı.
Ayrılırıq,- qonşu kəndin adamı
Qonşu qıza nişan taxır,- deyirsən...

*1970*

## DUET
*(mahnı)*

Gözəlliyin əfsanədir,
Könlüm dəli divanədir.
Gül camallım, qara xallım,
Adını de, adın nədir?

-Yar dayanar yar yolunda,
Oğlan, oğlan dur yolumda.
Bir özünü yor yolumda,
Sonra deyim adım nədir.

-Ay qız, ay qız üzün gülsün,
Adını de, gözüm gülsün.
Yar yolunda yarın ölsün,
Ay qız, ay qız adın nədir?

-Gün doğar, gülün boyanar,
İstəsən bəxtin oyanar.
Elçin qapıya dayanar,
Deyərəm ki, adım nədir.

-Canım yolunda yorulsun,
Bir insafın, rəhmin olsun.
Adın adlara qoyulsun,
Ay qız, ay qız adın nədir?

## YORULMAZ HƏLƏ...

Bu ürək kiminçün döyünür, axı?
Bu ürək sahibi yorulmadımı...
Açıb qanadımı
        xatirələrdən
Uçdum bir eyvanın bahar çağına,
Ləkəsiz, boyasız qız dodağına
Əfsanə danışdım, nağıl danışdım.
Elə bil yağışdım...
 yağdım gözünə,
Tutub əllərini, tutub üzünə
Yağışdan islanıb qaçdı içəri,

Başımın üstündə halay vurdular,
Durnalar nə qədər haray saldılar
Dönüb bir dəfə də baxmadı geri.
Əllərim üzümdə qaldı yenə də,
O qız dünəndə...
Xatirə–qanadlar min yol açılar
Qırılmaz hələ.
Bu ürək səninçün döyünür, gülüm,
Bu ürək sahibi yorulmaz hələ...

## LƏÇƏKLƏRƏ YAZILAN SEVGİ

O axşam çiçəklər, güllər doyunca
Bizim sözümüzə qulaq asdılar.
Bizim sözümüzü ləçəklərinə
Ən əziz xatirə bilib, yazdılar.
Təzəcə çıxmışdıq kənd klubundan
Bir sevgi filminə baxmışdıq o gün.
Dünyanın xoşbəxti, bəxtəvəriydik
İkimiz bir qəlbə axmışdıq o gün.
Çayın bu tayında kəndin klubu,
Çayın o tayında eviniz idi.
Kinodan çıxanda, qayalar ekran–
Üstündə kəndimiz kino kimiydi...
Dalğalar dəyirdi taxta körpüyə
Titrəyə-titrəyə
tutdum əlindən.
Bir nəğmə oxundu, sevgi nəğməsi
Axdı ürəyimə sənin dilindən.
Əllərin səadət müjdəsi imiş,
Mənim ürəyimin həzinliyi də
Sənin əllərinin nəğməsi imiş...
Neçə yaz qayıdıb o yaza oxşar–

O yaz axşamını onda necə var
Yaşıl köynəyində gətirib gəlib.
Bizim eşqimizi
xatirə kimi
Güllər ləçəyində götürüb gəlib...

## MƏN İNDİ BİLMİŞƏM

Daha ürəyində dözüm tapılmaz,
Mən indi bilmişəm, məndən soyusan
Səni qınamağa sözüm tapılmaz...
Sən mənim qəlbimi hardan duyasan,
Sən mənim qəlbimin odlu-alovlu
Hələ söhbətinə düşməmisən ki!
Məni bu həyata bağlayan eşqin.
Yıxılıb könlümdə ağlayan eşqin.
Hələ göz yaşını içməmisən ki...
Deyirlər sükutun dili var, axı,
Susub danışmasam, nə olar, axı,
Qəlbimin harayı çatarmı sənə,
Sən mənim səsimi eşidərsənmi?
Çiçək bağışlasam gül əllərinə
Kövrək nəğməsini eşidərsənmi?..
Xəlvət görüşlərə qurşanmamışıq,
Sən üzü görüşə qaçmamısan ki.
Sən mənim ömrümdə qönçəsən hələ,
Hələ çiçəkləyib, açmamısan ki...
Daha ürəyində dözüm tapılmaz,
Mən indi bilmişəm, məndən soyusan,
Səni qınamağa sözüm tapılmaz.

## YAMAN GEC OLUB...

Sən indi bilmisən təzə fərəhlər
Köhnə ağrıları soyuda bilməz.
Sən indi bilmisən uçar fələklər–
Sevənlər eşqini unuda bilməz.
Təzə mahnılara uyan diqqətin
Köhnə havaları oxuda bilməz...
Qayıdıb üstümə nahaq gəlmisən
Daha ürəyimi od tuta bilməz.
Sənli xatirəmi heç yada salma
Hönkürər, əllərin ovuda bilməz!
Qəlbin təşnə olub, qəlbin ac olub,
Sən indi bilmisən, yaman gec olub.

Alış, bu həsrətin qorunda alış,
Uzaq xatirələr adasına dön.
Aşım qürurumun sərt dolayını
Qəlbimin səsinə, sədasına dön.
Yolumun üstünə en mələk kimi
Bir anlıq bəxtimin sonasına dön.
Dodağı səyriyən, səsi titrəyən
Bir hindli qızının mahnısına dön.
Mənim könül adlı sevgi səhramın
Saçları dağınıq Leylasına dön.
Deyim bu halına ürəyim dolub.
Sən indi bilmisən, yaman gec olub.

Çoxdan könlümüzü hicran oxudub
Hicran qərarını pozan deyilmiş.
Soyuq baxışlardı səni soyudub
Daha baxışımla qızan deyilmiş.
Dağlar dağ çayının selindən tutub
Təzədən qayadan asan deyilmiş.

Günlərin, ayların əlindən tutub
Yanına qayıtmaq asan deyilmiş...
Yatmış duyğuları illər uyudub,
Sən demə, oyatmaq asan deyilmiş.
Mən indi bilmişəm, ömür puç olub,
Sən indi bilmisən, yaman gec olub.

## HEYFİM GƏLİR

Od olsa da, yandırsa da
Baxışların ürəyimi
Sən mənə bax.
Lap buz kimi soyusa da,
dondursa da
baxışların ürəyimi
Sən mənə bax!
Desəm əgər elə baxma,
Gözlərini məndən çəkib
yerə baxma!
Sən elə bax,
Sən mənə bax,
Yerə dikmə baxışını.
Heyfim gəlir baxışına,
Yerə tökmə baxışını!...

## ÖZÜMƏ DÖN

Bir xatalı qulun olum
Əsir düşüm baxışına.
Zəncirlənmiş dəlin olum
Hey alışım baxışına–
Nəzərini tik üstümə,
Neçə yerdən dağla məni.
Qoşun kimi çək üstümə,

Kirpiyinlə oxla məni
lap qanımı tök üstümə,
Gözlərində saxla məni,
Qarasını çək üstümə,
Ağına bük, ağla məni...
Özümə dön özün kimi,
Tale yazan yazım kimi.

## ELEGİYA

Bu dünyada
bir cüt qara gözlər yaşar.
O gözlərdən
közlər yaşar ürəyimdə.
Bu dünyada–
o gözlərin sahilində
bir cüt qara qaşlar yaşar,
O qaşların qarasından
izlər yaşar ürəyimdə.
O gözlər də,
o qaşlar da
yad nəzərdə,
baxışlarda
talandılar.
O gözəlin
o gözləri, o qaşları
ən əzablı xəyaldılar,
xəyaldılar...

## NAĞILLAR ADASI
***(Nağıllarımızı oxuyarkən)***

Bir gün
bir gözəlin sinəsinə
Bir div baş qoymuşdu
nağıllar adasında.
Qara mağaralar
qara bulud kimi,
itirmişdi onu
qara qanadlarının arasında.
Nigaran gözləriylə
baxışa-baxışa,
Ağ qoçun
qızıl buynuzlarından yapışa-yapışa
qalxdım ulduzların halayına.
Barmaqlarım toxtaqlıq yaydı
hörüklərin harayına.
Tapıb tilsimli şüşəni
çırpdım hirsimə.
Qara divin nərəsi
düşdü tilsimə.
Bir gün bir gözəli
Qara hörüklərindən,
asmışdılar ulduzlara.
Qaşları çatılmışdı
qövsü-qüzeh kimi.
O gözəlin göz yaşları
Arxamca səpilmişdi
şeh kimi...

## NAKAM SEVGİLƏR

Dünyanın
qəribə toy gecələri olur.
O gecə
sevənlərin yanında
"Özgələri" olur.
Dünyanın
oxu daşa dəymiş
o qərib gecələri,
Nakam sevgilərin qışqırığını
çırpır hirsinə.
Qayalar bardaş qurub,
ulduzlar yığışırlar
o gecənin naləsinə...
...Farası göz çıxaran
maşın qarışığında,
Şanaya taxılmış kərmə işığında
yenə o toy gecələrinə bənzər
gecələr keçir bu dünyadan.
Mərmər səkilər üstündən,
Möhrə divarlar dibindən
oğurlanmış məhəbbətlər daşıyan
küçələr keçir bu dünyadan!
Dünyanın
qəribə toy gecələri olur...

## MƏHƏBBƏT HAQQINDA BALLADA

Açıb yaxasını səmum yelinə
Gedər, qibləsinə üz tutub gedər.
Sevgi dərgahına, işıqgələnə
Məcnun Leylisinə üz tutub gedər.
Dünyanın ən uzun yoludu, bəlkə

İtər, bu yolların sonu görünməz.
Kərəm lələsiylə yol gedər hələ,
Gedər bu yolların sonu görünməz.
Gedər karvanları ilk məhəbbətin,
Dinib-danışdırsan gileydi bəlkə.
Nakam leylilərin, şahsənəmlərin
Taleyi çoxuna ögeydi, bəlkə...
Bir haqq aşığına dönüb Qəriblər,
Bəlkə də nahaqdan düşüblər oda.
Qoşub o məhəbbət karvanlarına
Sərkərdan qoymusan məni dünyada...
Uyub ulduzların nağılına hey,
Ümid gözləmişəm ay işığından.
Düşüb qövsü-qüzeh cığırına hey
Səni səsləmişəm ay işığından.
Bəxtimi çağırıb, adını deyib
Səni axtarmışam payi-piyada,
Yenə tapmamışam səni dünyada.

Min yol yayınmısan yolumun üstən,
Min illərdi sənə əsir olmuşam.
Yolları yükləyib qolumun üstə
Səni keçirməyə hazır olmuşam.
Sən bir qərib gəmi,
Mən qərib ada.
Mən bir qərib səma,
Sən durna, ya da...
Özgə sahillərə, yad üfüqlərə
Ya üzüb,
Ya da ki, uçub getmisən,
Yenə tapmamışam səni dünyada.

Əlləri qoynunda durub baxırsan,
Hansı tilisimdə, hansı sirdəsən?!

Bəlkə yer üzünün ən xoşbaxtısan...
Bəlkə də, bəlkə də dərdi-sərdəsən...
Od kimi, su kimi gəlirsən mənə,
Hərdən yuxu kimi gəlirsən mənə.
Əlimi uzatsam əlinə dəyər
Qorxuram uçuram bu yaxınlığı.
Qorxuram, qorxuram xətrinə dəyə,
Eh, niyə açıram bu yaxınlığı...
Saçını hörmüşəm qala hörüklü,
Onsuz ürəyim də qalahörüklü...
İlahi sevgilər görünməz gözə,
Nakam məhəbbətlər çatmaz murada.
Bəlkə dayanmışıq min yol üz-üzə
Yenə tapmamışam səni dünyada.

Gülüm, bu yoxluğun, bu səssizliyin
Bil ki, varlığımda, taleyimdədir.
Bil ki, dan ulduzu müqəddəsliyin
Nur içən, nur çəkən ürəyimdədir.
O mənəm asılan baxışlarından,
Əriyib üstümə tökülür günün.
Nakam məhəbbətin qarğışlarından,
Qarıyır, qocalır, bükülür günün...
Oxu, dərdin olum, bayatın olum,
Sevgi karvanları haqdan ötüşər.
Köçən durna kimi məni ha çağır,
Səsin vardan gəlib, yoxdan ötüşər.
Sən gələn yolları duman haqlayıb,
Bəxtim günəş kimi girib buluda.
Məni sənsizliyin yaman haqlayıb,
Səni axtarıram, səni dünyada.

...Təəssüf oxunur qəmli səsindən,
Ömür yollarında payız dolanır.

Mənim gözlərimə sənin gözündən,
On yeddi yaşında bir qız boylanır.
Kədərli-kədərli gülür xəyalın,
Hər axşam yuxuma gəlir xəyalın,
Görürəm göylərə ünün düşübdü,
Saçın ulduzlara düyün düşübdü.
Dünyanın ən igid çaparı olub,
Günü ulduzlara çapıram onda.
“Qırxıncı otağın” açarı olub,
Səni nağıllardan tapıram onda.
Ulduzlar içindən keçib gəlirsən,
Buludlar üstündən uçub gəlirsən...
Bil ki, təsəllidi, xəyaldı bu da,
İlk sevgi haqqında nağıldı, bu da...
Nə “qızıl açara” dönə bilirəm.
Nə igid çapara dönə bilirəm.
Nə tuta bilirəm, günü dünyada,
Bir onu bilirəm, onu dünyada,
Səni axtarıram, səni dünyada...

## MƏN O AĞAC KİMİYƏM

Könlüm pərişan ola,
Dönəm başına sənin.
Gəncliyim geri dönə
Olam yaşıdın sənin.
Bir möcüzə baş verə,
Gələm xoşuna sənin.
O göyərçin əllərin
Qonub əlimdə qala,
Nəğmən könlümdə qala.

Necə də bənzəyirsən,
İlk sevdiyim gözələ.
Sən bahar çiçəyisən,
Mən dönmüşəm xəzələ...
Kövrək xatirələrim
Gülüm, gül açır hələ.

Könlüm səhra kimidir
Dünyasını axtarır.
Məcnun pərişan gəlib
Leylasını axtarır.
Hərə öz nigarını,
Sevdasını axtarır.
Hamı bəxtəvər olub,
Gözüm səni axtarır ...

Həsrətini çəkənin
Halını sordunmu heç.
Dərdindən əriyənin
Fərqinə vardınmı heç.
Payızda çiçək açan
Sən ağac gördünmü heç?
Mən o ağac kimiyəm
Sən fikir verdinmi heç...
Uzaq xatirələrdən
Könlümdə qübar qalıb,
Mən o ağac kimiyəm,
Canımda bahar qalıb.

*2013*

## NƏ YAXŞI...

Danış, xatirələr dilində, danış,
Bitsin xatirələr dilində, danış.
Qəlbimi bir təhər saxlayacağam,
Sıxıb gözlərimi bir dəsmal kimi
Elə ürəyimdə ağlayacağam.
Ötüb uşaqlığım,
Göz yaşlarımı
Danış, yanağıma düzən deyiləm.
Sinəmdə məhəbbət ağlasın bir az,
Sinəmdə məhəbbət toxtasın bir az.
Ürəyim gizlicə dərə kimidir
Heç kim görə bilməz,
Düzən deyiləm...
Səninlə üz-üzə dura bilmişəm,
Səninlə göz-gözə dura bilmişəm...
Nə yaxşı, nə yaxşı yollar varimiş,
Yollar izlərinə boyanıb axır.
O çılğın günlərim, odlu günlərim
İndi gözlərindən boylanıb baxır.
Yenə qəribsəyib ürəyim bir az,
Danış,danış hələ...
Dinləyim bir az.
Qəlbimi bir təhər saxlayacağam,
Sıxıb gözlərimi bir dəsmal kimi,
Elə ürəyimdə ağlayacağam...

*1969*

## TƏZƏDƏN SEVƏCƏKSƏN

Bu günlər düşəcək yadına bir gün,
Bu günlər olacaq istəyin sənin.
Məni anacaqsan həsrətlə hər gün,
Yaman kövrələcək ürəyin sənin.

Sıxıb, incidəcək taleyin səni,
Çoxdan ötüşəcək bu günkü günlər.
Yaman səsləyəcək ürəyin məni,
Yadına düşəcək bu günkü günlər.

Ağır dərd olacaq sənə o günlər
Gözün boşalacaq, gözün dolacaq.
Qəlbin can atacaq mənə o günlər,
Qismətin bir quru ümid olacaq...

Uzaqdan-uzağa alışacağıq,
İllər baxışa da sədd olacaqdır.
Əbədi həsrətə alışacağıq.
Bu günlər o günə dərd olacaqdır.

Sən özün-özünə xiffət edəcək,
Mən özüm-özümə sıxılacağıq.
Beləcə həyatı biz əridəcək,
Beləcə, həyatdan yox olacağıq...

*1970*

## SƏNİ GÖRÜRƏM

Qarşıma çıxırsan hara gedirəm–
Baxıram hayana, səni görürəm.
Xəyallar içində özüm itirəm,
Mən səni tapıram, səni görürəm .

Çıxıram yamaca bənövşə dərəm,
Üzümə baxırsan, dərə bilmirəm.
Baxıram səmaya günəşi görəm,
Buluda dönürsən, görə bilmirəm.

Əyilib bulaqdan su da içəndə
Əksini bulaqda görürəm sənin.
Mən incə güllərdən saçaq hörəndə
Elə bil saçını hörürəm sənin.

Xəyalım fırçaya dönüb elə bil
Əksini həvəslə çəkib hər yana.
Ürək səndən ötrü sıxılan deyil
Mən səni görürəm, baxsam hayana.

*1970*

## BƏXTƏVƏR KÜÇƏLƏR

Bu axşam, bu saat
Ürəklər incələr.
Məhəbbət yazına
Ümidlər qönçələr.
Su verib gözünə,
Söykənib çəliyə
Qocalar dirçələr.
Az qala küçəni
Baxışlar içələr
Bu axşam, bu saat
"Vağzalı" üstündə
Bir gözəl aparır küçələr,
Bəxtəvər küçələr,
Xoşbəxt küçələr...

## SƏNSİZ

Unudub özünü, səni düşünür
Yenə də eşqindən gileyli könlüm.
Soyuq xəyallarda donub, üşünür
De, kimə salmalı bəs meyli könlüm?

Ürək niyə sənsiz olmayır mətin
Söylə, ürəyimin kimisən axı?
Bir şey ki, sən məni sevməyəcəkdin,
Niyə ürəyimə girmisən axı?!

*1969*

## GÜNƏŞ KİMİ

Bütün varlığınla mənim ol, mənim,
Boylan, gözlərimə bax günəş kimi.
Tutqun çağlarıma qənim ol, qənim.
Yolumun üstünə yağ günəş kimi.

Əzəldən eşqinə mənəm dan yeri,
Sənəm, səndən ötrü sinəm dan yeri.
Ora zülfünü sər, alış, yan, yeri
Nurlana-nurlana çıx günəş kimi.

Məhəbbət qızılı taxt olsun sənə,
Baxsın, qaranlıqlar durulsun sənə.
Ürəyim yenidən vurulsun sənə,
Təzədən bəxtimə doğ günəş kimi...

## QOLLARIM ÇATSAYDI...

Dilində “yaxşı yol”, gözündə nisgil
Məni yola saldın təyyarəylə, yar.
Yaman kövrəlirəm, axı sən deyil,
Məni qucaqlamış burda buludlar.

Sığmıram səmaya, bu gen aləmə,
Dolanır atəşin, közün ürəkdə.

“Günəşə yaxınsan, belədir”–demə,
Onsuz bir günəşsən özün ürəkdə.

Baxıram, görməkçün səni aşağı,
Görmürəm, çaşdırır buludlar məni.
Yenə toxtayıram, buludlar axı,
Mənə xatırladır ağ örpəyini.

Sənsiz hədər bilib, sanıram ömrü,
De, səni özümdən nə vaxt ayırdım.
Qollarım çatsaydı, bir səndən ötrü
Bütün yer kürəsin qucaqlayardım...

## AĞ GÜL

Mənim görüşümə ağ gül gətirdin,
Ağlığı ağappaq qardan gəlmişdi.
Ömrümə elə bil ağ gün gətirdin,
Bu sənin ağlına hardan gəlmişdi...

Arada ayrılıq, hicran bitirən
Dindirim küsülü illərinimi?
Mənim görüşümə, ay gül gətirən
Əllərini öpüm, güllərinimi?..

## KİM BAXSA GÖZLƏRİNƏ

*(mahnı)*

*Bəstəkar*
*Nazim Quliyev*

Məni atdın, qoy olsun
Sanma xoşbəxt oldun sən.
Gözündə yurd salmışam,
hara getsən, mənimsən.

Kim baxsa gözlərinə,
Məni orda görəcək.
Məndən xəcalət çəkib,
Səndən üz döndərəcək...

## SƏNƏ SARI GƏLƏN SƏS

Qalıb ürəyimdə bir sevgi nuru,
Bilirəm o sevgi nə qədər duru,
Bilirəm o sevgi nə qədər təmiz.
Orda ilk məhəbbət ayağıyalın,
Qaçır üzü bəri səndən xəbərsiz.
Üzüb, üzüb səni peşimançılıq,
Qəlbini dindirir nigarançılıq.
Yəqin mənə qalar ümidin indi,
Bir qəmli nəğmədir sükutun indi.
Ağrıya, əzaba dözə-dözə gəl,
Boylan, sənə sarı gələn səsə gəl.

Qəmlənə-qəmlənə yoluma baxan,
Kövrələ-kövrələ ovunan gülüm.
Hicran havasında qəlbini sıxan,
Gileyi gözündən oxunan gülüm.
Özünü həsrətin qoluna yıxan,
Vüsalın xətrinə toxunan gülüm.
Səni soraqlayır, səsləyir bir əl,
Boylan, sənə sarı gələn səsə gəl.

Nahaq tufanlara salma eşqimi,
Onsuz məhəbbətin gözü dolandı.
Sən sahil, mən sənə tələsən gəmi
Yanına çatmıram xeyli zamandı.
Alış, mənim gülüm, səməndər kimi
Sevən könüldürsə, hicran yalandı.

Hələ üzməmişəm səndən əlimi
Bu bağın gülləri bir gün solandı...
Gəl, xəzan olmasın eşqimiz, gözəl
Boylan, sənə sarı gələn səsə gəl.

## O QIZ...

Qara gözlərinə qəm çökən sonam
Salam, bir də salam o qız sən idin.
Bir vaxt ürəyimə dağ çəkən sonam
Məni oda salan o qız sən idin.

Bir sevgi nağılı var idi onda
Sevənlərin sözü bir idi onda.
Şöhrətə aldandın, sovruldu o da.
Eşqin oldu talan–o qız sən idin.

Hər dərsdən çıxanda dönüb kölgənə
Arxanca gələrdim hey dönə-dönə.
Qızlara göstərib, gülərdin mənə
O ədalı şeytan–o qız sən idin.

Bir su pərisiydin, çəkdilər dilə,
İndi atılmısan quru sahilə.
Yandım bu halına, sən döndün külə
Dərdinə mən qalan o qız sən idin.

Qızların kirpiyi kaman, oxuydu
Olsun, səndən gözəl gözəl yoxuydu.
Sevgi məktəbində Leyli çoxuydu,
Məcnunu mən olan o qız sən idin.

## AYRILDIQ...

Ayrıldıq,
o saat
kipriklərinə düzdün göz yaşını,
Ayrıldıq, uşaq kimi
yanağına düzdün göz yaşını.
Beş günlük həsrətə dözmədin,
əlini əlimdən üzmədin.
heyrətlə gözlərinin içinə baxdım.
Bir az qorxdum da.
Düşündüm,
bəlkə bizi
əbədilik ayırdı baxtım,
bəs onda...
Onda nə edəcəyinə,
mənsiz qəmin, kədərin içində itəcəyinə
ağladım.
Ağladım, səadətin böyüklüyünə,
Diz çökdüm,
məhəbbətin böyüklüyünə...
Ağladım,
göz yaşlarımız qovuşdu,
kiçik bir kürrə–
məhəbbət kürrəsi
peyda oldu yanağında.
O gün
təbəssümün də ağladı dodağında.
Ayrıldıq,
mən səndə,
sən məndə–
tufanla dərya kimi,
günəşlə dünya kimi.

## SAÇLARI SARI SONAM

Qaşı qara, gözü nur,
Saçları sarı sonam.
Çəkil, mənə sarı dur,
Saçları sarı sonam.

Nəğməsən, yazı gülsən
Qönçəsən, azı gülsən.
İncəsən, nazı gülsən,
Saçları sarı sonam.

Ay sinir sənə sarı,
Saralır sönə sarı,
Sinəmə sinə sarı,
Saçları sarı sonam.

Zarıdı, xəstə öldü,–
Coşdu, həvəsdən öldü–
Bülbül gül üstə öldü,
Saçları sarı sonam.

Ömrümün yarı günü
Qızılı, sarı günü.
Günümün yarı, günü
Saçları sarı sonam.

Gecə tən oldu yarı,
Necə tən oldu yarı...
Bu sirri açma barı,
Saçları sarı sonam.

## SƏHNƏDƏ MƏCNUN GƏZİR

Ayaqyalın, başaçıq,
dalğın, yazıq
Bir qumlu səhra kimi
səhnədə Məcnun gəzir.
Mən–iyirminci əsr,
O–isə...
Allah bilir
Hansı qərinənin varisi.
Salon–sahil,
Səhnə–tufanlı məhəbbət dənizi.
Bugünün çərçivəsindən çıxıram,
Keçmişin bir parçasına baxıram.
Füzuli dərdi çöküb səhnəyə
Leyli boyda, Məcnun boyda.
Əsrin bir ayağı
Leylinin atasının qapısında
O biri Ayda...

*1976*

## İNDİ UZAQLARDASAN...

Qəlbimi ayrılıq qəhəri kəsir,
qara gözlərinin işığı, mənsiz
qara gecələrin içində əsir...
İndi uzaqlardasan
Daraqlayıb əllərini,
təkcə sükutun qoynunda
dincələ bilərsən.

Nikbin xəyalımın zarafatından
nə qədər istəsən,
gülə bilərsən.
İndi uzaqlardasan,

İndi uzaqlığın toranlığında
içini çəkirçən-
çatır qulağıma hıçqırığın da...
Kövrək nəzərlərin, mehribanlığın
ay kimi, gün kimi üstümə düşür.
Bu ayrılıq ki, var, nədənsə gülüm,
elə sevənlərin bəxtinə düşür.
Bu axşam o ki var səni öyərəm,
səndən danışaram, səndən deyərəm,
yuxuma gələrsən ay işığında,
əllərin əlimdə qartək əriyər.
Alışıb yanaram yaraşığından,
səni səsləyərəm, səsim titrəyər,
indi uzaqlardasan...

## O ŞƏHƏR AĞACI...

Sonuncu, sonuncu, sonuncu görüş
Ayrılıq alırdı əlimdən səni.
Deyirdim: həsrətlər etsə də yürüş,
Ayıra bilməzlər könlümdən səni.

Təsəlli verməyə yoxmuş ehtiyac
Dolan baxışlarda qəm alışırdı.
Sənin söykəndiyin o yaşıl ağac,
Gözümdə bir az da yaşıllaşırdı...

Yaşıl abidələr dünyada ha çox
Çiçəklər abidə, güllər abidə.
Dünyada abidə ağaclar da çox,
Bizim payımıza düşdü biri də.

Açıb qollarını ağcaqayıntək
Uçurdun üstümə öz adətinlə.

Ulduzlar altında gülümsəyərək,
Məni odlayırdın məhəbbətinlə.

Yaşıl qanadlara dönürdü sevgin,
Ötən saatlar da, gün də sehrli.
O gecə o ağac altında, gülüm,
Sən də sehrliydin, mən də sehirli.

Nəğmə oxuyurdu sanki hər yarpaq,
Qol-qanad açırdı məhəbbətindən.
O ağac bilmirdi, bilmirdi ancaq
Səni bu son görüş ayırır məndən.

Hərəmiz bir səmtə üz tutub getdik,
O şəhər ağacı qaldı kimsəsiz.
Vaxt olar, yanına bir də gələrik
O bizi tanıyar şübhəsiz, şəksiz...





# *GÜNƏŞ ÇƏKƏ BİLMİRƏM*

## GÜNƏBAXANLAR

Baxın, baxın tabağa
İçinə tum əkiblər.
Günəbaxan tabağa
Sarı çəpər çəkiblər.

Ancaq dəcəl sərçələr
Çəpər-filan bilməyir.
Söküb-tökür tumları,
Gör necə də dənləyir.

Bir balaca daş atdım,
Qanad açdı sərçələr.
Daşı lap yavaş atdım
Yaman qaçdı sərçələr.

Sanki günəbaxanlar
Azadlığa çıxdılar.
Gülümsəyib hamısı,
Dönüb mənə baxdılar.

## ŞƏRİKLİ YORĞAN

Güllü yorğanı
Dəcəl Laləyə,
Salıb nənəsi,
Verib hədiyyə.
Hər gün həvəslə
Açır eyvana
Pişik Lalədən
Qabağa düşüb

Çıxır yorğana.
Baxıb nənəyə
Gülür qızcığaz.
Deyir: ay nənə,
Belə şey olmaz.
Verdiyin paya
Olubdu şərik.
Yorğanın üstən
Durmayır pişik.
Kimindir axı
Bu yorğan indi.
Mənə vermisən,
Ya pişiyindi?!

## YER ŞARIMIZ

Yer kürəsi, deyirlər
Yumru şardı, ay ata.
Onda onun şar kimi
İçi vardı, ay ata.
Uşaqlara demişəm
Atılıb düşməsinlər.
Qazma ilə, bel ilə
Üstünü deşməsinlər.
Sən də əmilərə de
Top, tüfəng atmasınlar.
Üstündə tanklar sürüb,
Bomba partlatmasınlar.
Qorxar, küsər şarımız,
Partlayar Yer şarımız.

## GÜNƏŞ ÇƏKƏ BİLMİRƏM

Mən Günəşi sevirəm
Hər yanı nurlandırır.
Odlu baxışlarıyla
Dünyanı nurlandırır.

Çoxlu şəkil çəkmişəm,
Təkcə Günəş qalıbdı.
Mənim qızıl Günəşim
Məni işə salıbdı.

Fırçam, rəngim, kətanım
Xarab olub nə qədər.
Atam deyib yığışdır,
Anam deyib nə xəbər...

Açıb-bükə bilmirəm,
Danlayıram özümü.
Günəş çəkə bilmirəm,
Qamaşdırır gözümü.

## QIRMIZI

Yamacların döşündə
Lalə bitib, qırmızı.
Cığırları, izləri
Tamam tutub qırmızı.

Lalə dərən qıza bax,
Lentaları aldır, al.
Lalə yanaqlarının
Ortasında qara xal.

Laləliyə kim salıb
Bapbalaca bu qızı.
Lalələrdən seçilmir,
Donu tamam qırmızı.

Birdən Lalə çağırdım,
Boylandı, güldü Lalə.
Qırmızı güllərilə
Yüyürüb gəldi Lalə.

## UŞAQLAR VƏ GÜNƏŞ

Baxın, baxın ağappaq
Qardı, qardı təpədə.
Xizək ilə sürüşən
Uşaqlardı təpədə.
Əziz, Nərgiz, Ramazan,
Etibardı təpədə.
Ora baxın, Günəş də
Gəlib durdu təpədə.
Deyəsən sürüşməyə
Xoşu vardı təpədə.

## PAXIL ARILAR

Babamın arıları
Yamanca paxıldılar.
Bağçamızda özləri
Gəzişirlər o ki var.

Ancaq bir gül dərməyə
Bizi qoymurlar ora.
Bütün günü çəpərdən

Yalvarsaq da onlara.
Çiçəkləri həvəslə
Uçub bir-bir sayırlar.
Nə özləri dərirlər,
Nə də bizi qoyurlar.

## GƏMİLƏR YORULANDA

Dənizə bax, dənizə
Gəmilər üzə-üzə
Hara gedir üzündə?!
Onlar suda boğulmur
Nəyaxşı ki, üzəndə.
Dənizlərin axırı
Hara çatır görəsən?
Yorulanda gəmilər
Harda yatır görəsən...

## A YORDU, YORDU, YORDU...

Gəzməyə bağça-bağı
bölündük, yarı olduq.
Dəstəmiz aşdı dağı,
gah düzə sarı olduq.
Sərçəni aldı qırğı
səsi, havarı olduq.
Vurduq sındı ayağı,
"ətdən divarı" olduq.
Atımız quru qarğı
mindik, havalı olduq.
A yordu,yordu, yordu,
Görək kim kimi yordu.

Su daşdı bəndi yardı,
vəryanı yıxdı, qaçdı.
Suçu zalım Qafardı,
uşaqlar qorxdu,qaçdı.
Bənövşə gül,lalə gül
dərdim, əlimdə qaldı.
Hörüyü sarı sünbül,
gözüm yolunda qaldı.
Ayağım yerimədi,
ölüm-zülümdə qaldı.
Yetirdi zalım Qafar,
əli qolumda qaldı.
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Qamçını tuta bildim,
qolumu darta bildim.
Yel olub dəstəmizin
yanına çata bildim.
Cinlənib çapar olduq,
Biz olduq, Qafar oldu,
yıxıldı, topal oldu...
Cığırı güllü bağla
qaçdıq, qaçdıq o ki var.
Uşaq həvəsimizlə,
uçduq, uçduq o ki var.
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

Yüyürüb evə döndük,
acından devə döndük,
lavaşı alazlayıb,
bozbaşı toparladıq.

Pişiyi tolazlayıb,
Yorğanı qamarladıq.
Yorulub əldən düşən
ayaq-ayağa yatdı.
Göydən üç alma düşdü,
oyaq oyağa atdı.
Nağılımız deyəsən
axır, axıra çatdı.
A yordu, yordu, yordu,
Görək kim kimi yordu.

## SƏMƏNİ

İçində buğda sərdim,
Güllüyanaq nimçənin.
Su verdim, hey becərdim
Tənzifi ağ nimçəni.
İndi mənim səmənim
Göyərib, boy atıbdır.
Nimçədə göy çəmənim
Bir qarışa çatıbdır.
Bayırda şaxta, qar var
O, ilk yazdan nübardı-
Bizə gəlin, uşaqlar
Evimizdə bahardı.



## BƏLƏDÇİ OLACAĞAM

Səfərə çıxmışıq biz
Atamla bir həftədir.
Vaqon bələdçisidir,
Atam yaman kefdədir.

Əlində bayrağı var,
Başında da papağı.
Düyməsini basanda,
Alışır əl çırağı.

Hər işdə sayıq olur,
Mehribandır, xoşrəftar.
Gecələr oyaq olur,
Sərnişinlər yatalar.

Qocalara yer salır,
Uşaqları dindirir.
Hərdən bəzi işlərə
O, məni də göndərir.

Böyüyəndə papaq da,
Bayraq da alacağam.
Mən də öz atam kimi
Bələdçi olacağam.

## TAHİRİN SUALI

Ata, soyuq düşəndə
Ay heç paltar geyməyir.
Göydə istidir yeri,
Yoxsa Ay üşüməyir?!

## KOMBAYINÇI ƏMİ

Zəmiyə bax, zəmiyə,
İçində lalə bitib
Yol tapmıram dərməyə.
Səsim çatmır deməyə,
Kombayınçı əmiyə,
Qorxuram ki, görməyə...

## TƏNDİR

Lavaş yapılan yerin
Uşaqlar, adı olur.
İçinə odun atsan
Çathaçat odu olur.
Təndiri kənddə gördüm
Odu çox iti olur.
Uzun, yumru küfləsi,
Möhrədən badı olur.
Kündələri açmağa
Oxlovu, taxtı olur.
Hörmə çəpərəsinin
Yuxadan qatı olur.
Nənəm dedi: maşallah
Nəvəmin baxtı olur.
Əppək yapanda gəlir,
Ruzulu vaxtı olur...
Təndirdən tapı çıxdı,
Nənəm qoynuma sıxdı.
Döndüm, qaçdım qapıdan,
Tikələdim tapıdan
Nə gözəl dadı olur...

## MAHİRİN TƏLƏSİ

Mahir eyvana çıxıb
Gördü çoxlu qar yağıb.
Həyətdəki ağacın
Altını təmizlədi.
Bir ovuc dən gətirib
Oraya səpələdi.
Ələkdən tələ qurdu,
Tələyə sap bağlayıb,
Yüyürüb tində durdu.
Sərçələr tökülüşüb,
Dörd yanı dənlədilər.
Sonra qonub budağa
Civildəşib güldülər.
–"Cik-cik, bildik", dedilər.
Daha dən istəmirik,
Biz tələyə girmirik...
Ələkdi, ha ələkdi,
Mahirin işi kələkdi...



## GÜLŞADIN DƏFTƏRİ

Gülşadın dəftərinə
Qardaşı ləkə saldı.
Gülşad dəftərə baxdı,
Gözünün yaşı axdı,
Ləkəni yekə saldı.

## QARĞALAR, QAĞAYILAR

Qonaq gəlmişdi Orxan
Bakıya ilk dəfəydi.
Dənizi görməmişdi,
Dəniz yaman yekəydi.
Dalğaların üstündə
Qağayılar ha çoxdu.
Orxan baxıb duruxdu.
Qağayı görməmişdi,
Elə bildi qarğadı.
Fikirləşdi, bəs niyə
Bu qarğalar dümağdı?
Qarğalar qara olur,
Ya da ki, ala olur.
Aha, tapdım, dedi o
Onlar niyə ağdılar.
Dənizdə çox çimiblər
Yəqin belə ağdılar.

## SUYA GİRƏNDƏ

Suya girəndə
Atam danlayır.
Qolumdan çəkib,
Anam danlayır.

Ay səni, Şölə
İslandın yenə.
Soyuq dəyəcək
İndicə sənə.

Çayda balıqlar
Çimir, hey çimir.
Mətəl qalmışam
Bəs niyə soyuq
Onlara dəymir?




DAŞAR, GÖZƏLLİKDƏN
DAŞAR BU YERLƏR

## BƏSİNDİ

Göylər başı havalı,
Bulud–zirvədə kösöy.
Çalır günəş-qavalı
Dan yerində mavi göy.
Üfüqlərin üzünə
Dəyər qızıl səs indi.
Günəşin nəğməsinə
Qulaq assan, bəsindi.

Şaxta gül bitirməyib,
Yüz yol gedib qayıdıb.
Aylar tab gətirməyib,
Qışı atıb qayıdıb.
Maviliyin köksünə
Düşər cığır, iz indi.–
Durnaların səsinə
Qulaq assan, bəsindi.

Çılın-çılpaq yamaca
Min istəklə gül verib,–
Quru, qozbel ağaca
Yarpaq verib, əl verib–
Baharın həvəsinə
Ola bilməz söz indi,
Çiçək hənirtisinə
Qulaq assan, bəsindi.

Günəş işıq toxuyur,
Mənzili gen olacaq.
Coşqun çaylar oxuyur,
Damlası dən olacaq.

Xəlbirlənən düzünə
Əlini ver, isin di.
Sən baharın sözünə
Qulaq assan, bəsindi.

Eyzən yaxası nurdu,
Çiçək taxıb, qabarıb–
Torpaq puçur-puçurdu.
Köksü qalxıb, qabarıb...
Sığal verib hüsnünə
Hər yan olub naz indi,
Təbiətin özünə
Qulaq assan, bəsindi.

## BƏNÖVŞƏ

Təbiətin ilk nübarı göyərib,
Göy ilmətək çəmənləri naxışlar.
Ötən yazın etibarı göyərib,
Bənövşəyi rəngə düşüb baxışlar.

Belə yerdə gözəlliyi dayan, süz,
Boylan hələ o yamaca, o döşə.
Mən heç yanda görməmişdim belə göz,
Hardan alıb bu göy gözü bənövşə?

Uyumuşam bu çiçəyin ətrinə.
Mən ha baxdım camalından doymadım.
Yaz gözəli bənövşənin xətrinə,
Çəmənlərdə gəzinməyə qıymadım.

Göy talada zərif tüldü bənövşə,
Göy buluddan pay düşübdü elə bil.
"Bahar" yazan körpə əldi bənövşə
Mürəkkəbə bulaşıbdı elə bil.

Belə yerdə gözəlliyi dayan, süz,
Boylan hələ o yamaca, o döşə.
Mən heç yanda görməmişdim belə göz,
Hardan alıb bu göy gözü bənövşə?..

## QIŞ DUYĞULARI

Bəyaz dolayların tapdım yolunu,
Sandım qayalardı qanadı qışın.
Gördüm yüz bulağın kəsib dilini,
Yüz nəğmə kiridib inadı qışın.

Qırçın qayaların, sərt dolayların,
Əvvəlki inadı ütülənibdi.
Yaşıl fəsillərin, yaşıl ayların,
Yaşıl ümidləri ağ bələnibdi.

Göylər qanad gərib ayaqlarına–
Yerlərin ağappaq marağı daşıb.
O qədər qar yığıb qucaqlarına,
Dağların dərəsi başından aşıb.

Sözsüz nəğməsini duyurdum onsuz,
Gəzib dönə-dönə oldum hayanı.
Qarlı səhraların səhnəsi sonsuz–
O sıra dağlar da xor oxuyanı.

Günəş öz içinə çəkib odunu,
Bəyaz tül kimidir üfüqdə duman.
Sanki nağıllardan çapıb atını
Bir ağ toz qaldırıb ağaltı oğlan.
Səma gümüşlənib, yer gümüşlənib
Təbiət əyninə gümüş don geyib.

"Zirvədə dodağı qaçan günəşin"
Sürüşüb, qar üstə gülüşü dəyib.

Buludlar ələyib bəyaz varını,
Küləklər yüz yana kürəkləyibdir.
Sərçələr çırpdıqca qanadlarını,
Sandım budaqlardı çiçəkləyibdir.

Qarlı duyğulardan heç doymaq olmaz,
Qarlı duyğuların sığalı xoşdur.
Bu ana torpağın yuxusu bəyaz,
Ana təbiətin nağılı xoşdur.

## BİR ÇİNAR OYNAYIR...

Bir çinar oynayır bulaq başında,
Çalır havasını yaz küləkləri.
Təzə gəlin kimi duvaq başında,
Açılıb yanlara ağ biləkləri.

Sakit dayananda əli titrəyir,
Möcüzə göstərir sanki rəqsdə.
Əyilir, yıxılır, beli titrəyir
Ağac görməmişdim belə həvəsdə.

Günəş əl gəzdirir zərif döşündə,
Şehli nəfəsini küləklər udur.
Bəyaz sinəsinə işıq düşəndə,
Yarpaq-əllərini üzünə tutur.

Bu sevda olmasın canını üzən,
Bu halı gül açan yaza oxşayır.
Mağar ortasında naz ilə süzən
Bir boylu-buxunlu qıza oxşayır.

Bir çinar oynayır bulaq başında,
Sular camalına ayna tutubdur.
Süzür gəlin kimi duvaq başında,
Ağac olduğunu lap unudubdur...

## YADIMDA

Çoban qardaş, o çiçəyin, o gülün
Çəməndəki naxışları yadımda.
Qönçə üzdük, dodaqları bükülü,
Lalə üzdük, baxışları yadımda.

Qayasında səsim qaldı dağların,
Zirvəsində gözüm qaldı dağların.
Yarısında izim qaldı dağların,
Qonaq yoran yoxuşları yadımda.

Çay üstünə yaydın sən öz sürünü,
Çay oxudu, qulaq asdıq o günü.
Ömrümüzə xoş gün yazdıq o günü,
Adamların yaxşıları yadımda...

“Ballı qaya”, “Qızıl qaya” susdular,
O çaldığın həzin neyə susdular.
Ağ buludlar taya-taya susdular,
Havar salan yağışları yadımda...

Dolu çırpdı şimşəklərin hədəsi,
Sığnaq oldu bizə “Həsən dərəsi”.
Sürü üçün ürəyinin əsməsi,
Gözlərinin təlaşları yadımda...

## QUŞLAR UÇAR İLK BAHARA

Mavi səma dənizində
Qanadını yelkən kimi
Açar quşlar.
Ölkələrdən ölkələrə
Uçar quşlar.
Elə ki, göy meşələrə
Xəzan düşər,
Gözəlliyə talan düşər,
Öz ayrılıq havasıyla
Yarpaqları oxşayarlar,
Quşlar belə yaşayarlar.
Hacıleylək boranına
Göy uğunar, yer hallanar,
Qövsü-qüzeh "çiçəkləyər",
Göydən yerə gül sallanar.
Baxar, gülər novruzgülü
Qanad açar ilk bahara,
Quşlar uçar ilk bahara.
Bəyaz-bəyaz adalardan
ötə-ötə oxuyarlar,
Maviliyin qucağında
"Üçkünc" nəğmə toxuyarlar
Ölkələrin ünvanına
Hər an sevinc gətirərlər,
Hər an bahar daşıyırlar.
Bu dünyanın səmasında
Quşlar belə yaşayarlar...

## KÜLƏK ƏSİR

Külək əsir,
Yamacların yaxasından
Şeh üzülür düymə kimi.
Qopur qaya dodağından
Şəlalələr nəğmə kimi.
Külək əsir,
Bağça-bağı dilləndirir.
Budaqları nənni kimi
Qırğalayır, yelləndirir.
Külək əsir,
Əsir külək...
Yenə yazın naxışından
Gözəlləşən neçə meşə
Enir, qalxır ağır-ağır-
Şax budaqlar titrəyirlər.
Sanki bütün gözəlliklər
Təbiətə baş əyirlər...

*1970*

## MEŞƏDƏ PAYIZ

Bir axşam payızın girdim qoynuna,
Yarpaqlar başımın üstündə yandı.
Budaqlar qolunu saldı boynuma,
Yollarım qızılı şehə boyandı.

Orda korun-korun yanır hər ağac,
Yarpaqlar közərən oddur-alovdur.
Yüyürüb altında əllərini aç,
Bu odu-alovu başına sovur...

Payız şəlaləsi belə olarmış,
Yoluna, izinə axıb tökülən.

Yarpaqlar üstünə işıq salarmış,
Cığırlar hamısı üzünə gülən.

Payız toy mağarı, atəşfəşan ki,
Təbiət səhər də, axşam da yanır,
Meşələr bəzənmiş xonçadı sanki,
Ağaclar hərəsi bir şamdı,–yanır.

Bu axşam yarpaqlar üstünə yağan
Ayın işığına heyran qalırdım.
Özüm durnaları qarşılamışdım,
Özüm durnaları yola salırdım...

## QÖNÇƏ

Qönçə fikirdi hələ,
Oyanıb açılacaq.
Ləçəyi pilə-pilə,
Teli tel-tel olacaq.

Qönçə fikirdi hələ,
Sehrdi, sirdi hələ,
Camalına su çilə,
Hayıl-mayıl olacaq.

Qönçə fikirdi, fikir,
Günəşdən şölə çəkir.
Od içir, şirə çəkir,
Dodağı bal olacaq.

Qönçə qönçədir hələ,
Zərif, incədir hələ,
Göydür-göyçədir hələ,
Allanıb al olacaq.

Qönçə körpədi, körpə
Əzizlə öpə-öpə.
Donunu pörtə-pörtə
Soyunub gül olacaq.

Qönçə xumardı, şəndi,
Başı dumandı, çəndi,
Dərən, kama yetəndi,
Nakam, bülbül olacaq.

## TUT AĞACI

Meyvəsindən şirə axar, bal tökülər,
Ürəklərə bir dərmandı tut ağacı.
Hər il onun bəhrə-barı eyni gələr,
Bu ellərçün ərməğandı tut ağacı.

Əsrlərdən-əsrlərə əmanətdir,
Bağımızda şirin nemət, bərəkətdir.
Tut paylamaq qapılara, bir adətdir,
El deyib ki, bir ehsandı tut ağacı.

Gövdəsini cadar basıb, qırış alıb,
Neçə illər, qərinələr yola salıb,
Kölgəsində Dədəm Qorqud qopuz çalıb,
Hər ağacdan qocamandı tut ağacı.

## PAYIZ

Dağların başından sürüşüb düşər,
Düzlərin əlində dağılar payız.
Titrəyər, səyriyər, taqəti olmaz,
Yollara, izlərə yıxılar payız.

Yaşıl meşələrin sökülər tacı,
Sanki təbiətin evi talanar.
Məhzun söyüdlərin tökülər saçı,
Xırda pöhrələrin əlləri yanar.

Dağların dalından hələ yol gələn,
Qışın yollarına sürünər payız.
Elə bil canını tapşırmaq üçün,
Qışın qollarına sürünər payız.

Suyunu paylayan obaya, elə
Yalın yamacların bulağı göynər.
Yalın dərələrin, yalın çöllərin
Bir əlçim qar üçün qucağı göynər.

Qar görər, qar qucar, dünyadan doyub,
Beləcə qarıyıb, bükülər payız.
Qışı təbiətə keşikçi qoyub,
Torpağın altına çəkilər payız.

## BU YAZ KƏNDİMİZƏ QAYIDACAĞAM

Təbiət əl atıb yaz fırçasına,
Tələsir torpağı naxışlamağa.
Yalın yamacına, boz qayasına
Bənövşə nübarı bağışlamağa.
Durnalar qayıdır öz yuvasına,
Gəlir ilk baharı alqışlamağa.
Uçunan qəlbimi eşq havasına
Əvvəli-axırı bağışlamağa–
Gözüm tutan evin astanasına
Bir elçi cığırı bağışlamağa–
Bu yaz kəndimizə qayıdacağam.
Zirvədə sıxlaşan ulduzlarının

Gözəllik tökülür zər dalğasından.
Çeşmədə yuyunan yarpızlarının,
Xoş ətir yayılır hər dalğasından.
Axşam tərəfləri doqqazlarının,
Şənliyi çoxalır saz havasından.
Şəkər qızlarının, qənd qızlarının
Qurtara bilmirəm dil davasından.
Ayrıla bilmirəm kənd qızlarının
Üzünə tökülən tel davasından–
Bu yaz kəndimizə qayıdacağam.

Yoluma çıxacaq oğul-uşağı
Gəlişim tay-tuşa bəllənəcəkdir.
Yerimiz olacaq bir çay qırağı,
Yenə xatirələr dillənəcəkdir.
Günəş suvayacaq Qızılı dağı,
Sürülər örüşə sellənəcəkdir.
Nənəm bəzəyəcək Novruz tabağı,
Qolları boynumda yellənəcəkdir.
Böyrümə təllənən qonaq yastığı
Yastı təpə kimi güllənəcəkdir,–
Bu yaz kəndimizə qayıdacağam.

Lap heydən düşsə də heyva ağacı,
Həvəsdən çiçəyi çırtlayar indi.
Bilsə, qızıl gülün dodağı qaçıb,
Sevincdən bülbülüm ağlayar indi.
Özünü güllüyə vuran turacın
Bağrı oxumaqdan partlayar indi.
Dəcəl uşaq kimi yaxasıaçıq
Ürəyim yüz yerdən adlayar indi.
Hər cığırın başı bir doğma ocaq,
Məni doğmasıtək saxlayar indi,–
Bu yaz kəndimizə qayıdacağam.

## QIZLAR BULAĞI

Qaya pilləkəndən enib gəlirəm
yanında qalmağa, Qızlar bulağı.
Bir həzin nəğməyə dönüb gəlirəm,
mən sənin olmağa, Qızlar bulağı.

Yüz ildir, min ildir saçın qurumur,
Yaşıl səltənətin, tacın qurumur.
Buludlar quruyur, damcın qurumur,
düşmüşəm marağa, Qızlar bulağı.

Payız da yaşılsan, qış da yaşılsan,
Sən mamır qanadlı tovuz quşusan,
Sevən ürəklərə elçi daşısan–
xəyala dalmağa, Qızlar bulağı.

Yəqin həsrət idin səsə, şənliyə
Bir az darıxmışdın, düşüb təkliyə.
Gəlmişəm, telinə sığal çəkməyə,
Könlünü almağa, Qızlar bulağı.

## QAZAN GÖLÜM, GÖY-GÖLÜM

Keçdim Biləv yolunu,
Ələhidən sovuşdum.
Odasını yolçudan,
Yolağadan soruşdum.
Sıyrılıb çən-dumandan,
Vüsalına qovuşdum.
Gördüm on beş gecəlik
Gözəllikdə Ay gölü,
Qazan gölü, Göy gölü.

Kürəyindən Gün doğub,
Coşub halı dağların.
Gördüm, düşüb sulara
Gül camalı dağların.
Titrəyir rəqqasətək
Başı, beli dağların.
Güzgülənən, güllənən
Sandım bir humay gölü,
Qazan gölü, Göy gölü.

Sallar altından gələn
Səsdən doğub, tökülüb,
Böyründə qar suvağın
Görən yoxdu sökülüb.
Qızıl balıqlarının
Pullarına bükülüb...
Bir gözəllik pərisi,
Tanrı payı say gölü,
Qazan gölü, Göy gölü.

Aran məhəbbətiylə
Salıbdı meyli çaya.
Saqqarsuyu həvəslə
Tökülüb Əyri çaya.
Şırran, Gilan səs verib,
Çevrilib Ulu çaya.
Çəkib düz aparıblar
Xan Araza bəy gölü,
Qazan gölü, Göy gölü.

Ehey, Xan Qazan, dedim
Ulus, el gülümsədi.
Şimşək doğrayıb tökən
Bulud lal gülümsədi.

Bəyaz bətnindən düşən,
Bir cüt göl gülümsədi.
Çəkib saldı döşünə
Dağlar ekiztay gölü,–
Qazan gölü, Göy gölü.

Nuhdan qalan Qapıcıq,
zirvələrin qafası.
Ayna göllər sarayı,
Gəmiqaya qapısı.
Döşənib dörd yanına
Dörd fəsildən xalısı.
Buz kimi saxlayıbdır,
Qucağında yay gölü,
Qazan gölü, Göy gölü.

Gül-çiçəyi şəfadı,
Dibi-dibçəyi külçə.
Qazlıq dağı kitabə,
Ləpələri düşüncə.
Ordubadın əlində
Gümüş camdı bütüncə.
Təbiət özü verib
Yurdumuza pay gölü,
Qazan gölü, Göy gölü.

## LÖVHƏLƏR

Dərin dərələrin dərinliyində
Sükut dərə-dərə səpələnibdir.
Çiçəklər baharın sərinliyində
Yamacın əlində ləpələnibdir.

Təbiət bu yeri gəzib ayrıca
Nə qədər gözəllik bağışlayıbdır.
Günəş zirvələrdən süzüb ayrıca
Dağları yarıdan naxışlayıbdır.

Zümrüd şəlalələr, inci bulaqlar
Yerin göz yaşımı, hönkürüb çıxıb.
Dağların dağ boyda dərdimi dağlar
Torpağın köksündən püskürüb çıxıb.

Yaşıl çadrasını salıb başına
Dağlar nənəm olub burda bir an ki!
Təpə-nəvələri alıb başına
Nəsihət eyləyir onlara, sanki...

Sükutlu dərələr bulaq diliylə
Gülüşlü nəğmələr bəstələyirlər.
Yamaclar verməkçün mənə hədiyyə,
Ora bax, gül-çiçək dəstələyirlər.

Yarğanlar üstünə duman-yorğanı
Elə cilvələyib, alıb fikrimi.
Yol biib yeridim keçəm yarğanı
Çəkildim, dumana tez batan kimi.

Dərə otaqların qucağındayam,
Gəzirəm solumu, gah da sağımı.
Gəlin qayaların qabağındayam,
Bu yerlər toy yeri, toy otağımı...

## DƏNİZDƏ

Gecə düşüb düyünə–
Yaxasından çəkərək
Dənizin ətəyinə
Hey atır ulduzları.
Yatmayıb səhərədək
Ləpələr uşaq kimi,
Gümüş oyuncaq kimi
Oynadır ulduzları.

## DAŞAR, GÖZƏLLİKDƏN DAŞAR BU YERLƏR

Yenə dərələrin seyrinə gəldim,
Yenə gözəlliyin sehrinə düşdüm.
Dağların kimsəsiz yerinə gəldim,
Küləyə bələndim, sərinə düşdüm.

Qopar buludların yağış sırğası,
Yuxulu otların sərilər üstə.
İslanar daşların yaşıl xınası,
Dağlar güştü tutar dərələr üstə.
Çalar ildırımlar bahar toyunu
Qızışar dağların yallı oyunu,
Göylərin ərşinə çatıb dayanar-–
Buludlar yellənər cunası kimi.
Dağların sinəsi istidən yanar,
Cığırlar açılar yaxası kimi.
Həsrətli buludlar öpüşər bir az,
Şimşəklər əl çalar, gülüşər bir az...
Ürəyi ovsunda, qəlbi ovsunda,
Gəzib ələnərəm gül yaxasında.
Yorulsam, al-əlvan çiçəkləriylə

Köksündə yerimi salar dərələr.
Daşları uyudan küləkləriylə,
İstəsəm, laylamı çalar dərələr.
Kəməndə salmayıb gözəllik kimi?!
Qəlbimi heyrətlə bəzərəm burda.
Batıb gül-çiçəyə lap dizə kimi,
Gözüm doyanacan gəzərəm burda.
Açılar bənizi göyün, yerin də,
Daşar, gözəllikdən daşar bu yerlər.
Dağların bir tənha, qərib yerində,
Könlümü o ki var oxşar dərələr...

## BU GÜLÜN

Nazı seçilməyir qız ədasından
Bu gülün umusu, diləyi vardı.
Yanır yanaqları yay havasından
Deyəsən dərilmək istəyi vardı.

Bir odlu həvəslə qarşıma çıxıb
Qızara-qızara üzümə baxıb
Qara gözlərinin şimşəyi çaxıb,
Əlimi yandıran ləçəyi vardı.

Kimsəsiz talada təsəllim idi
Məcnunu olmuşdum, o, Leylim idi.
Telinə uzanan öz əlim idi
Əynində alışan ipəyi vardı.

Çağlayan, çağıran, ötən laləni–
Dərmədim qarşımda bitən laləni.
Başına dolanıb o şən lalənin
Özünü öldürən küləyi vardı.

## DAĞLAR

At səyirdim dumanına,
Tərsə düşsün yolum, dağlar.
Yatım kəhər yalmanına,
Hey qarışsın halım, dağlar.

Diləyinə, muradına,
Qayaların qanadına,–
Əl çatmayan buluduna,
Yol ver, çatsın əlim, dağlar.

Çiçək yağsın dolayından,
Hamarından, qolayından.
Yükünü tut gül tayından,
Keyfini çək, kəlim dağlar.

Gəzə-gəzə yaylağını,
Qoy yandırım çırağını.
Dərə-dərə otağını,
Doğma evim bilim, dağlar.

Vurulmuşam bu çağına,
Yüz yol gəlim ayağına.
Dönüm oba uşağına,
Qucağında qalım, dağlar.

## FRAQMENTLƏR

* Həqiqət–riyakar adamın dilində də şüar idi!
* Gücsüz və iradəsiz adamlar qiybət edərlər.
* Bilik–səssiz qələbədir, natiqlik isə - həmin qələbənin əks-sədasıdır.
* Qorxaqlıq–yandırılmış cəsarətin külüdür.
* Oturub xəyal etməklə yox, yalnız yol getməklə mənzil başına çatmaq olar.
* Gələcək nəsilləri çaşdırmamaq üçün bu günün tarixini məsuliyyətlə yaz.
* Qoy, qələmindən çıxan yazıların özü mübariz olsun.
* Hər gün məclis qurub sağlıq deyənlərin badələri tez çatlayar.
* Yaxan qanmazın əlinə keçsə köynəyini çıxar qaç.
* Namuslu adamları böhtanla ləkələmək mənəvi işgəncənin ən dəhşətlisidir.
* İnsanın tərcümeyi halı: bilmədən doğulur, istəmədən ölür.
* Sərxoşun xatirələrindən: dünən axşam yaman vurmuşduq ha.
* Yaxşılıq insana insan tərəfindən bəxş edilən mənəvi mükafatdır.
* Payını misqalla versən, qızıl verdi deyəcəklər, Xəlvərlə versən, sel verdi deyəcəklər.
* Yatıb mürgüləməklə, ancaq yuxu görmək olar.
* Oturub gözləməklə saatları, günləri itirmək olar.

*Təltiflər, təbriklər*



AZƏRBAYCAN RESPUBLİKASI
MEDALININ VƏSİQƏSİ
№ 00996
Azərbaycan Respublikası Prezidentinin
2006-cı il 4 noyabr tarixli
1767 nömrəli Sərəncamı ilə

*Qasımzadə*
*Muxtar*
*Əziz oğlu*
Azərbaycan Respublikasının
"TƏRƏQQİ"
medalı
ilə təltif edilmişdir.
Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEV

**Hörmətli Muxtar müəllim!**

Azərbaycan televiziyası və radiosunun inkişafındakı xidmətlərinizə görə möhtərəm Prezidentimizin Sərəncamı ilə **«Tərəqqi»** medalı ilə təltif edilməniz münasibətilə Sizi səmimi qəlbdən təbrik edirəm.

Əminəm ki, Azərbaycan xalqının ümummilli lideri Ulu Öndərimiz Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin göstərdiyi yüksək qayğı sayəsində Azərbaycan televiziyası və radiosunun zəngin ənənələri bundan sonra da ləyaqətlə davam etdiriləcəkdir.

Bir daha təltif edilməyiniz münasibətilə təbrik edir, Sizə uzun ömür, möhkəm cansağlığı və gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

Bakı Şəhər İcra Hakimiyyətinin
Başçısı, professor H.Abutalıbov

# МУХТАР ГАСЫМЗАДӘ — 50



Һөрмәтли Мухтар Гасымзадә!

Сизи јарымәсрлик јубилејиниз мүнасибәтилә тәбрик едирик.

Сиз 70-чи илләрдә әдәбијјат аләминә дахил олмуш исте'дадлы шаирләримиздәнсиниз. Илк ше'рләриниз "Азәрбајчан", "Улдуз" журналларында, "Әдәбијјат вә инчәсәнәт", "Бакы" гәзетләриндә дәрч едилмиш, орижинал, лирик поетик нүмунәләр кими марагла гаршыланмышдыр. 1985-чи илдә "Јазычы" нәшријјаты тәрәфиндән "Бу һәмин севкидир" ше'рләр китабыныз чапдан чыхмышдыр. "Дуздағын Фәрһадлары", "Фәһлә сәмасы", "Чәбһәдә гадын изи" поемаларыныз мүасирләримизин һәјатындан бәһс едир вә чәмијјәтимизи нараһат едән актуал мөвзулара һәср олунмушдур.

Әмәк фәалијјәтинизин он или Нахчыванда чыхан "Әмәк бајрағы" гәзети илә бағлыдыр.

1989-чу илдән Нахчыван Дөвләт Телерадио Верилишләри Комитәсиндә чалышырсыныз, радионун әдәби-бәдии шө'бәсинин мүдирисиниз.

Һөрмәтли гәләм достумуз, сизи бир даһа јубилејиниз мүнасибәтилә тәбрик едир, узун өмүр, чансағлығы, јарадычылыг уғурлары арзулајырыг.

**АЗӘРБАЈЧАН ЈАЗЫЧЫЛАР БИРЛИЈИ**

*"Ədəbiyyat" qəzeti,*
*27 aprel, 2001.*


MƏQALƏLƏR

***Yurdun ulu daşları***

# GƏMİQAYA

Qədim-qədim, ulu-ulu dünyamızın kədər dolu, sevinc dolu çağı olub. O çağların qatlarında əfsanələr, həqiqətlər pöhrələyib. O çağların yaddaşında boz qayalar bozarıblar. Müdrik, uca babamızın, dünyamızdan qoca babamızın yaddaşına dönər olub bu qayalar. Bu daş kitabələri oxuyan gərək, kəpir-kəpir varağını qaldıran gərək. Min illərdir bu dağların başı üstən küləklərin, şimşəklərin hədələri əsib keçib, qara-qara qayaların ürəyini üzüb keçib...

Yer kürəsi dünyamızın iri ovcunda yerə enib, göyə qalxıb; ayın, günün başına dolana-dolana, talana-talana, varlana-varlana! Üryanları, çılpaq olan adamları cəngəlliklər tora salıb ayağından. İnsan oğlu ehtiyacın inadını qıra-qıra, qara-qara, qızıl-qızıl öküzləri yedəkləyib. Qulağından bura-bura zaman-zaman yer şumlayıb, toxum səpib. Orağıyla qollarını yora-yora zəmi biçib, dərz bağlayıb, ilqarını düz bağlayıb, çörəyini yarı bölüb, süfrəsinin neymətini bir nurani qoca verib, ya ağbirçək qarı bölüb...

Qərinələr varaqlanıb, qan tökülüb, yurd talanıb. Sonra-sonra var-dövlətlər artan olub yavaş-yavaş.Yurdun halal çörəyindən oğrun-oğrun öz evinə dartan olub yavaş-yavaş. Şöhrət üstə, sərvət üstə bir obanın adamları bir-birini atan olub yavaş-yavaş. Etibarlar, sədaqətlər külə dönüb, ürəklərin məhəbbəti əriyib bir telə dönüb. Hiylə çıxıb ortalığa təzə donda. Müqəddəslik itən zaman çox şiddətli yanar olub Günəş onda. Yer kürəsi öz oxundan silkələnib bircə anda. Buz qatları sınıb ərizin. İnsan Tanrı sorağında

yeriyibdir dizin-dizin. Təndirlərin küfləsindən su çağlayıb, on üç fəslin dönərinə qədər yayı-qışı, yanar-yanar sellər daşıb. Yerlər- göylər şimşək-şimşək qamçılarla qarşılaşıb. Yer üzünü sular tutub, dəryaların qucağına batar olub. Nuh babamın bu dünyadan səsi gəlib, nəğməsi gəlib:

***"Dəryada gəmim qaldı,***
***Biçmədim, zəmim qaldı...".***

Zəmiləri su altında dalğalanıb bu dünyanın. Boylu-boylu qayaları günəşə boylanıb bu dünyanın. Yastı-yastı ormanları, təpələri körpə-körpə əl gətirib, böyüyüb zirvə olub. Üzü göy üzünə əyilib.Qibləsi günə olub, Aya olub. Onda-onda tufan olub. Nuh tufanı. Üzüb nəhəng gəmisiylə ulu babam, yelkəni Ağrı dağında ağarıb. Gövdəsi Gəmçi dağına dəyib. Üzüb yenə gəmisilə dönə-dönə. Göy qübbəsinə yaxın yerdə dövrə vurub, Aya üz tutub, Günə üz tutub. Sular təngiyən olub, tufan səngiyən olub. Bir dağ boy verib sulardan. Bu dağa gəmi enib. Göylərin qapısı Qafacıqda, Oğuzların çırası Qapıcıqda indinin indisində o çağda olduğu kimi bir qaya qucağı durur bir gəmi lövbəritək, Gəmi orada lövbər salıb, Qapıcıq dağı Gəmiqaya olub. Gəmiqayadan üz aşağı göz çatana qədər, dünyamızın bu üzünün çuxurunda hörüklənən Araza qədər Nuh çıxan olub...

Dünyanın paralelində, qərinələrin dərin qatlarında, təzə eraların dünyaya gəlişində Naxçıvan ilk həyat örnəyi, insan məskənlərindən biri olub. Gün-gün, ay-ay yer üzündə, yer üzünün göy üzünə yaxın yerində, qoca dağın belində dağılmış gəminin göyərtəsində bir məşəl yanıb. Nuh babamızın andı göyərib. Ovlar baxıb ovlağına seviniblər. Dünyaya təzə körpələr gəlib,

analar uşağına sevinibləR. Başlarının üstündə gün çırağına seviniblər. Gəmiqaya əkin yeri, biçin yeri, təzə dünyanın təzə yurd yeri olub. Ləpələr çəkildikcə, təpələr görünüb. Sular yatağına üz qoyub. Nuh babamın səfərdaşları, igid-igid övladları, gözəl-gözəl xatınları bu dağlarda iz qoyublar. Yeni dünyaya Gəmiqaya pəncərə olub...

Cığırların ovsarından tuta-tuta, ulu-ulu keçmişlərin ovxarlanan damarından tuta-tuta gəlib çıxdıq bu dağlara. Gilançayın vadisindən Gəmiqaya lövbərinə qalxıb gəlmək o qədər də asan deyil. Gilançayın bu yerlər haqqında danışdığı əfsanə sənə nə qədər şirin, nə qədər təzə gəlsə də, dibsiz dərələrin qorxulu görkəmindən bir o qədər ehtiyat etməli olursan. Qarşıda qıvrılan dar cığırlar qədim Ordubadın Qaranquc adlanan yaylağına qalxır. Elə hər şey də buradan başlayır. Neçə-neçə yurd yerlərindən, məxmər donlu yoxuşlardan, qılınclı-qalxanlı orduya oxşayan qayalıqlardan keçməli olursan. “Palantökən”, “Nəbi yurdu”, “Dava daşı”...

Yayın axır ayı olmasına baxmayaraq təbiət burada hələ də yaşıl çağını itirməyib. Dağ çiçəyinin, qantəpərin, kəklikotunun, boğça çiçəyinin, keçisaqqalının, nanənin xoş ətri ruhu oxşayır, sanki bütün bu gözəlliklərə minnətdarlıq kimi qarşına çıxan hər bulağın gözündə diz çökməli olursan.

Günəş sıldırım qayaların üstündən yollara sallanır. Buludlardan süzülən qızılı şəfəqlər bu yerlərin təbiətini daha da cilvəli edir. Ayıboğanın, Göydağın, Çadırdaşın, Şahbulağın, Tilləyin üfüq boyu çətirlənən ardıc ağacları müğənni quşların sanki yaşıl auditoriyasıdır. Çəhlimlər dağları udur, dərəli-təpəli qayalıqların yaxasın-

dan açılan cığırlar səni ucalığa aparır. Nəhayət, arzuna, muradına çatırsan...

Bura Gəmiqayadır! Kiçik Qafqaz sıra dağlarının ən hündür, ən səfalı yerlərindən biri. Qapıcıq zirvəsi, heykəllər büsatı, əfsanələr beşiyi Gəmiqaya! Dəniz səviyyəsindən mavi göylərə bu həndəvərdən 4 min metrə qədər boy atan yazılı abidələr beşiyi Gəmiqaya!

Gəmiqayanın şaxələnən qayalıqları dərin dərələrə kölgə salır. Bu qarlı dünyada qol-budaq atan qayalıqları silkələsən qədim dünyanın günümüzə yadigar nişanələri ilə, daşlaşan, heykəlləşən, cizgiləşən igidlərlə əl-ələ tuta bilərsən. Hamıya məlumdur ki, Nuh tufanı dünya elmi tərəfindən təsdiq olunmuş tarixi hadisədir. Və onun mərkəzlərindən biri də elə Nuh çıxan-Naxçıvandır. Buradakı qara daşların üzərindəki rəsmlər qədim sənətkarların yadigarıdır deyilmi? Vulkan püskürməsindən ətrafa səpələnən, qurşağa qədər torpağa quylanan saysız-hesabsız qara daşlarda yüzlərlə, minlərlə nəsli kəsilmiş quşların, qədim dağ heyvanlarının rəsimləri var. Hələ şana şəkilli marallar, gəmi rəsmləri, mürəkkəb ilməli xəritələr... Qədim Qobustanın böyük qardaşı sanki dünyaya car çəkib deyir: "Mən dünyanın sənət incisiyəm. Dünya mədəniyyətinin ilkin xəzinəsi məndədir. Gəmiqaya Qaranquc adlanan sinəsini daha geniş açaraq sanki özünü bütün dünyaya göstərmək istəyir. Onun geniş sinəsində saysız-hesabsız mədəniyyət abidələri isə mis rənginə çala-çala az qala hər biri bir ulduza çevrilib. Bu günün özündə, gözümüzün qabağında bərq vurur.

...Bərə daşda ürkək baxışlı bir sürü ov şəklini gör, bəri daşada yay çəkib ox atan ovçuya üz tutub sanki yalvarır:

***"Aman ovçu, vurma məni,***
***Mən bu dağın maralıyam..."***

Yer üzünün üfüqlərin dodağına üz qoyduğu yerdə bu boyda məzar daşı burada böyük həyatın hökm sürdüyündən xəbər vermirmi? Məcburiyyət qarşısında, yəni dünyanın bir bölgəsini su alan çağda insan yaşamaq naminə özünə yollar arayıb Tanrıya üz tutub. Əlbəttə ki, Nuhun gəmisində. O Nuhun ki, bayatıda ellər ona göz yaşı axıdıb:

***Adını ozan ağlar,***
***Dərdini yazan ağlar.***
***Burda Nuhum ölübdü,***
***Qəbrini qazan ağlar...***

Laməkin oğlu Nuh tarixi şəxsiyyətidir. Ona dini əfsanələrdə müdrikliyinə görə peyğəmbər deyiblər. Ən böyük, ən elmli münəccim olub. 7 min il bundan irəli əvvəlcədən soyuq qütbün buz dağlarının əriməyindən xəbər tutub və nəhəng bir adamın köməyi ilə nəhəng bir gəmi düzəltdirib. Qədim məxəzlərə görə gəminin uzunluğu 150, eni 60, hündürlüyü 30 dirsək olub. Gəmi 40 gün, 40 gecə güclü yağışların yağmurunda üzə-üzə yüksəkliyə qalxıb. Nuh gəmiyə hər heyvandan bir cüt götürüb, quşları da yaddan çıxarmayıb. Qədim yazıya görə gəmisində 76 nəfər olub, Ona inananlar nicat tapıb, yeni həyata qovuşub. Nəhayət, Nuh öz gəmisi ilə suların qanadında şahə qalxa-qalxa dünyanın bir neçə hündür qayalarına yan alıb. Suların səngiyən çağında üzü bəri olub, qədim Qaf dağlarının həndəvərinə sarı. Qapıcıq zirvəsində tarixiləşib onun gəmisi. Öz sakinlərini bu yerə boşaldıb. Su ayaqlarından tutana qədər taxta gəmidə üzüb-üzüb bu dağa – Gəmiqayaya

pənah gətiriblər. Əkinçisi əkin əkib, biçincisi biçin biçib. Bayatı deyəni, ağı deyəni, oxuyanı olub. Ürəyinin istəyini, hərarətini, həyəcanını daşlara köçürəni, toxuyanı olub. Qədim sənətkar öz tişəsi ilə ulu dünyanın ulu məişətini bu daşlara həkk edib. Saysız-hesabsız daşların nağılı bitib tükənməzdir. Bəlkə də Dədə Qorqud keçib buradan. Bamsı Beyrək at oynadıb. Qapıcıq dağından- Qazlıq qabarından çiçək dərib Günel, Tural... Qazan xandan Qazan gölüm qalıb,Göy gölüm göylənib...

Gəmiqaya min illərin yaddaşıtək təbiətin amanından qorunubdur. Düşmən əli, yad əli pozammayıb ilməsini, naxışını, ulu babamın ulu baxışını. Gəmiqaya bir ucu həqiqət olan əfsanələr yatağıdır. Bu əfsanələrin bətnində, açıq səma altında bir muzey həqiqəti bu günümüzə gəlib çatıb. Deməк hər əfsanənin həqiqət adlı öz dünyası var. O dünyanın ilk nəhəng qaranquşlarından biri də elə Gəmiqayadır. Öz tədqiqatçısını, dilbilənini, yazı yozanını soraqlayan Gəmiqaya! Ulu xalqımızın, qədim Odlar yurdumuzun incisi, mədaniyyət danı. Günəşlə qoşalaşan, ürəyimizin işığında durulaşan Gəmiqaya!

**Muxtar QASIMZADƏ,**
***Ordubad rayonu, Qaranquc yaylağı.***
***"Sovet Naxçıvanı"qəzeti,***
***22 avqust 1985.***

## “TƏBRİZ OXUYURDU DAĞLAR BAŞINDA...”

Bu ilin mart ayı yaddaşımızda tarixi hadisəyə çevrildi... Martın 21-də Novruzun ilk günündə bayram görüşləri sərhəd tanımadı. Azərbaycanın Araz yanğısı qismən yoxa sıxdı. Culfa körpüsünün üstundə o taylı, bu taylı doğmalar bir-birilərinin bayramını təbrik edib, Cənubdan Şimala, Şimaldan Cənuba yollandılar. Adamlar hər iki tərəfdə üç gün bayram görüşlərində içtirak etdilər. Yolumuz Ələmdardan, Şücadan, Mərənddən, Xoydan, Makudan, Urmiyədən, Təbrizdən keçdi. Cənublu qardaşlarımız isə illərlə həsrətini çəkdikləri Naxçıvanı, Lənkəranı, Astaranı, Cəlilabadı, Yardımlını, Ordubadı, Şəruru, Şahbuzu, neçə-neçə şəhər və kəndlərimizi gəzdilər...

Naxçıvan Culfasından Araz üstündəki körpünü yarı elədik. Körpünün o biri başında gül tağı kimi sallanan qövsvari qapı İran Culfasının üzümüzə açılmış qapıları idi. Bizi gül-çiçəklə, bayram şirniyyatları və şərbətlərlə qarşıladılar. Kömrükxananın radio qovşağından mərhum Şəhriyarın yadigar səsini eşidirik. Həmin gün Seyid Məhəmməd Hüseyn Şəhriyarın titrək səsi hər iki sahilə odlu şeirlər çiləyirdi. Bizi İran Culfasındakı məscidə dəvət etdilər. Insanlari birləşdirən din mərkəzi aramsız dolub boşalırdı. Burada Şimaldan gələn musafirlərə xeyriyyə naharı verilirdi, Cənubi Azərbaycanın adamları xüsusi səmimiyyət göstərərək müsafirləri evlərinə dəvət edir, onları qonaq aparmağa can atırdılar. Qohumları tapılanlar

evlərə paylanır, qalanlarını isə başqaları dərhal özləriylə qonaq aparırdılar.

Naxçıvan televiziyasının əməkdaşı, "Ayrılıq" verilişinin müəllifi, iş yoldaşım Hüseyn Əsgərovla məni Əhməd Dünyadust adlı bir qardaşımız özünə qonaq götürdü. Onlar Mərənd şəhərində yaşayırdılar. Culfadan Mərəndə bir saatlıq yoldur. Yol boyu Əhməd ağanın oğlu Nasir bildirdi ki, bu gün Pərvərdin ayının biridir. Yazın ilk günüdür. Dünyada bundan gözəl gün yoxdur.Sizinlə görüşümüz Allah buyruğu, Allah qismətidir ki, belə bir gündə oldu. Hələ indiyə qədər mənim yadıma gəlmir ki, Novruzun ilk günü hava qaş-qabaqlı olsun, qəfil boran düşsün, qar yağsın. Həmişə görüş günü günəşli olub. Necə ki, bu gün günəşlidir.

Şirin söhbət başımızı elə qatır ki, Ələmdara necə çatdığımızı hiss etmirik. Hələ yolda ağayi Əhməd bizə bildirmişdi ki, Ələmdarda qohumlardan birinin evinə bayram görüşünə onlarla birlikdə gedəcəyik. Qonaq düşdüyümüz evdə də bizi mehribanlıqla qarşıladılar. Mavi ekranda Bakı televiziyasının diktoru Aygül Qaradağlının səmimi çöhrəsi ilə qarşılaşdıq. Ələmdarlılar veriliş müddətində istədikləri vaxt Bakı və Naxçıvan televiziyasına baxa bilirlər. Onlar bizim ictimai-siyasi hadisələrə, ağrı-acılarımıza, gündəlik qayğılarımıza və azadlıq mübarizəmizə yaxşı bələddirlər.

Söhbətimiz rəvan gedirdi. Ələmdar şəhərində öz qohumlarını soraqlayanlar başımıza toplaşmışdılar. Biz onların bir qisminə cavab verə bildik, bir qismini isə naümid qoymamaq

üçün ünvanlarını götürdük. Bir saatın ərzində demək olar ki, Ələmdarda “soraq-axtarış” məntəqəsi yaratdıq.

. . .

Yolumuz Mərənddədir. Yenə sükan arxasında olan Nasirdən yol boyu keçdiyimiz, gördüyümüz dağların adını, ünvanını soruşur, dəftərçəmə qeyd edirdim. Hər dağın öz adı, öz ünvanı var. Sanki, dağlar da, düzənlər də bu dünyaya əkiz gəliblər. Keçi qalası, Uluyan təpə orada da var, burada da. Kəngərli kövşəni də eləcə...

Mərəndin girəcəyində Şəhidlər qəbirstanlığını ziyarət etdik.Qəlbimizdən göynərtisi heç vaxt getməyən Bakı şəhidləri yadımıza düşdü. Dərd dərdə qarışıdı. İki qardaşın taleyinə yazılan yazı ürəyimizi təzədən göynətdi.

Mərənd şəhərinin 70 min nəfərdən çox əhalisi vardır. Saysız-hesabsız məscidi, hamamı və dükanları olan bu şəhərdə həyat bütün günü qaynayır. Şərq şəhərinin özünəməxsus ecazkar gözəlliyini və füsunkarlığını gözlərimizlə gördük. İmamzada dağına qalxdıq. Dağın belindən Mərəndin hər yeri göründü. Çilçıraq içində alışan bu şəhərin böyüklüyü ulduzların altında daha cazibədarlıqla hiss olunurdu. Gecəni Əhməd ağanın evində keçirdik. Buraya toplaşan qohum-qardaş, qonşular bizə hədsiz mehribanlıq göstərirdilər. Həmin gecə neçə-neçə mərəndlinin. xoylunun, makulunun, ələmdarlının evində bizim kimi onlarla əziz qonaq var idi.

Səhərisi gün Əhməd ağanın bütün oğ-

lanlarına, ailəsinə minnətdarlıq edib Təbrizə gedəcəyimizi bildirdik.

...Təbrizə gedən avtobusun pəncərəsindən uzaqlara boylanır, Təbriz dünyasını nəzərimizdə canlandırır və üzünü görmədiyimiz xəyali bir şəhərin görüşünə çırpınırdıq. Başı üfüqdə itən dağların qarlı görkəmi Novruz günəşinin şəfəqləri altında tağlı aynanı xatırladırdı. Bir güzgü saflığı var idi bu dağlarda. Asfalt yollar dağların geniş dərələrinə sarılaraq bizi irəli aparırdı. İran İslam Respublikasının ucqar yolları da beləcə hamar və rahat idi. Sürücünün dediyinə görə burada yollara yaxşı baxırlar.

Mərənddən Təbrizə 60-70 dəqiqəlik yoldur. Əlbəttə, yolboyu sərnişinlərlə də tanış olduq, söhbət etdik, qardaşlarımızla ikiqat qardaşlaşdıq. Təbrizin ətəyindən Acı çay deyilən bir çay axır. Bu çayın üstündən keçəndə bizə dedilər:–qismətiniz şirin olsun, bütün acılar, ağrılar bu çaya axıb getsin. Elə buradaca Məmməd Araz yada düşdü. "Oxuyan Təbriz " adlı şeir yada düşdü. Təbriz məhəbbəti ilə alışıb yanan istəkli şairimiz bu şeiri 1969-cu ildə Dəli dağda Aşıq Hüseyn Cavana üz tutub yazmışdı:

***Fəryadından "qoyun-quzu" duruxdu.***
***Ağlayan su, çağlayan su duruxdu.***
***Qara yelin sel umusu duruxdu,***
***Dərələr səngidi yaz yağışında,***
***Təbriz ağlayırdı dağlar başında...***

Biz də sevincimizdən ağlayırdıq. Məmməd Arazın misralarını qəlbimizdə təkrarlaya-təkrarlaya Təbrizin lap astanasından dəli bir is-

təklə bu şəhəri su kimi içmək, məhəbbətlə bağrımıza basmaq isdəyirdik. Sanki min ildir yol gəlirdik Təbrizə. Min ilin başına çatmışdıq. Hədsiz sevincin, həyəcanın ovqatı sən demə daha betər olurmuş. Keyimişdik, duruxmuşduq. Qəlbimiz isə,sükutun içində Böyük Vətən eşqi ilə hayqırırdı, Yox, Təbriz ağlamırdı. Sevimli şairimizin dediyi kimi Təbriz həm də oxuyurdu:

***Gərək dil susanda əllər danışa,***
***Əllər bağlananda dillər danışa.***
***Elə danışalar—ellər danışa...***
***Dəli gülüşlərim ağlar başımda,***
***Təbriz oxuyurdu dağlar başında...***

Qərib küçələr bizi qoynuna aldı, Şəhərin simasından saflıq, təmizlik yağırdı. Adamların səmimiyyətindən, mehribanlığından heyrətlənmişdik. Dükanlar, bazarlar, muzeylər, kitabxanalar necə də zəngindir. Təbriz bazarının isə ucu-bucağı yoxdur. Məhəmməd adlı bir dükandar dedi ki, bu bazarda 5 minə qədər müxtəlif dükan vardır.

Təbrizdə Ərk qalası öz əzəməti ilə həm adamı heyrətləndirir, həm də qədim şərq şəhərinə bir məğrurluq gətirir. Saysız-hesabsız məscidlərin minarələri günəş şəfəqlərinin altında ətrafa işıq paylayır. Məscidlərdə ucalan azan səsləri və minarələrin şəffaf nüfuzu adamları saflığa, duruluğa, birliyə səsləyir. Buradakı insanların şirin dili bəlkə də bütün dünyaya nümunə ola bilər.

Güney Azərbaycanında yaşayan qardaş-bacılarımız təbii olaraq özlərini Azərbay-

can türkü, ana dilimizi isə türk dili adlandırırlar. Onlar qeyd edirlər ki, bu gün İranın bütün şəhərlərində azərilər böyük nüfuz sahibidirlər. İran əhalisinin az qala yarıdan çoxunu Azərbaycan türkləri təşkil edir. Dövlət işlərində onların xüsusi səriştəsi və mövqeləri vardır.

Ümumiyyətlə, Təbriz şəhəri İranın ictimai-siyasi həyatında mühüm əhəmiyyəti olan bir şəhərdir. İran İslam Respublikasının keçdiyi inqilab və müharibə yolu onun iqtisadiyyatını xeyli geri salıb. Müharibədən çıxmış bir ölkənin həyatını yataqdan qalxan xəstəyə bənzətmək olar. Şükürlər olsun ki, indi bu "xəstə" özünü gümrah hiss etməkdədir. İranın sabahı daha sağlam və daha varlı olacaqdır. Elə bu gün qeyd edilir ki, respublika öz iqtisadiyyatını sürətlə möhkəmləndirir. Azad bazar iranlılara imkan verir ki, güzəranlarını daha da yaxşılaşdırsın və dövləti möhkəmləndirsinlər. Qonşu ölkələrlə bağlanan iqtisadi müqavilələr, sərbəst bazar əlaqələri gündən-günə artır. Belə xeyirxah, əməli addımlar İranla bizim aramızda da artıq genişlənməkdə, müsbət dəyişikliklər əmələ gətirməkdədir.

. . .

Surxab qəbiristanlığı qəlbimizdə silinməz izlər buraxdı. Bu qəbiristanlıqda Təbriz şəhərində yaşamış alim və şairlər dəfn olunmuşlar. Təbrizə gələn hər bir qonaq mütləq oranı ziyarət edir. Dünya şöhrəti qazanmış Seyid Məhəmməd Hüseyn Şəhriyarın məzarı da bu qəbiristanlıqdadır. İndi qəbiristanlıq başqa bir görkəm alıb. Buranı nəhəng türbəyə çeviriblər. Türbənin sərdabəsində Xətib Təbrizi,

Xaqani Şirvani, Homman Təbrizi və neçə-neçə nüfuzlu şəxslərin məzarı uyuyur. Min ildən artıq yaşı olan bu məzarıstanlıqdan bir gün də olsun insan ayağı kəsilmir. Ustad Şəhriyarın məzarı ulu şairlərin əhatəsindədir. Şəhriyarın məzarı üstündə şeirlərindən parçalar, tərcüme-yi-halı mərmər lövhələrdə parlaq şüşələr altında gələnlərin diqqətini cəlb edir. Şəhriyarın məzarını ziyarət etdikdən sonra sanki mənəvi borcumuzun böyük bir hissəsini yerinə yetirmiş olduğumuzu duyduq.

Axşam üstü daha bir tale yazısı üzümüzə güldü. Mərkəzi xiyabandan aramla keçən bəzəkli bir maşın diqqətimizi cəlb etdi. Gəlin köçürürdülər. Musiqi sədaları eşidilməsə də hamının qəlbində bir nəğmə çağlayırdı. Çoxdan yazdığım "Təbriz toyları" adlı şeirimi dilə gətirdim:

***Boyunu görməyə ürəyim əsər,***
***Toyunu görməyə ürəyim əsər,***
***Toyuna gəlməyə ürəyim əsər,***
***Təbriz toylarını görməmişəm heç...***

...Təbriz toylarını görmək də qismət oldu. Toya da dəvət olunduq. Belə bir xoşbəxtliyin şahidi kimi qəlbim iftixar hissi ilə döyünürdü.

. . .

Təbriz bizi qoynuna almışdı. Nəinki Təbriz, Azərbaycanın güneyindəki neçə-neçə şəhər quzeyindən gələn qardaşlarını bağrına basıb sevincindən ağlayırdı o gün.

Bu sevinc yaşları uzun illərin həsrətini gilə-gilə əridib yoxa çıxarırdı. Hər iki sahilin

doğmaları daha Araz boyunca bir-birlərinə həsrətlə boylanmayacaq. Daha Araz dərdi əvvəlki kimi ağır olmayacaq. Ağrılarımız, acılarımız getdikcə yoxa çıxacaqdır. Təbriz, Naxçıvan, Bakı, Mərənd güneyli, quzeyli bütün Azərbaycan vüsal nəğməsi oxuyurdu o gün. Tarixi bir vüsal nəğməsi. Bayram görüşünə qovuşmuşdu Vətən. Novruz havasına, azadlıq eşqinə açılmışdı Arazın yaxası o gün.

Gözün aydın olsun, Vətən!

**Muxtar QASIMZADƏ,**
***Culfa-Təbriz-Naxçıvan.***
***"Şərq qapısı" qəzeti.***
***25 aprel 1990-cı il.***





# Peyğəmbər kölgəsi

Şairliyin qurduğu sirli-sehrli pərdə,
Şübhəsiz, peyğəmbərlik kölgəsidir hər yerdə.
Ərənlər, ulu kəslər səf çəkərək düzəlib,
Qabaqca peyğəmbərlər, sonra şairlər gəlib...

Dahi Azərbaycan şairi Nizami Gəncəvi fövqəltəbii nəzmlə dünya ədəbiyyatı xəzinəsinə solmaz incilər bəxş etmişdir. Beləliklə, dərin düşüncəsi, müdrik kəlamları ilə söz mülkünü ziynətləndirən Şeyx Nizami bəşər mədəniyyətinə görkəmli şəxsiyyət kimi daxil olmuşdur.

Nizamiyə görə söz bütün hikmətlərin açarıdır. Ağıl çeşməsinin gözünü açan sözdür. Söz zəkanın bələdçisidir:

Sözün qanadları var,
Quş kimi incə-incə.
Dünyada söz olmasa
Nəyə gərək düşüncə.
Söz bayraqdan daha çox
Əldə eyləyər zəfər.
Qılıncdan daha artıq
Qalxıb alar ölkələr.

Söz ən böyük "sərkərdədir". Həqi-qətin keşiyində dayanan söz bütün dünyanı öz hikməti ilə fəth eyləyə bilər. Qılıncla, zorla, qoşunla ala bilmədiyin ölkələri sözlə fəth eyləmək olar.

Nizamiyə görə söz elə qüdrətdir ki, onsuz çərxifələyin üzünə hətta günəş də doğmaz. Söz dünyanın mülayimliyi, iqlimi, tərzi-hərəkətidir.

Sordu: Köhnə qızılmı?
Təzə sözmü yaxşıdır?
Söz sərrafı söylədi:
Söz dünyanın naxşıdır.

Nizami poeziyası insanları həyata bağlayır. Onun söz fəlsəfəsində bəşəriyyətin qəlbini inam və duyğularla zənginləşdirən meyarlar xüsusilə güclüdür. Nizami sözün qədrini bilməyi, onu zərgər dəqiqliyi ilə işlətməyi tövsiyyə edir. Sözə rəng qatmaq, onun donunu dəyişmək, ucuzlaşdırmaq, gözdən salmaq insafsızlıqdır. Dahi şair "Sirlər xəzinəsi" əsərində bu məsələlərə xüsusilə geniş diqqət yetirmişdir; Sözün nəzəri məsələləri həmin poemada öz fəlsəfi konsepsiyasını ardıcıllıqla tapır:

Şeir ki, bu dünyada
Bərabərdir ürəyə.
Satılarmı heç onun
Dəyəri bir çörəyə?!

Sözün balsa, gəl onu
Ucuz satmaqdan əl çək.
Qoyma ki, söz balına
Qonsun gəzərti milçək.

Nizami Gəncəvi insan mədəniyyətini həm də söz rəftarında axtarır. İnsanlar yarandığı gündən öz mənəvi ehtiyaclarını sözə güvənc etmişlər. Söz müqəddəsdir. Söz həqiqəti deməkdən ötrü yaranmışdır.

Sən sözdə doğruluğa
Əməl eyləsən əlbət,
Verər hər bir sözünə
O böyük tanrı nüsrət.

Böyük Nizami sözün qədrini bilməyi, ondan qənaətlə istifadə etməyi dönə-dönə tövsiyyə edir.

Az danışsan əgər sözün sayılar,
Çox sözü dinləyən çox nöqsan tutar.
Səninçün çox demək bəlkə asandır,
Çox oldu desələr, böyük nöqsandır.

Ulu şair həyatın mənasını, şirinliyini söz ünsiyyətində görür. Bu dünya sonsuz, lal-kar, qorxulu bir boşluğa bənzər. Dünyanın və insan qəlbinin təsəllisi-dünəni, bu günü, nəyi varsa-söz üstündə köklənib.

Sözdür həm təzə şey, həm də köhnə şey,
Sözdən bəhs edilir zaman-zaman hey.
Varlığın anası doğmamış inan,
Sözdən gözəl övlad , şahiddir cahan.
Ruh kimi təmiz söz oldu gövhəri,
Hatif xəznəsinin əzəldən bəri.
İnsanın qalacaq sözü yadigar,
Yeldir yerdə qalan, başqa hər nə var.

Nizami Gəncəvi insanları qəlbən mehriban, bir-birinə həmsöhbət, həmdərd görmək istəyir. Şairə görə yaxşılığı dəyən acıdildənsə, bəlkə də köməyi dəyməyən şirindil yaxşıdır.

Dahi Nizami Gəncəvinin söz-sənət fəlsəfəsi öz oxucularını real həyata bağlamaqla yanaşı onları daim söz səmimiliyinə, haqqın, həqiqətin müdafiəçisi olmağa çağırır.

***

**B**ədii ədəbiyyat aləmində elə bir sənətkar tapılmaz ki, onun yaradıcılığında məhəbbət motivləri olmasın. O məhəbbət ötəri həvəs deyil, insan qəlbini riqqətə gətirən, onu kamilləşdirən pak və müqəddəs bir duyğudur. Bütün yaradıcılığı boyu sevgiyə, ilahi məhəbbətə söykənən belə möhtəşəm

sənətkarlarımızdan biri də elə İlyas Yusif oğlu Nizamidir. Hələ gənclik illərindən öz qəzəlləri ilə məşhurlaşan İlyas sonralar ən kamil əsərlərində də Məhəbbətlə ucalmışdır.

Dahi Nizami öz poetik fəlsəfəsində dünyanın gözünü işıqlandıran məhəbbəti kainatın nüvəsi hesab edir. Nizami deyir:

Eşqidir mehrabı uca göylərin
Eşqisiz ey dünya nədir dəyərin.
Eşqin qulu ol ki, doğru yol budur,
Ariflər yanında bil, eşq uludur.
Eşqisiz olsaydı xilqətin canı,
Dirilik sarmazdı bütün cahanı .
Eşqisiz bir adam bir neydir qırıq,
Yüz canı olsa da ölüdür artıq...

Nizami Gəncəvi dünyanın tərzi-hərəkətini, ayın, günəşin şövqlə parlamasını məhəbbətdə görür.

Əgər olmasaydı eşqin danəsi,
Gəlməzdi dünyadan dirilik səsi.

Şairə görə asudə insan yoxdur. Onun azad fəlsəfəsi var. O, dünyanı dəyişir, çünki yolu məhəbbətdən keçir. O məhəbbətdən ki, ürəkdə yoğrulub, o duyğudan ki, yaradandan gəlir. Alın yazısı hesab edilən sevgi neçə-neçə aşiqi o müqəddəs dərgaha- “göylərin mehrabı” eşqə ömürlük bağlayıb. Bu ömürlük “dusdaqlıqda” bir əbədi azadlıq var.

Həqiqi aşiq sevgi əzabından zövq alır, yaşayır, təzələnir, durulur. Ürək insan bədəninin, onun can mülkünün sultanıdır. Ancaq bununla belə, o “sultanın” da sultanı var ki, onun uca taxtında eşq hökmranlıq edir.

Qərb kainatın əsrarəngiz otaqlarını ilk dəfə Nizami poeziyasında görmüş, Cazibə qa-

nununu Nizami nəzmindən öyrənmişdir:

Baxma ki, bu ürək can sultanıdır,
Eşqə könül ver ki, canlar canıdır.
Maqnit olmasaydı eşqin əsiri,
Özünə çəkməzdi dəmir zənciri.
Kəhrəbanın eşqə düşməsə canı,
Axtarmazdı belə quru samanı.
İdrakı dinləsək söyləyər o da,
Hər şey eşq üstündə durur dünyada.

Məhəbbətin əzəli fəlsəfəsində hicranla vüsal (ayrılıqla, görüş) motivləri başlıca əlamətlərdəndir. Bu fəlsəfənin özündə, onun konsepsiyasında kamil aşiq yetişir. O aşiq ki, öz müqəddəs eşqini ilahi varlığa yaxınlaşdıra bilir. Ülvi zirvəyə qalxan aşiq öz sevgilisinə ay kimi, günəş kimi uzaqdan baxmağı xoşlayır. İntizarı ilə yaşamağı vüsalından üstün tutur. Bu məcnunluq fəlsəfəsidir ki, yalnız Məcnun məktəbi keçənlər o yüksəkliyə qalxa bilir.

Nizamiyə görə o yüksəklikdə parlayan məhəbbət dünyanı hərəkətə gətirən Tanrı anlayışıdır. Ürəyə düşən ilk sevgi xalı həyat boyu aşiqin qəlbində heyranlıq və idrak ulduzuna çevrilir. Şairə görə:

Sonradan verilən yüz mey camı, bil,
İlk verilən qədər dəyərli deyil.
Aşiq yar yolunda versin can gərək,
Qorxusu olmasın qılıncdan gərək.

Nizami Gəncəvinin məhəbbət fəlsəfəsi illərdir ki, meteor kimi alışa-alışa yol gəlir. Onun işığında sevgi cığırları ilə səhralar dola-şan Məcnunları, Fərhadları, Leyliləri, Şirinləri görürük.

Bəli, sevgi müqəddəsdir. Şairə görə məhəbbət təfəkkürün tərbiyəçisi, insan qəlbinin xeyirxahlığıdır. Sevmək aşiqin ruhunda yaxşılıq

göyərdir:

Kimsə məhəbbətdən pislik gözləməz,
Varsa da, özünə götürməz heç kəs.
Ömrümüzün günü sayılır bir-bir,
Eşqisiz keçən gün ölüm deməkdir.
Eşqin yollarında əvvəl Fərhad ol,
Sonra ölümünçün sevinib şad ol.

Nizami qəhrəmanının qəlbi genişdir. Bu müqəddəs fəhm dərgahında ömrünü girov qoyan sevda yolçuları öz sevgisi yolunda hər şeyə razıdır.

Eşqinin ucundan can versəm də mən,
Yaşa, bu həyatda xətər görmə sən.

Nizaminin ölməz əsərlərində zəngin bir həyat eşqi, əxlaq dərsi vardır. Bu həyat məktəbində təlimlər verilir. Məhəbbət kitabı isə bu məktəbin bütün hücrələrində baş kitabdır. Axı, hər şeyə, bütün kürreyi-ərzə can verən, onu nurlandıran, canlandıran məhəbbətdir. Dünyanı saran bu məhəbbət qəlblərdə şam yandırır. Sevgi insanı insan edir, kamilləşdirir və yaradanına yaxınlaşdırır. Sədaqətli, mərhəmətli, insaflı edir. Bu kamillik zirvəsinə qalxanlar nəcibdir, alicənabdır, igiddir, səmimidir.

Eşqsiz bir ürək heçliyə varsın,
Onu qəm selləri yuyub aparsın.
Məhəbbət daimi olmasa əgər,
Gəncliyin bir şəhvət oynuna dönər.
Həqiqi məhəbbət bir məhəbbətdir,
İlki də, sonu da əbədiyyətdir...

***

**O**nun fikir və düşüncələri yalnız nəsihətlər toplusu deyil, həm də insanın yolunda işıqdır. İnsan o işıqda öz gələcəyini müəyyənləşdirmək imkanına malik ola bilər. Nizami sözünə

diqqətlə qulaq assan sən öz həyat yolunu təyin edə bilərsən. Mütəfəkkir şair dünya fəlsəfəsinin ümumi mahiyyətini zənginləşdirməklə öz sərrast misraları ilə bəşər mənəviyyatını nurlandıra bilir. Bu hikmət və işıq səltənətində sən öz ağlını zənginləşdirməklə özünə və bəşəriyyətə xidmət etmək dərsi alırsan. Nizami Gəncəvi öyrədir və istiqamətləndirir. Şair bütün bəşəriyyəti humanizmə çağırır:

Dünyanın işini yaxşı düşün sən,
Nə əksən, onu da sən biçəcəksən.
Yaxşı iş də görsən, pis iş də, inan,
Unutmaz onları bu qoca dövran.

Nizami insanları sülhə səsləyir, onları əqlin gücü ilə döyüşə dəvət edir. Hikmət savaşında qan tökülmür, ədalət qalib gəlir:

Barış zamanında döyüş başlayan,
Heç ağıllı adam sayılmaz, inan.
Haqq sözü eşitmək istəməyənlər,
Ağlını itirib öləcək hədər.

Qoyma, qanla yusun şahlar dünyanı,
Qoy, alovlanmasın düşmənin qanı.
Madam ki, sülh ilə göyərir dilək,
Döyüşə at çapmaq daha nə gərək?

Nizami "Xəmsə"sinə könül verdikcə, onun dərin hikmətlərinə vardıqca insan müdrikləşir. Böyük şairin böyüklüyü ondadır ki, o, həyatın dialektikasını təbiətin diktəsi ilə yazır. Təbiətin təbii axarı, onun dinamikası, nizam-intizamı dəyişilməzdir. Onun öz təkamülü, riyazi, bioloji, fiziki, dialektik qanunları var. Onun hərəkəti öz bətnindədir. Günəşi Yerin başına dolandırmaq olmaz. İnsan və ya hər hansı bir məxluq bu qüdrətə malik deyildir. Yer Günəşin

başına hərlənir. Və bu, kainatın əzəli, pozulmaz qanunlarından biridir. Nizami humanizmi belə bir dialektikadan su içərək hikmət laləzarlığına dönmüşdür. Bu hikmət çəmənindən dərdiyin və iylədiyin çiçəklər sənin ruhunu həmişə sağlam saxlar. Sağlam ruh həyat yollarını düzgün seçər və səni bəşəriyyətin xeyrinə, şərinə yarıyan edər. Nizaminin fəlsəfəsi öz tutumu ilə bütün zamanlarda insanların köməyinə çatmışdır. Nizami yaradıcılığı elə bir çeşmədir ki, onun hər bir damlasından bir hikmət günəşi boylanır. Bu Günəşin şəfəqləri altında neçə-neçə yaradıcı şəxsiyyətlər yetişmiş və ədəbi irs qoyub getmişlər. Heç təsadüfü deyil ki, dünyanın bir çox görkəmli filosof və şairləri Nizamini "şeirin Allahı" adlandırmışlar. Yeri düşmüşkən, belə bir rəvayəti xatırlatmaq xoş olar: Bir gün Əbdürrəhman Caminin bacısı oğlu onun yanına gəlir. Deyir, - dayı, dünyada ən böyük şair kimdir?

Cami deyir:

Şeirin olub üç peyğəmbəri,
Firdovsi, Sədi, bir də Ənvəri.

Bacısı oğlu təəccüblə soruşur:

- Bəs, heç Nizaminin adı çəkilmədi?

Cami iftixarla söyləyir: bunlar şeirin peyğəmbərləridir, Nizami isə Allahı.

Nizaminin sənət inciləri 850 ildən artıqdır ki, yol gəlir. Bu incilər getdikcə daha da ziyasını artırır. Ağıl və həqiqət heç vaxt köhnəlmir. O, parlaq və müasirdir. O həmişə bəşəriyyətin əlindən tutur. Nizami insanları xoşbəxt və sülhsevər görmək istəyir. Şair "Sirlər xəzinəsi"ndə yazır:

Söylə, ədalətsiz iş
Sənə nə fayda verər?

İnsafsız görülən iş
Ömrünü bada verər.
Kim ki, xalqı bir gecə
Ədalətlə şad etdi,
O demək öz sabahkı
Evini abad etdi.
Hər zaman rəiyyətin
Diləyinə qulaq as,
Ürəkdən məzlumların
Ürəyinə qulaq as.

Nizami dərsi və Nizami humanizmi bizə hava-su kimi lazımdır. Dövrün ictimai-siyasi hadisələri və başımıza açılan minbir oyunlardan xilas yolunu tapmaqda Nizami poeziyasının bizəköməyi çox ola bilər. Nizami qələbə və xoşbəxtlik yollarını həqiqətin gözünə dik baxmaqda görür:

Ədalət mülkündən kim üz çevirsə,
Ona aqil deməz ağıllı kimsə.
Dünyanı namusla olar saxlamaq,
Onunla ucalar dövlət və bayraq.

***

Şairin yaradıcılıq fəlsəfəsində insanın ehtiyac və sərvət haqqında baxışları geniş əhatə olunur.

Bəs deyil baş əydin bunca qızıla?
Saldın dörd düyünə, yeddi qıfıla.
Qızıldan ötrü bir, yaxşı nəzər sal,
Gör, yel necə etdi laləni pamal.

Nizamiyə görə əyri və zorakı yolla sərvət toplayanlar, ümumiyyətlə var-dövlət xəstəsi olanlar həmişə qorxaq və miskin olurlar. Beləsini yalnız bir şey düşündürər: Taku sərvəti əldən çıxmasın.

Sərmayəsi olan qorxar, qəm çəkər,
Yoxsul yolkəsəndən eyləməz həzər.

Şairə görə maddi cəhətdən varlı olanlar mənəvi cəhətdən də varlı olmalıdırlar. "Xosrov və Şirin" poemasında bu cəhətlər reallıqla öz əksini tapır. Əgər varlı öz sərvətini xeyirxah məqsədlərə sərf etmirsə, onun aqibəti qorxuncdur.

Qızıl, gümüş yığan bir xəsis adam,
Öz fikrini çəkər hər səhər, axşam.

"Leyli və Məcnun" əsərində oxuyuruq:

Çoxları buğdanı saxlanc etdilər,
Qazanc görmədilər bir arpa qədər.
Əlində saxlama quyu tək varı,
Dəyirman daşıtək üyüd onları.

Nizami öz poeziyasında sərvət və ehtiyac münasibətlərini aydınlaşdırmağa çalışır. Biz bu araşdırmada necə yaşamağın yolunu görür və çərxi fələyin insan həyatına təsirini hiss edirik. İnsan öz ağlı ilə hərəkət etməli, qismətindən qaçmamalı, bununla belə, əldə etdiyi sərvəti nikbin məqsədlərə sərf etməlidir. Əgər belə olarsa, o, özünü rahat hiss edər.

Qızıl toplanası bir atəş deyil,
Uzaq ol, yanarsan yoxsa, onu bil.

Sərvət üçün şadlanmaq, onunla uşaq kimi əylənmək, təkəbbürlənmək həyatdan təcrid olmaq deməkdir:

Sevinmə əlinə çox dövlət düşcək,
Çünki çirkinlikdir pulçün sevinmək.
Qızılı toplayıb yerə basdıran,
Özü torpaq yeyər əslinə baxsan.

Dahi şairin gəldiyi nəticələr insanın həyata baxışına zənginlik gətirir. Bu baxımdan böyük Nizaminin poetik fəlsəfəsi əsas etibarı ilə dialektik qanunların şərhinə çevrilir. Nizaminin real düşüncələri, onun poetik fəlsəfəsi qızıl çəkən tərəziyə bənzəyir.

Mütəfəkkir şair ehtiyacın da əleyhinədir. O, dünyanı taraz görmək, insanların bərabər yaşamasını arzulamaq istəyir. Nizami Gəncəvi əsərlərinin birində deyir ki, var-dövlət bütün çətinliklərin gözünü aça bilən şəfəqdir. Əgər bu var-dövlət günəş kimi öz dövrəsinə təmannasız işıq paylaya bilirsə, əgər bu var-dövlət yoxsulların əlindən tuta bilirsə, o, faydalıdır. Toplanan sərvət həmçinin xalqına qənim kəsilənləri xar etmək üçün bir silaha çevrilməlidir. Yeri gələndə xəzinənin ağızını açıb onu əjdaha kimi düşmənin üstünə ötürməlisən... “İsgəndərnamə”dəki bəzi beytlərə nəzər yetirək:

Qılıncın paslanıb kəsməsə əgər,
Qızıl ver, daşları dəmirə döndər.
Xəzinə qızılı yığmaq üçündür
Qızıl da düşməni yıxmaq üçündür.

Nizami poeziyasındakı müasirlik hər zaman öz əxlaqi təsirində qalmaqdadır. Hər bir varlı, imkanlı adam mənsub olduğu xalqın mənafeyini güdməli, yeri gələndə öz sərvətini səxavətlə, nəcib məqsədlə qalibiyyət ideallarına sərf etməlidir. “İsgəndərnamə” də belə deyilir:

Dövləti saxlamaz yalnız bir nəfər,
Dünyanı özünə bağlamaz bir ər.

Cəmiyyətdə dövlət və ehtiyac ziddiyyətləri kəskin dərəcədə özünü göstərərsə, tərəflər arasında düşmənçilik alovları güclənər. Və bu, yalnız özü üçün yaşayanların məğlubiyyəti ilə nəticələnər. Nizami poeziyasında bu və ya buna bənzər müdrik tezislər hədsizdir:

Düşün ki, gedərdir çox sərvət, çox var,
Dövləti az olan olur bəxtiyar.
Ürəklə çalışmaz varlı olanlar,
Əlindən var-yoxu getməkdən qorxar.

Böyük Nizaminin poeziya kəhkəşanında parlayan söz inciləri bu gün də yolumuzda müdrik işıqdır.

***

Nizami Gəncəvi zəngin yaradıcılığı ilə əbədilik qazanmış Allah dostudur.

Dahi şair coşğun istedadı, dərin biliyi və fəhmi ilə daim həyatın, yaranışın, yer və göy aləminin fəlsəfi mənzərəsinə nüfuz etmişdir. Onun düşüncə tərzi, poeziyasında qaldırdığı məsələlər daim müasirdir. Şairin poemaları orijinallığı ilə bütün dünyada məşhurdur. Nizami özündən sonrakı bədii ədəbiyyata misilsiz təsir göstərmişdir. Onun əsərlərinə şairlər yüzlərlə nəzirələr yazmışlar.

Nizami Gəncəvinin yaradıcılığında vətənə xidmət və xeyirxahlıq haqqında güclü fikirlər irəli sürülmüşdür. Şairin ideyasına görə vətən müqəddəsdir. Hər bir vətəndaş xalqına sədaqətlə xidmət etməlidir. Şair "Sirlər xəzinəsi" hekayətlərində yazır:

Xidmət etmək sayılır kişilikdən nişana,
Xalqına xidmət etmək bir şərəfdir insana.

Yenə orada deyir:

Yaxşıdır yaxşılığın çox olsa hər nə qədər,
Yaxşılıq et ki, sənə çox yaxşılıq ediblər.
Sən ki hüma quşusan şərəfli iş gör, əlbət,
Az ye, az danış, vermə bir kimsəyə əziyyət.

Nizami Gəncəvi klassik Şərq poeziyasında müdrik, dərin və fəlsəfi ümumiləşdirmələri ilə özünəməxsus ədəbiyyatın əsasını qoymuşdur. Şairin poemaları görkəmli ədəbiyyatşünasların qeyd etdikləri kimi öz süjet və mündəricatı ilə mənzum roman təsiri bağışlayır. Həmin poemalarda Şərqin həyat tərzi müsbət surətlərin xarakterində əksini tapır. Onun

yaradıcılığında böyük Vətən (Dünya ağacı) motivləri demək olar ki, şəkillənmişdir.

Hünərvər adamların əməyini təqdir edən Nizami deyir:

Bir adamda görərkən böyük bir hünəri sən,
Həmən hünər azalar get-gedə, bəyənməsən.
Əgər bəyənsən onu onda iş başqalaşar,
O çeşmədən axan su ikiqat artıb daşar.

XII yüzilliyin ədəbi mühitinə böyük rövnəq verən Nizami Gəncəvi zəngin irs qoyub getmişdir. O, nəinki Azərbaycan ədəbiyyatı, eləcə də dünya ədəbiyyatı üçün intibah çırağı yandırmışdır. Nizaminin poetik təfəkkürü, kamil yaradıcılığı bütün dövrlərdə ədəbi prosesə güclü təkan vermişdir. Bir çox şairlər vətənə xidmət motivlərini, xeyirxahlıq haqqında ideyaları bədii məhsula döndərmək üslublarını məhz Nizamidən öyrənmişlər. Şairin zəkası zaman-zaman söz-sənət mülkünü ziynətləndirməkdədir. Haqlı olaraq şair deyir:

Hünər ardınca qoş, xalqa hünər saç,
Qapılar bağlama, ər ol, qapı aç.
Dərdə döz, incitmə heç də özgəni,
Ellər qəm çəkincə, dərd alsın səni.

Nizami Gəncəvi öz oxucusuna həmişə kamillik arzulayır. Kamil insan bütün çətinliklərə qalib gələ bilər. O, adamları çətinlikdən qurtarar, hörmət-izzət sahibi edər. İnsanın kamil olması hər şeydən vacibdir. İnsan kamilləşmək üçün ilk dərsini həyatdan və səbrdən almalıdır. Nizaminin fəlsəfəsinə görə ədəbli olmağın özü də kamillik nişanəsidir. Nəhayət, şairin təbirincə desək:

Səadət kamalla yetişir başa,
Xalqa hörmət elə, ədəblə yaşa.

Dünya ədəbiyyatının görkəmli klassiki dahi Nizami Gəncəvi fəlsəfəsi, didaktik təlimi, hikmət və nəsihətləri ilə öz oxucusuna üzünü tutub belə deyir:

Xalqa rahatlıq istə, əzmə, incitmə onu,
Utanmaqdan başqa şey deyil bu işin sonu.
Könlündə lovğalığa deyil, hünərə ver yol,
Hər zaman, harda olsan hünərin yolçusu ol!
Çalış ki, kipriyin olsun almaz tək,
Ayıq ol, ölkənin keşiyini çək.

***

Nizaminin elə bir əsəri yoxdur ki, orada qəhrəman obrazı olmasın. "Sirlər xəzinəsi"ndən tutmuş, "İsgəndər-namə"yə qədər yaradıcılıq yolu keçən İlyas Yusif oğlu Nizami torpaq və vətən haqqında ən dəyərli qənaətlərə gəlmiş, öz baxışlarını qədim Şərq və yunan filosoflarının, milli mifologiyamızın qaynaqlarına bağlamışdır.

Şair öz qəhrəmanını yaradarkən, istər döyüş meydanında, istər elmi mübahisələrdə əsasən milli əxlaqa söykənmiş və Qurani-Kərimin ilahi nəzəriyyələrindən faydalanmışdır. Nizaminin didaktikası adi nəsihət deyildir. Nizami filosofdur, Nizami dahidir. Bu böyük insan öz ideyalarını məhz nəzmlə ifadə etmək qənaətinə gəlmişdir. Şeiri müqəddəs hesab edən Nizami müqəddəs duyğularını və düşüncələrini məhz poeziyanın dili ilə bəşəriyyətə çatdırmağı üstün tutmuşdur.

Nizami sınaq meydanında rəğbət bəslədiyi adama hər cür təlim keçir. O, dost və düşmən tərəflər qəti münasibət bildirir. Nizamiyə görə düşmənlər müxtəlif olur. Bir var açıq düşmən, bi də var qapalı:

Əqrəb düşmənçiliyi betərdir əjdahadan,
Əjdaha aşkar vurar, əqrəb gizli hər zaman.

Kiçik düşmən ən böyük bir bəladır, bunu bil,
Böyük xətadır xəbər tutmayıb olsan qafil.

Göründüyü kimi, ustad sənətkar daim hiyləgər düşmənə qarşı zaman-zaman ayıq olmağa çağırmışdır. O düşmən ki, sənə xəyanət edir, onu içindən qovmalısan.

İstəyirsən evin salamat qala,
Evə yad adamı buraxma əsla.

Nizaminin nəsihəti bir də budur: "Düşmənindən qurtar tədbir tökərək". Bir də dahi şairin poeziyasında yağılara qalib gəlmək üçün mənəvi və ruhi birlik əsas götürülür.

Xalq konsepsiyası Nizami şeirlərinin ruhunu möhkəm sarmışdır. İnsanpərvərlik motivləri ən çox bu duyğular üstündə köklənmişdir. Nizami milləti həmrəyliyə çağırır; mənafe birliyinə, vətən birliyinə, vicdan, döyüş birliyinə! Çünki tək əldən səs çıxmaz.

Öküz cüt olmasa kotanda əgər,
Tək öküzlə söylə, yeri kim sürər?
Qarışqa birlikdə göstərib hünər,
Özündən çox böyük şeylər sürüyər.
Bir olsa yoldaşın, dostun əməli,
Daşdan su çıxardar onların əli.

və nəhayət:

Tək uçan kəkliyi qızılquş yeyər.

Nizamiyə görə düşmənin böyüyü, kiçiyi yoxdur. Çünki:

Filləri qovmuşdur çeşmədən dovşan,
Kiçik görünməsin gözünə düşman.

Qüdrətli şairimiz Nizami Gəncəvi insanları daim hünərvərliyə, mərdliyə və həqiqət uğrunda mübarizəyə səsləyir.

Heç qorxma acizə zülm edənlərdən,
Yoxsa qul olarsan onlara hökmən.

Yenilməz ürəklə çıx yola, görüncə xəzan.
Ürək qorxaq olanda, odlanar, alışar can.

Şairin yaradıcılığında qəhrəmanlıq motivləri ilə zəngin olan misralar çoxdur. Söhbət həm də bu misraların çoxluğundan deyil, onun tərbiyəvi əhəmiyyətindən gedir. Nizami öz şeiri ilə təlim keçir, haqlı olanlara döyüş qaydaları öyrədir.

Düşmən silahlansa qarşında əgər,
Sən də qılınc vurub qüvvəni göstər.
Lakin silah töksə qarşında düşmən,
O miskin düşmənlə gəl vuruşma sən.

Qəhrəmanlıq, cəngavərlik Nizamiyə görə ali əxlaqi keyfiyyətlərdir. İnsan bu hissləri ilə böyükdür, ucadır, mərd və sədaqətlidir.

Mərdə təmiz bir ad candan əfsəldir,
Ləkəli qalmaqdan ölüm gözəldir.
Mən meydan əhliyəm, sən də bir kişi,
Mərdliklə seçilir hər mərdin işi.

Nizami "Leyli və Məcnun" poemasında yazır:

Gün kimi yumşaqlıq göstərmə gerçək,
Olma ikiüzlü bənövşələr tək.
Ömrü başa vurar şir ürəklilər,
Öküz ürəklidə olmaz bir hünər.
Zəlillik ürəyə ağrılar salar,
Zülmə dözənlərin sonu xar olar.
Tikan tək çiynində tut yarağını,
O vaxt qucaqlarsan gül budağını.

Klassik şairlər Nizaminin poeziya çeşməsindən daim su içmiş, ondan bəhrələnmişlər. Şairin yaradıcılığı özündən sonra gələn sənətkarlara örnək olmuşdur. Nizaminin fəlsəfi dünyagörüşü Şərq ədəbi mühitinə güclü təsir göstərimişdir. Onun hər bir kəlamı atalar sözü qədər dəyərli və tərbiyəvidir.

Şairin mərdlik və mübarizlik fəlsəfəsi insanı inamlı olmağa səfərbər edir. İnam hər şeyə qalib gələndir. İnsanın gücü yenilməz və məğlubedilməzdir. Nizamiyə görə haqq və ədalət uğrunda inamla yola çıxan hər bir qəhrəman mütləq qalib gələcəkdir.

Nizami öz qəhrəmanını daim böyük ideallar uğrunda mübarizə meydanında görməyi xoşlayır. Qəhrəman qara qüvvələrlə döyüşəndə əsil qəhrəmandır:

Özündən alçaqla çəkin qovğadan,
Yıxıb-yıxılmaqdan incik olarsan.
Böyüklə vuruşda insan ad alar,
Alçaqla vuruşan özü alçalar,
Nəhəng vuruşuna dəniz də azdır,
Xırda balıqların yeri dayazdır.

Nizami Gəncəvi öz qəhrəmanlarını ayıq-sayıq olmağa çağırır. Onların çevik və zirəngliyi olduqca vacibdir. İnsan ağıllı inadla, işıqlı əməllərlə qara qüvvələrdən qorxmamaqla qalibiyyət və azadlıq qazana bilər. Şair qəhrəmanlarını ali duyğularla, mübariz tellərlə tərbiyə edir. "Yeddi gözəl" əsərində oxuyuruq:

Zirəng adam inan, mələkdir, mələk,
Zirənglik gözəldir, əcəbdir gerçək.
Hünərli dünyada taxtu-tac alar,
Alçalmaz heç zaman başı ucalar.
Çarpış dünya ilə şiri-nər kimi,
Yoxsa udar səni o, əjdər kimi.

***

İstər şifahi xalq ədəbiyyatımızda, istərsə də klassik poeziyamızda zəhmətlə bağlı poetik nümunələr çoxdur. "El gücü, sel gücü", "El bir olsa dağ oynadar yerindən" və sair aforizmlərdən

qidalanan ədəbiyyatımız insan şəxsiyyətini, insan zəhmətini daim ön plana çəkmişdir.

Böyük ədəbi irs qoyub gedən Nizami Gəncəvinin poemalarında zəhmətlə bağlı fikirlər, müsbət münasibətlər daha çoxdur. Şair öz yaradıcılığında elmə və digər fəaliyyət növlərinə nüfuz etdiyi kimi, zəhmətə də xüsusi qiymət vermişdir. Çalışqanlığın mahiyyətini açmaqla şair insanları zəhmətin ucalığına səsləyir. O zəhmətin ki:

Bir gün bar götürər ağac əkənlər,
Xəzinə taparlar zəhmət çəkənlər.
Tənək ağlamasa vaxtında zar-zar,
Yetirməz axırda sevinclərlə bar.

Nizami Gəncəvi faydalı və düşünülmüş zəhməti alqışlayır. Onun fikir və düşüncələrində zehni və fiziki əməyin həyati mexanizmi obyektiv gerçəkliyini tapmaqdadır.

Misralara köçürdüyü zəhmət haqqındakı düşüncələri hər bir çalışqan adama real stimul verir.

Nizami insanları əməyə çağırarkən necə çalışmaq haqqında da yol göstərir. Nizami çağırışı şüar deyil: Kor-koranə tər tökməklə nəticə hasil etmək olmaz. Gücünü sərf etdiyin vaxt onun hasilini götür-qoy etməlisən:

Hər kim toxum əksə şoranlıq çölə,
Təkcə peşmançılıq gətirər ələ.
O kəsə deyərəm daim bəxtiyar,
Ki, səpdiyi toxum yetirəcək bar.

Nizami hünərvərliyin, zəhmətin xeyirxahlıqla qoşa olduğunu söyləyir. Şairə görə zəhmət eşqi xeyirxahlıqla ekizdir. Sənin əllərinin bəhrəsini görənlər şad olur və sənə dua edirlər. Sən toxum əkib, torpaqdan buğda götürürsənsə, bir başqası

yol çəkib insanları mənzil başına çatdırır. Sən ağac əkib onu ərsəyə çatdırırsansa, bir başqası qayalar yarıb gur bulaqların səmtini bağ-bağata döndərir. Bir sözlə, əməyin bütün formaları qarşılıqlı əhəmiyyət daşıyır. Nəticə etibarı ilə xeyirxahlıq və səmimiyyət yaradır, qəlbi rahat edir.

Hər halda sən çalış, həyat əməkdir,
Cənnət kahıllığı nəyə gərəkdir.
Kimin ki, qəlbində vardır hümməti,
Onun da yaxşılıq olur neməti.

Yer günəşin başına hərlənir, dünya daim hərəkətdə, bitkilər inkişafda, zaman öz axarında! Demək bu hərəkətin içərisində insan donub qala bilməz. Nizami insanları hüma quşuna bənzədir. Və onları xoşbəxtliyə doğru qanadlanmağa çağırır:

İnsan yem dalınca qaçmasın gərək,
Quşdan zirəng olsun, zirəngdən zirəng

Çünki:

Dünya zirənglərin karvan yoludur,
Düz və təmizlərin sadiq quludur.

Zirəng və çalışqanlığın yerində olması gözəldir. İnsan öz zəhmətinin qədərini və məhsuldarlığını bilməlidir. Onun cəmiyyətə faydası əmsalını birinci götürməlidir. Gərək elə zəhmət yolu seçəsən ki, bir sünbül dənindən onlarla sünbül dənini qazanasan və başqalarının da süfrəsinə pay verəsən. İnsanın zehni və fiziki gücündən törənən işgüzarlıq böyük xariqələr yaradır. Böyük sirlərin qapısı, itib-batmış kəhrizlərin gözü yalnız zəhmətlə açıla bilər:

Zəhmətlə açarsan bağlı tilsimi,
Açdın, xəznə çıxar aydın gün kimi.
Ağac çatlatmasa hər bir budağı,
Heç bir bahar görməz dünyanın bağı.

Dahi Nizami insanları gənclik çağında müqəddəs zəhmətə daha möhkəm bağlanmağı tövsiyyə edir. İstər əqli, istərsə də fiziki zəhmət yolçuları gəncliklə daha iri addımlar ata bilərlər. Əgər sən gəncliyində başladığın yolu iti addımlarla gedə bilməsən mənzil başına çatmağın çətinləşər:

Dünyada keçməsin boş cavan çağın,
Yol get ki, güclüdür indi ayağın.
Canı sağ olduqca bu dünyada bil,
Vücud çətinlikdən yorulan deyil.

Böyük Nizami insanları zəhmətə səsləyərkən halallıq meyarını da unutmamağa çağırır. Filosof şairin təbirincə desək zəhmətə haram qatılarsa qollarının yorğunluğu bağışlamaz səni. Əgər əllərinin bəhrəsinə xəyanət edərsənsə qolların boşalıb yanına düşər. Nizami halallığı ilahiləşdirir. Onu insanların müqəddəs yolu hesab edir.

Halal ye, tərlan tək halal ov ara,
Bənzəmə leş üstə qonan quşlara.

və yaxud:

Bu dərya yolunda vardır çox hünər,
Əziyyət çəkənlər dür əldə edər.

Dünya poeziyasının sönməz günəşi olan Nizami insanları zəhmətə dəvət etməklə heç də köləliyə çağırmır. Və insanları zəhmətə dəvət edərkən şair onlara yol göstərir. Mütəfəkkir şair istər fiziki, istərsə də zehni əməyin yalnız kamilliyini təlqin edir. Kamil zəhmət kamil insan yetirir. Və eyni zamanda kamil insan kamil zəhmətə çağırır, yaradıcı əmək hasil edir. Qoca kərpickəsən kişi deyir:

Ona görə əlimi öyrətdim bu sənətə,
Bir gün sənə əl açıb düşməyim xəcalətə.

Nizaminin təqdir etdiyi zəhmət məhz bundan ötrüdür. İnsanlar erkən öz həyat yolunu müəyyənləşdirməli, öz zehni və ya fiziki əməyinin sahibkarı olmalıdır.

Dünyanın tarazlığı, həyatın gözəlliyi, xeyirxahlıq və səmimiyyət məhz insanlar öz yollarını aydınlaşdıranda baş verir:

Mən bir kəsə deyiləm xəznədən ötrü möhtac,
Əlimin zəhmətilə toxdur gözüm, deyil ac.
Zəhmətdən fəryad etmə, olsun qoy səndə qərar,
Zəhmətin axırında rahatlıq var, şadlıq var.

***

Yer üzünün bəxtəvəri və əzabkeşi olan insan təbiətin ən ali yaranmışı hesab olunur. Hər bir fərd normal düşüncəyə və zəkaya malik olması üçün öz sağlamlığını gözləməlidir. Sağlamlıq düşüncənin, yaşayışın, inkişafın əsasıdır. Nizami Gəncəviyə görə insan yalnız sağlam olduğu zaman əsaslı mühakimə yürüdə bilər. Dünyanın bütün kəşfləri, ecazkar sehrləri sağlam və inadkar zəkanın məhsuludur. Sağlamlığın mənbəyi təbiətdir. Bütün dövrlərin dərmanı, insanı yaşadan amillər ətraf mühitdə-təbiətdə cəmlənmişdir.

Qüdrətli şairimiz İlyas Yusif oğlu Nizami öz poeziya süzgəcindən keçirdiyi misraları düşüncə çeşməsində yumuşdur. Poetik kəşfləri ilə zaman-zaman bəşəriyyətə xidmət etmiş və etməkdədir.

Nizami bu gün öz sənəti ilə diridir, yaşayır və gələcəyə yol gedir. Nizami Gəncəvinin "Xəmsə"sində səhhət və təbabət haqqında dəqiq fikirlər vardır. Nizami insanları az yeməyə və ac qalmamağa, az danışmağa və ifrata varmamağa, ortaq ölçülərə əməl etməyə çağırır. Nizami ortaqlığı miyanə mənasında götürmür. Dahi şair bütün bunları izah edərkən təbiətin inkişaf

qanunlarına əsaslanır. Tutaq ki, söhbət yaxşı olarsa, əhval-ruhiyyə də yaxşı olar.

Məcaz itirərsə yolunu əgər,
Səlamətlik ələ çox çətin düşər.
İştahla olduqca yeyib-içməyin,
Dodağında gülüş olacaq şirin.

Şairə görə heç kim az yeməkdən qızdırmamışdır. Ancaq çox yeməkdən mərəz tapanlar vardır. Yavan çörəyi gül-şəkər tək yesən, o sənin sağlamlığına qüvvət olar.

Bədən sağlam olsa, saf olar söz də
Süst adam süst olar bədəndə, sözdə.

Nizami Gəncəvi sağlamlığın, sağlığın qədrini yüksək qiymətləndirir və bu qiymətin böyük dəyərini izah edir.

Varkən sağlıq əldə, cavanlıq əldə
Sənindir, həm murad, həm xoş əməl də.

Ümumiyyətlə, Nizami Gəncəvinin yaradıcılığında səhhət və təbabət haqqında geniş fikirlər söylənilir. Şair sanki bir təbibdir. Xalq təbabətinin böyük əhəmiyyətini sadə, lakin çox tutarlı misralarla öz oxucusuna təqdim edir.

Çox yemə, süfrəyə hər nə qoysalar,
Ki düşər canına yeməkdən azar.
Nə qədər susasan, istiyə düşsən,
Tələsik soyuq su içmə əsla, sən.
İnsan sağlam olar, az-az yeməkdən,
Çox qalmaz dünyada əsla çox yeyən.
Aslan tək sən də az yeməyə çalış,
Çünki qorxaq olar, çox yeyən camış.

Nizami bəşəriyyətə öz dühasından ilahi hikmət töhfəsi bəxş edərkən heç nəyi əsirgəmir. O, öz sağlam və xeyirxah misraları ilə öz müasirlərinə və gələcək nəsillərə xeyirxah nəsihətlər edir. Nizami öyrədir ki, yoxlanmamış suyu içmə, sənə

qəribə görünən meyvəni yemə, yad yeməklərdən nəfsini saxla. Bir sözlə, tanımadığn ruzidən çəkin.

Dahi şair insan ömrünü təbiətinki hesab edir. Və o çox istəyir ki, insan təbiətlə həmahəng nəfəs alsın, özü-özünü dərk etsin, özünü idarə edə bilsin. Mütəfəkkir şair təbabətdən və sağlamlıqdan söhbət açarkən dini, mifiq qatlardan da istifadə edir, ilahiyyət elminə söykənir. Nizamiyə görə insan ömrü əmanətdir. Bu əmanəti sağsalamat saxlamaq gərəkdir və hər bir insan öz ömrünü təbiətin müqəddəs bir ehtiyacı kimi başa düşməlidir. Əgər insanların səhhəti pozularsa, təbiətin tarzalığı pozular. Odur ki, gərək insanlar öz səhhət və sağlamlıqlarına cavabdeh olalar. Və məsuliyyət daşıyalar. Şairin poeziyasında belə mətləblərə də toxunulur ki, verilən canı sağsalamat allah dərgahına qaytarmaq hər bir yaranışın axır niyyəti olmalıdır. Nizami yazır:

Ölüm bir bəladır, çarə edilməz,
Onun çarəsini tapmayıb heç kəs.
Ölüm qızdırması hücum edərkən,
Gizlənər əlacı onun həkimdən.

Nizami Gəncəvinin söz inciləri öz şəfəqləri ilə qəlbi daim nurlandırır. Misraları meteor kimi ağıl və düşüncələrə şəfəq saçır. Nizami sənətinin işığı bütün qaranlıqları yarmaqla bəşəriyyətə həyatın əsil üzünü göstərir. Nizami dahidir! Nizami müdrikdir! Nizami filosofdur! Nizami şairdir! O, əsərlərinin başlanğıcında Allahın və Peyğəmbərin adını çəkir. Öz fikir və düşüncələrini misralara düzməyə başlarkən onlardan aman və imdad istəyir. Nizami səbrli və şükürlü şairdir. O, qələmi ələ alarkən hər dəfə bütün dünyanın insanlarını xeyirxahlığa, düzgünlüyə və kürreyi-ərzi

salamat saxlamağa çağırır.

Nizaminin yaradıcılığında səhhət və təbabət haqqında açılan söhbətlər əsaslı qaynaqlardan qidalanır. Nizami Böyük türk Ağacının şəfalı meyvələrindən danışır. Nizami türkəçarələrin elmi əsaslarını açıqlamağa çalışır.

Təbabət və səhhətə dair kəlamları ilə Azərbaycan türk mifologiyasının və qədim tibb elminin batininə varır, adamlara o elmdən çox pay vermiş olur.

Nizami bir Azərbaycan şairi kimi farsdilli ədəbiyyatın nəhəng sütunu sayılır. Onun yaradıcılığı bitib tükənməyən bir xəzinədir. Azərbaycan, o cümlədən dünya poeziyasının fəxri sayılan sənətkarın söz xəzinəsi bu gün də parlaqdır, sabah da! Çünki, Nizami Gəncəvi əbədiyyətin şairidir:

Nizaminin eşq odu sanma külə dönəndi,
Qüdrətin al Günəşi sönsə, o da sönəndi.

***2011***

## ƏDƏBİ TƏNQİD
## MÜƏLLİF HAQQINDA

Muxtar Qasımzadə bizim yazıçılar nəslinin orta nəslini təmsil edən şairlərdəndir. O, yaradıcılığa 70-ci illərdən başlamışdır…

M.Qasımzadə az yazır, ancaq yaxşı yazır. O, ciddi poetik axtarışlar aparır. Deyilməmiş, necə deyərlər, əl dəyməmiş mövzular tapır. Ürəyinə yatmayan bir şeyi nəzmə çəkməkdən uzaqdır. M.Qasımzadənin ən yaxşı xüsusiyyətlərindən biri odur ki, zəif şeirlərini oxucuya təqdim etmir. Muxtarın məni razı salan cəhəti odur ki, o öz şeirləri üzərində dönə-dönə işləyir, tələsmir…

Mən Muxtarı, özü də etiraf edər ki, əlindən tutub poeziya yollarına çıxarmışam, beynəlxalq tədbirlərdə iştirak edib, şeirləri müxtəlif dillərə tərcümə olunub. Muxtar bizim ümumədəbi mühitimizin inkişafında mühüm rol oynayır.

Mən Muxtara yeni yaradıcılıq uğurları, yeni poetik axtarışlar arzulayıram.

**Hüseyn İBRAHİMOV,**
***Xalq yazıçısı, 1997***

Şair M.Qasımzadənin şeirləri göstərir ki, sənətin vəzifəsini düzgün başa düşür, müəllif mövzu dairəsinin genişliyi ilə nəzəri cəlb edə bilir.

**İsa HƏBİBBƏYLİ,**
***akademik.***

* * *

...Naxçıvanda yaşayıb yaradan Muxtar Qasımzadənin şeirləri maraq doğurur. Bu gəncin poetik dünyası barədə ürəkaçan sözlər demək olar. Qeyd edim ki, onun "Uşaq ürəyi", "Qayıtmaq istərəm", "Meşədə payız", "Bənövşə", "Marsa zəng edəcəyəm" kimi şeirləri öz orijinallığı, deyim tərzi və professional səviyyəsi ilə fərqlənir. **(Ümumittifaq yaradıcılıq seminarından qeydlər)** məqaləsindən

**Yevgeni Xramov,**
***(Moskva)***
***"Sovetskaya pisatel" nəşriyyatının baş redaktoru, tənqidçi.***
***"Azərbaycan gəncləri" qəzeti.***
***28 noyabr, 1981-ci il.***

***

"... İstedadı hər yerdə axtarmaq lazımdır. Bu mənada Azərbaycanın mərkəzindən uzaqda-Naxçıvanda yaşayan Muxtar Qasımzadənin şeirləri məndə maraq doğurdu. Onun şeirlərindəki təbiilik, mövzu müxtəlifliyi təqdirəlaiqdir."

**Oleq Şestinski,**
***şair. (Moskva)***
***"Ədəbiyyat və incəsənət" qəzeti.***
***25 dekabr, 1981-ci il***

...Naxçıvan ədəbi mühitində yetişən istedadlı şairlərdən biri də Muxtar Qasımzadədir. Bir neçə şeir kitabının müəllifi olan M.Qasımzadə oxuculara yaxşı tanışdır. O, mövzularını müxtəlif həyat hadisələrindən götürmüş, Naxçıvanın tarixi abidələrini, maddi-mədəniyyət nümunələrini, yerüstü və yeraltı sərvətlərini oxucuya çatdırmaq üçün coğrafi obyekt adlarından məharətlə istifadə etmişdir. M.Qasımzadənin şeirləri daha çox konkret bir ərazidə təsvir edilir, yer-yurd adları olduğu kimi adlandırılır. Odur ki, Naxçıvanın tarixi yer adları onun şeirlərində daha xarakterik şəkildədir. O, tarixi əhəmiyyəti olan toponimləri simvollaşdıraraq tarixiliklə müasirliyin üzvi vəhdətini yaradır. Onun «Nuhçıxandan gəlirəm» silsilə şeirlərində Naxçıvanın topoqrafik adlarını poetik dilə gətirir, «dünya tufanı» Nuh peyğəmbər və Naxçıvanla bağlı *Gəmiqaya, Ayıboğan, Çadır daşı, Nəsir dağı, Xıdır daşı, Palantökən, Qaranqucaq, Tillək, Göydağ, Qapıcıq zirvəsi, Nuhəcir, Nuhdaban, Nuhərəm, Nuhçıxan, Naxçıvan, Köhnə qala, Haçadağ, Fərhad evi, Əshabi-kəhf, Oğlanqala-Qızqala, Duz sarayı, Əlincə, Çalxanqala dağı, Babək qalası, Xaraba Gilan, Gülüstan, Xanəgah, Qarabağlar türbəsi, İmamzadə, Xan evi* və s. kimi tarixi-coğrafi toponimləri bədii dilin poetik formasına salır:

Cığır açıb, daş oydular,
Yurdlarını qura-qura.
Ora-bura ad qoydular:
*Ayıboğan, Çadır daşı,*
*Nəsir dağı, Xıdır daşı*

*Palantökən, Qaranqucaq,*
*Tillək, Göydağ,*
*Qapıcığın* gen sinəsi
ad qazandı: *«Gəmiqaya»*
Nuh babamın məskənitək
məşəl kimi
alovlandı *Gəmiqaya!*

Şair bu adları sadəcə sadalamamış, bu adları dilə gətirməklə Azərbaycan xalqının tarixi məqamlarını, tale yüklü məsələlərini yada salmış, tarixin sirlərini özündə saxlayan hər bir abidənin maddi-mənəvi əhəmiyyətini, yerləşdiyi ünvanı göstərməyə çalışmışdır. Şeirdə adı çəkilən toponimlər dilimizin qədim dövrlərinin məhsuludur. Məsələn, Nuhdaban birbaşa Nuh peyğəmbərin adı ilə bağlı yaranmış addır. Nuh peyğəmbər gəmidən yer üzünə çıxan zaman ilk dəfə dabanını basdığı yer Nuhdabanı adlandırılmışdır.

M.Qasımzadə «Əlincə» şeirində monqolların Azərbaycana gəlişini lənətləyir, işğalçılıq niyyəti ilə Əlincə qalasına hücum edənlərə qarşı xalqın birgə mübarizəsini təsvir edir:

*Vuruşub zaman-zaman,*
*Düşməni əldən düşüb.*
*Olubdu yurda qalxan,*
*Miranşah dildən düşüb,*
*Sıxıb Teymuru küncə,*
*Əlincə!*

M.Qasımzadə tarixi abidələrin timsalında bütövlükdə Vətənə, xalqa məhəbbət hissini ifadə

etmiş, *Köhnə qalanı* Naxçıvanın tarixi yaddaşı, Nuh peyğəmbərin uyuduğu məkan kimi oxucunun diqqətinə çatdırmışdır:

> Neçə-neçə əsrləri,
> yola salıb,
> özü qalıb *Köhnə qala,*
> köhnəlibdi qala-qala.

**Adil BAĞIROV,**
***filologiya elmləri doktoru.***
***"Onomalogiya problemləri", II cild.***
***(Bakı, "Elm və təhsil", 2012, s. 84-85)***

## BU DA BİR NAĞILDI ...

*Muxtar Qasımzadənin 55 yaşı tamam oldu*

**Çağdaş ədəbiyyatımızın orta nəslinə mənsub olan Muxtar Qasımzadənin yaradıcılığında Naxçıvan ədəbi mühitini düşündürən məsələlərin daha geniş mənzərəsini müşahidə edirik.**

**İstedadlı tənqidçi Vaqif Yusiflinin çağdaş ədəbi-nəzəri fikrin qənaəti kimi qəbul etdiyimiz sözlərini xatırlayıram: "Bu gün Naxçıvanda yaşayan şair və yazıçılarımızın yaradıcılığında da bütünlüklə Azərbaycan ədəbi mühiti üçün səciyyəvi olan xarakterik cəhətlər əks olunur."**

Bu da təbiidir. Bu ciddi məsələdən söhbət gedərkən, ilk əvvəl gözlərimiz qarşısında Naxçıvanın və naxçıvanlıların təbiəti, yenilməzlik, mərdlik, kişilik zirvəsi sayılan bu yurdun gözəllikləri və özəllikləri dayanır:

***Qorunub həmişə yer kürəsində,***
***Yaşayır hər kəsin öz nəfəsində.***
***Ürəyin məhəbbət xəritəsində,***
***Ən böyük dövlətdir vətən sevgisi.***

Vətənin tərcümeyi-halını poetik sözlə mənəvi yaddaşa çevirən Muxtar Qasımzadə məhz bu eşqlə də "ürəyin məhəbbət xəritəsində Vətən sevgisini ən böyük dövlət" elan edir və onun şeirlərinin bədii materialı göz açıb gördüyü, könül verdiyi Naxçıvanın təbiətindən, tarixindən gəlir.

Bir cəhəti də mütləq qeyd etmək lazım gəlir ki, ədəbiyyata gəldiyi gündən şeirlərinin özünəməxsusluğu, poetik gücü, mətləb aydın-

lığı ilə seçilən Muxtar Qasımzadə tez-tez dəyişən ideologiyalardan uzaq olub.

Hələ 80-cı illərin əvvəllərində onun şeirləri "Sovetskaya pisatel" (Moskva) nəşriyyatının baş redaktoru, tənqidçi Yevgeni Xromovun, görkəmli şair Oleq Şestinskinin nəzərdiqqətini çəkmiş, akademik Bəkir Nəbiyev, İsa Həbibbəyli, ədəbiyyatşünas alim Hüseyn Həşimli, şairlərdən Cabir Novruz, Müzəffər Nəsirli, Hüseyn Razi, Fikrət Qoca, Vaqif İbrahim, Nüsrət Kəsəmənli, Elman Həbib, Asim Yadigar müxtəlif vaxtlarda öz məqalələrində Muxtar Qasımzadə şeirinin məziyyətlərindən bəhs etmişlər.

Şairin ilk kitabı "Bu həmin sevgidir" ("Yazıçı", 1985) adlanır. Bu kitabdakı şeirlərdə poetik mükəmməllik, ahəngdarlıq, lirik-fəlsəfi duyum oxucu ilə şair arasında etibarlı körpü yaratdı, onlar 80-cı illər Naxçıvanda yazılan şeirlərə örnək kimi qiymətləndirildi.

Sadəlik, lakoniklik, düşündürücülük Muxtar Qasımzadənin 1999-cu ildə işıq üzü görmüş ("Sənə sarı gələn səs") ikinci kitabının da başlıca məziyyətləridir. Üç bölmədən ibarət oln şeirlərin ayrı-ayrılıqda öz söz mühiti vardır. Bu mühitdə ilhamlı bir şair sözə bəndəlik edir; onun içində həsrət ağrısı, hicran nisgili var, yaralı bir sevda var. Hisslərin tufanı, duyğuların tüğyanı, həyəcan seli bilmirsən haradan gəldi, necə gəldi-hər şey gözlənilmədən, birdən, qəfildən olur.

Səslər çoxdur bu dünyada. Bəs, o səsə hazırsanmı? Bəlkə qurumuş bir ağacın, otun-

çiçəyin, nazlı bir çeşmənin, daşın-qayanındır bu səs? Ya sevdiklərinin, unutduqlarının, tənhaların səsidir? Unuda bilmədiklərimizin, həsrətindən, nisgilindən qaça bilmədiklərimizin səsidir bəlkə, gecə-gündüz bizimlədir? Belə şeirləri gözlə yox, ürəklə oxumaq lazım gəlir.

Şair tarixi həqiqətlərə 2000-ci ildə çap etdirdiyi "Yaddaş çırağı"kitabının işığında üz tutur; Gəmiqaya yüksəkliyindən, Əshabi-Kəhf qüdsiyyətindən, Əlincə dönməzliyindən, Gülüstan gözəlliyindən bəhs edir. "Qızlar bulağı"nın zümzüməsi ilə tarixi vərəqləyir: Dədə Qorqudun sehirli dünyasından xəbər verən "Qazan göl"dən keçir:

***Tarix vüqar gətirib***
***Torpağına, daşına.***
***Nuhdan xəbər gətirib,***
***Çatıb müdrik yaşına.***
***Günəşimdir, Yer kimi***
***Mən dolanıb başına,***
***Dönüm, Naxçıvanımın***
***Anam, Naxçıvanımın.***

Öz poetik imkanlarını ölçüb-biçən, sözə tələbkarlıq və qənaətlə yanaşan şair kimi tanıdığımız Muxtar Qasımzadənin "Gülü xəlvət açan dünya" ("Əcəmi" 2004) kitabı şairin yeni uğurudur.

Buradakı şeirlər mövzularına uyğun olaraq "Gülü xəlvət açan dünya", "Ləçəklərə yazılan sevgi", "Nuhçıxandan gəlirəm, "Uşaqlar üçün", "Təbiət şeirləri", "Ədəbi fraqmentlər" başlıqları altında qruplaşdırılıb.

Onun şeirlərində düşünən, darıxan adamların duyğu-düşüncələrinin, hiss-həyəcanları-

nın tərcümeyi-halı var: hərdən bu tərcümeyi-hal həzin bir nəğməni xatırladır, səni öz qanadları üstünə alıb sehrli bir məkana aparır. Orada həm qəlb rahatlığı, həm də çox suallara cavab tapırsan. Hərdən də hiss-həyəcanlar tüğyana gəlir, rüzgarların soyuq sifətilə rastlaşırsan:

***Könlümün harayı çatmaz heç kimə,***
***İçimdə qırılıb səs darıxanda.***
***Məni dizin-dizin sürüklər qəmə,***
***Köksümdə çırpınıb söz darıxanda...***

Şair təbiətin bütün atributlarına insana yanaşan kimi-dostcasına, yoldaşcasına, qardaşcasına yanaşır: burada təbiətlə insan arsında heç bir sədd, sərhəd olmur. Biz burada "qara fikirlərlə gəzən qaranlığı "girinə keçirən günəşi" dərindən-dərinə duya-duya dövrəmizə boylanır, onların oxşarlarını adamlar arasında görürük.

Çağdaş şeirimizdə vətəndaşlıq lirikasının xüsusi əhəmiyyət kəsb etməsi zamanın diqtəsidir. Muxtar Qasımzadə şeirində biz bunun parlaq ifadəsini görürük. Bu şeirlərin arxasında yurdu torpağına, daşına, onun tarixinə möhkəm tellərlə bağlı olan şair dayanır. Əsil vətəndaşlıq yanğısı, şair həssaslığı ilə poetik dərkini tapan mövzular onun şeirlərinə yeni çalarlar gətirir:

***Sevgimlə nurlanar yurdum, ocağım***
***Könlümdə bir ümid çırağı yanar.***
***Sevincim, fərəhim, xeyirxahlıgım,***
***Onun ətrafında dönər, dolanar...***

Çay yatağında dikələn qaya şairin gözündə daim vuruşan, əzab çəkən insana bənzəyir. Min ildir burada dayanıb dursa da,

sellər ayağının altını nə qədər qazsa da, köksündən nə qədər zərbələr vursa da onu heç nə yerindən tərpədə bilməyib. "Sonsuz səmalara göz qoya-qoya məğrur sinəsindən qartallar uçuran" qayanı şair fəxrlə "igid, mərd qayam" adlandırır, müqəddəs hesab edir. Burada qaya insanlaşır-əzəmətli, vüqarlı bir ədəbi obraza çevrilr. Bu qaya həm də əbədilik rəmzi olur.

Şairin nəzərində hərdən dağlar da insanlar kimi dünyanın işinə mat qalır, yumruğunu döşünə sıxır ("Bu dünyanın sədri böyük"), gülüzlü günəş, camallı günəş xeyirxah, işıqlı insanlar kimi küsüb nələrdənsə üz döndərəndə, pislik, qaranlıq dünyanı ayaqdan salır, ümidlər saralıb-solur, ay dərddən qaralmış kimi görünür ("Gülüzlü günəş").

Bədii informasiya olmayan yerdə bədii söz öz gücünü itirir. Məhz bu baxımdan Muxtar Qasımzadə şeirinin çatdırdığı sirli, canlı bədii informasiya hərtərəfli, dolğun, həm də bənzərsiz şəkildə təqdim olunur.

Onu da qeyd edək ki, şair özünü düşündürən suallarla müasirlərinin də arzularını ifadə edir-bu isə şeirləri daha da dolğunlaşdırır, təsir gücünü artırır.

Bu cür tanıyıb, yaradıcılığına hörmətlə yanaşdığım şair dostum Muxtar Qasımzadənin 55 yaşı tamam olur. Ömrün yeni səhərlərini yeni şeirlərlə açan həmyerlimiz, şair Muxtar Qasımzadəyə yeni yaradıcılıq uğurları arzulayıram.

**Yavuz AXUNDLU,**
***filologiya elmləri doktoru, professor.***
***"Şərq qapısı" qəzeti 11 aprel 2006-cı il.***

## “ƏN BÖYÜK DÖVLƏTDİR VƏTƏN SEVGİSİ “

*(ixtisarla)*

Muxtar Əziz oğlu Qasımzadə 1951-ci il aprelin 22-də Naxçıvan şəhərində dünyaya göz açıb. Burada orta məktəbi bitirdikdən sonra Yusif Məmmədəliyev adına Naxçıvan Dövlət Universitetinin dil və ədəbiyyat fakültəsində təhsil alıb, eyni zamanda Azərbaycan Jurnalistlər İttifaqı nəzdindəki iki illik jurnalist sənətkarlığı institutunu bitirib. Azərbaycan Yazıçılar və Jurnalistlər Birliyinin üzvüdür. Dövri mətbuatda və ədəbi almanaxlarda şeirləri vaxtaşırı dərc olunub. Gənc yaşlarında ədəbi yaradıcılığa başlayıb. “Bu həmin sevgidir”, “Lalə xanım, gül xanım”, “Sənə sarı gələn səs”, “Yaddaş çırağı”, “Gülü xəlvət açan dünya” və başqa kitabların müəllifidir.

Hələ ötən əsrin 80-cı illərində Muxtar Qasımzadənin şeirləri “Sovetskaya pisatel” nəşriyyatının baş redaktoru, tənqidçi Yevgeni Xromovun, görkəmli şair Oleq Şestinskinin diqqətini cəlb etmiş, ədəbiyyatşünas, akademik Bəkir Nəbiyev, İsa Həbibbəyli, Xalq şairi Cabir Novruz və Fikrət Qoca, şairlərdən Tofiq Bayram, Müzəffər Nəsirli, Hüseyin Razi, xalq yazıçısı Hüseyn İbrahimov müxtəlif vaxtlarda öz yazılarında Muxtar Qasımzadənin poeziyasını təqdir etmişlər.

Vətən və xalq taleyi şair yaradıcılığının əsas mövzusudur. Ulu diyarın təbiəti, uca dağları, tarixi yadigarları, füsunkar gözəllikləri yaradıcılığa başlayan dövrdən şairin ilham

mənbəyinə çevrilmişdir. Vətən mövzusunda yazdığı şeirlərdə şair vətən sevgisini ən böyük dövlət hesab edir:

***Qorunub həmişə yer kürəsində,***
***Yaşayır hər kəsin öz nəfəsində,***
***Ürəyin məhəbbət xəritəsində***
***Ən böyük dövlətdir Vətən sevgisi.***

Muxtar Qasımzadənin şeirlərini oxuduqca ulu yurda, elə, obaya, torpağa, böyük mənada Vətənə həqiqi məhəbbətin obrazlı deyimlərindən boylanan çalarını görürsən. Bu görüntülərin fonunda müəllifin bir şəxsiyyət olaraq kimliyi, hansı amala, məqsədə və məsləkə xidmət etdiyi də aydınlaşır. Bu xüsusda yazan filalogiya elmləri namizədi şair Adil Cəmil eyni zamanda qeyd edir ki, Muxtar Qasımzadə mövzu seçərkən ürəyindən və taleyindən uzağa qaçmır, daha çox öz içindəki "məni" danışdırır. Bununla, "Ümid işığı" şeirindəki aşağıdakı misralara diqqət yetirmək kifayətdir.

***Gümüş ulduzlarım, qızıl günəşim,***
***Mənim gözlərimdən daşar dünyaya.***
***Yeddinci qitədir insan ürəyi-***
***Dünyada doğulub, oxşar dünyaya...***

Muxtar Qasımzadənin yaradıcılığında vətən mövzusu təbiətlə qoşadır. Şairin təbii hissləri ilə təbiətin duyğulu anlarının vəhdətindən yaranan bu poetik parçalar oxucu qəlbini sadəcə oxşamır, onu əsrarəngiz təbiətin sirli-sehirli qoynuna çəkir.

***Bir çinar oynayır bulaq başında,***
***Çalır havasını yaz küləkləri.***
***Təzə gəlin kimi duvaq başında,***
***Açılıb yanlara ağ biləkləri***

Bu diqqətəlayiq misralarda şair bədii sözün imkanlarından ustalıqla yararlanaraq yadigar bir rəsm təsiri bağışlayan, yaddaqalan peyzaj yaratmağa nail olmuşdur. Həmin mənzərənin cazibə qüvvəsinə dönən təşbehlərdə apaydın seçilən rənglərin hər biri nənələrimizin xalılara vurduğu naxışların gözoxşayan ilmələri qədər doğma görünür.

Şair Sahib Əsgərli "Şərq qapısı" qəzetində dərc etdirdiyi "Bir çinar oynayır bulaq başında" məqaləsində Muxtar Qasımzadənin təbiət mövzulu şeirlərini təhlilə cəlb edərək yazır: "Ədəbiyyatımızda təbiət mövzusuna müraciət edən şairlər arasında az tapılan olar ki, boynu bükük bənövşə haqqında şeir yazmamış olsun və özünə güvənən hər bir qələm sahibi bu məsum çiçəyə fərqli baxışla baxmağa, önü öz ruhuna uyğun tərzlə vəsf etməyə çalışmasın. Söszüz ki, zəngin ədəbiyyatımızda "bənövşə gülşəninə dönmüş böyük bir şeir çəmənzarlığına" onlardan seçilən fərqli bir bənövşə "əkmək" əsil şair üçün məsuliyyətli və deyərdim ki, bir qədər çətindir. Bu cür iddia şairdən istedadla bərabər, ilhamına arxalanan cəsarət də tələb edir. Şairin "Bənövşə" şeirini oxuduqca hiss edirsən ki, o, özündə belə bir cəsarət tapıb, bu qəribə çiçəyə fərqli biçimdə təzə-tər don geydirməyə nail olub.

***Göy talada zərif tüldü bənövşə,***
***Göy buluddan pay düşübdü elə bil.***
***"Bahar" yazan körpə əldi bənövşə,***
***Mürəkkəbə bulaşıbdı elə bil..***

Haqqında rəvayətlər qoşulan Naxçıvandakı “Qızlar bulağı”na çoxlu şeirlər həsr edilib. Bu ecazkar, füsunkar guşə barədə Muxtar Qasımzadə də şeir yazıb, onu “Sevən ürəklərin elçi daşı” kimi mənalandırıb:

***Qaya pilləkəndən enib gəlirəm***
***Yanında qalmağa, Qızlar bulağı.***
***Bir həzin nəğməyə dönüb gəlirəm,***
***Mən sənin olmağa, Qızlar bulağı.***

Bu cür mənalandırma onun “Qış duyğuları”, “Öz qayam”, “Meşədə payız”, “Tut ağacı”, “Gülüzlü günəş” və digər şeirlərinə də xasdır. Bir diqqət edin: Qarın yağması şairin qələmində sözlə ilmələnmiş gözəl tablo təsiri bağışlayır.

***Göylər qanad gərib ayaqlarına-***
***Yerlərin ağappaq marağı daşıb.***
***O qədər qar yığıb qucaqlarına***
***Dağların dərəsi başından aşıb...***

Belə coşqun, düşündürücü məqamlara Muxtar Qasımzadənin digər şeirlərində, xüsusilə onun 1999-cu ildə çap etdirdiyi “Sənə sarı gələn səs” kitabına toplanmış nümunələrdə də rast gəlmək mümkündür. Üç bölmədən ibarət, ayrılıqda öz söz mühiti olan həmin kitabla bağlı qeydlərində ədəbiyyatşünas-alim Yavuz Axundlu “Naxçıvanda ədəbi mühit” monoqrafiyasında yazır: “Səslər çoxdur bu dünyada. Bəs, “Sənə sarı gələn səs” hansıdır? O səsə hazırsanmı? Bəlkə qurumuş bir ağacın, otun-çiçəyin, nazlı bir çeşmənin, daşın-qayanındır bu səs? Ya sevdiklərinin, unutduqlarının, tənhaların səsidir? Unuda bilmədiklərimiz, həsrətindən, niskilindən qaça bilmədiklərimizin sə-

sidir bəlkə, gecə-gündüz bizimlədir? Belə şeirləri gözlə yox, ürəklə oxumaq lazım gəlir.

Muxtar Qasımzadənin poeziyasında, o cümlədən məhəbbət mövzulu şeirlərində təbiilik, səmimilik ön plandadır. O incə duyğulardan, saf, təmiz məhəbbətdən, acılı-şirinli, həsrətli-vüsallı sevgi "faciələrindən" söz açan misralar aşıladığı ibrətamiz təsiri ilə insanı saflaşdırır, ülviləşdirir, müqəddəs və xəyali bir aləmə aparır:

***Alış, bu həsrətin qorunda alış,***
***Uzaq xatirələr adasına dön.***
***Aşım qürurumun sərt dolayını,***
***Qəlbimin səsinə, sədasına dön.***
***Yolumun üstünə en mələk kimi***
***Bir anlıq bəxtimin sonasına dön...***

Muxtar Qasımzadənin sevgi şeirlərinin qəhrəmanı məhəbbətdən qüvvət alır, saf hissləri uca tutur, o, qolları çatsa istəklisi üçün bütün yer kürəsini qucaqlamağa hazır olduğunu bildirir:

***...Sənsiz hədər bilib, sanıram ömrü***
***De, səni özümdən nə vaxt ayırdım?***
***Qollarım çatsaydı, bir səndən ötrü***
***Bütün yer kürəsin qucaqlayardım...***

Muxtar Qasımzadənin yaradıcılığında orijinal cəhətlər çoxdur. Onun şeirlərində əsas qayə poetik fikrin konkretliyi, aydınlığı və dəqiqliyidir. O, hamının başa düşəcəyi sadə dildə yazır və diqqəti cəlb edən cəhət odur ki, şair sözə zərgər dəqiqliyi ilə yanaşır, sözün təsir gücünü artırır.

***Zərrəyə zərrəyə tək baxma həyatda,***
***Damlada bir günəş doğur görürsən.***

***Bir çınqıl nədir ki, ayağın altda,***
***Qalanda, adamı yıxır görürsən.***

Müəllifin 2004-cü ildə "Əcəmi" nəşriyyatında çapdan buraxılmış "Gülü xəlvət açan dünya" kitabının "Nuhçıxandan gəlirəm" bölməsi isə başdan-başa tarixi mövzuya həsr edilmişdir.

Həmin kitab barədə "Ədəbiyyat qəzeti"ndə resenziya dərc etdirən filologiya elmləri namizədi, şair Adil Cəmil bu bölmə ilə bağlı düşüncələrini belə ifadə edir: "Kitabın "Nuhçıxandan gəlirəm" adlı bölməsi mənə görə daha artıq maraq doğurur. Özünəməxsus etnotopomiya və etnoqrafiyaya malik Naxçıvan torpağında bütün dünyanın diqqətini çəkən Gəmiqaya, Əshabi-Kəhf, Duz saray, Çalxanqala, Əlincə, Xaraba Gilan, Gülüstan, Qarabağlar türbəsi kimi çox qədim və dəyərli tarixi abidə və ziyarətgahlara ayrılıqda həsr olunmuş şeirlər məzmunlu və təsirli poetik parçalar kimi yadda qalır..."

Yüzlərlə kitabın redaktoru olan, ömrünün hər sabahını yeni şeirlərlə açan şairə daha böyük yaradıcılıq uğurları diləyirik.

**Akif AXUNDOV,**
***yazıçı-publisist.***

***Sevindik VƏLİYEV,***
***filologiya elmləri doktoru, professor.***
***"Naxçıvanın şair və yazıçıları"***
***"Elm və təhsil" nəşriyyatı, Bakı-2010,***
***səhifə 162.***


МУХТАР
ГАСЫМЗАДӘ
БУ
ҺӘМИН
СЕВКИДИР
MUXTAR QASIMZADƏ
Sənə
sarı
gələn səs
MUXTAR
QASIMZADƏ
ƏDALƏT
GÜNƏŞİ
Muxtar Qasımzadə
Lalə xanım
Gül xanım
MUXTAR QASIMZADƏ
GÜLÜ XƏLVƏT
AÇAN DÜNYA
YADDAŞ ÇIRAĞI

## Mündəricat

Haçadağ ............................................................ 4
Bu dünyanın səbri böyük ................................... 5
Tanrı.................................................................... 6
Beləcə ................................................................. 7
Yeddinci qitə........................................................ 7
Dağlar da Vətəndir ............................................. 8
Naxçıvanımın....................................................... 8
Vətən sevgisi........................................................ 9
Olmasın............................................................... 9
Vətən desəm.. ...................................................... 10

**Yaddaş çırağı**

Gəmiqaya............................................................ 17
"Fərhad evi" ........................................................ 23
Əshabi-Kəhf........................................................ 25
Oğlan qala, qız qala............................................ 26
Duz saray............................................................ 29
Çalxanqala.......................................................... 30
Əlincə.................................................................. 31
Köhnə qala haqqında ballada............................. 32
Xaraba Gilan....................................................... 36
Gülüstan............................................................. 38
Xanəgah.............................................................. 39
Zorxana............................................................... 40
Kırnada "Allah evi" ............................................ 41
Şərq (İsmayıl xan) hamamı................................ 42
Buzxana............................................................... 43
Bəkir oğlu Əcəmi................................................ 45
Qarabağlar Türbəsi............................................ 53
İmamzadə........................................................... 55
Babək qalası....................................................... 56
Cavidin məqbərəsi önündə düşüncələr............... 57
Xan evi - xalçı evi................................................ 58

**Mən ayaq üstündə gəzən torpağam**

Xor oxuyaq.......................................................... 61
Mən ayaq üstündə gəzən torpağam....................... 62
Ömrümüz............................................................. 63
Zərrə.................................................................... 63

Körpə qəlbi........................................................ 63
Ümid işığı.......................................................... 64
Səhərlərə gedən yollar........................................... 65
Əsgər andı......................................................... 66
Ürək saatım........................................................ 67
Günəş................................................................ 68
Gülüzlü günəş...................................................... 68
Toyuna çağırsan.................................................. 69
Yadigar qalıb...................................................... 70
Ürək ağrıyırsa ... ................................................. 71
Metro fəhləsi....................................................... 72
Mən sakit olanda... ............................................. 73
Darıxanda........................................................... 74
Mənim ürəyim..................................................... 74
Söykəndiyim ağaclar............................................ 76
Nəsimi............................................................... 76
Atam bənna idi.................................................... 77
Sizin xətrinizə... ................................................. 79
Gözlüyüm.......................................................... 80
Ordubadın.......................................................... 80
Nəğmə kimi........................................................ 81
Sən yenə varsan... ............................................... 82
Bir uşaq bələkdə öldü... ...................................... 83
Musiqi düşüncələri .............................................. 84
Dan sökülür... ..................................................... 85
Açıl, sabahım, açıl... ........................................... 86
Duel Rusiyanın dar ağacıydı ................................ 87
Görərmiyəm........................................................ 88
Ya qismət........................................................... 89
Çağırış............................................................... 89
Həqiqət.............................................................. 90
Bura Şuşadı... ..................................................... 91
Dünyanın nə vecinə............................................. 94
Ağrıya-ağrıya...................................................... 96
Vaxt öldürənlər................................................... 97
Payız toyları....................................................... 98
Novruz gecəsi..................................................... 99
Bu el adətidir...................................................... 100
8 mart................................................................. 101
Marsa zəng edəcəyəm......................................... 102

Öz qayam............................................................. 103
Özgə ürəyi............................................................ 104
Oxuyum................................................................ 105
Bulud..................................................................... 105
İnanaq................................................................... 106
Araz boyu, qatar yolu... ...................................... 107
Avtoportret........................................................... 109
Nənəmin "Qulağı gəlir" ...................................... 110
Bayram şarı ürəyimlə.......................................... 110
Gözəldir... ............................................................ 111

**Nağıllar adası**

Bir oğlan nağılı, bir qız nağılı.............................. 114
Sevgi qatarı.......................................................... 115
Gülüşlərindən uzun... .......................................... 117
Sənin ürəyinlə, mənim ürəyim.............................. 118
Bu həmin sevgidir................................................ 118
Qayıtmaq istərəm................................................. 119
Düşübdü.............................................................. 120
Deyil ki... ............................................................ 121
Elə bilmə asandır... ............................................ 121
Sənsiz yaşayaram ............................................... 122
Həmin qızsan........................................................ 123
Bilərəm................................................................. 124
Olmasın................................................................ 124
Səni...................................................................... 125
Deyirsən............................................................... 126
Duet..................................................................... 126
Yorulmaz hələ... ................................................. 127
Ləçəklərə yazılan sevgi........................................ 128
Mən indi bilmişəm................................................ 129
Yaman gec olub... ............................................... 130
Heyfim gəlir.......................................................... 131
Özümə dön........................................................... 131
Elegiya................................................................. 132
Nağıllar adası....................................................... 133
Nakam sevgilər..................................................... 134
Məhəbbət haqqında ballada.................................. 134
Mən o ağac kimiyəm............................................. 137
Nə yaxşı... ........................................................... 139
Təzədən sevəcəksən.............................................. 139

Səni görürəm........................................................ 140
Bəxtəvər küçələr.................................................... 141
Sənsiz................................................................... 141
Günəş kimi........................................................... 142
Qollarım çatsaydı... .............................................. 142
Ağ gül................................................................... 143
Kim baxsa gözlərinə.............................................. 143
Sənə sarı gələn səs................................................ 144
O qız... .................................................................. 145
Ayrıldıq... ............................................................ 146
Saçları sarı sonam................................................ 147
Səhnədə Məcnun gəzir.......................................... 148
İndi uzaqlardasan... .............................................. 148
O şəhər ağacı... ..................................................... 149

**Günəş çəkə bilmirəm**

Günəbaxanlar....................................................... 152
Şərikli yorğan....................................................... 152
Yer şarımız........................................................... 153
Günəş çəkə bilmirəm............................................ 154
Qırmızı.................................................................. 154
Uşaqlar və günəş................................................... 155
Paxıl arılar............................................................ 155
Gəmilər yorulanda................................................. 156
A yordu, yordu, yordu... ........................................ 156
Səməni................................................................... 158
Bələdçi  olacağam.................................................. 159
Tahirin  sualı.......................................................... 159
Kombaynçı əmi..................................................... 160
Təndir.................................................................... 160
Mahirin tələsi......................................................... 161
Gülşadın dəftəri..................................................... 162
Qarğalar, qağayılar................................................ 162
Suya girəndə.......................................................... 163

**Daşar, gözəllikdən daşar bu yerlər**

Bəsindi.................................................................. 165
Bənövşə................................................................. 166
Qış duyğuları......................................................... 167
Bir çinar oynayır... ............................................... 168
Yadımda................................................................ 169
Quşlar uçar ilk bahara........................................... 170

Külək əsir.............................................................. 171
Meşədə payız......................................................... 171
Qönçə.................................................................... 172
Tut ağacı................................................................ 173
Payız..................................................................... 173
Bu yaz kəndimizə qayıdacağam........................... 174
Qızlar bulağı.......................................................... 176
Qazan gölüm, Göy gölüm.................................... 176
Lövhələr................................................................ 178
Dənizdə.................................................................. 179
Daşar, gözəllikdən daşar bu yerlər ......................... 179
Bu gülün................................................................. 181
Dağlar.................................................................... 182
Fraqmentlər........................................................... 183
Təltiflər, təbriklər.................................................... 184

**Məqalələr**

Gəmiqaya.............................................................. 187
"Təbriz oxuyurdu dağlar başında..." ....................... 193
Peyğəmbər kölgəsi ................................................. 201
**Ədəbi tənqid müəllif haqqında**............................ 225
Bu da bir nağıldı... .................................................. 230
"Ən böyük dövlətdir Vətən sevgisi"....................... 235



**Muxtar Əziz oğlu Qasımzadə**

***Nuhçıxandan gəlirəm***


*Redaktoru*
G.Əliyeva

*Korrektoru*
A.Mahmudova

*Kompyuter tərtibatı*
Z.Məmmədov

Yığılmağa verilmiş 26.03.2013.
Çapa imzalanmış 22.04.2013.
Formatı 70X100 1/16. "Tayms" qarnituru.
Ofset çap üsulu. Ofset kağızı. Həcmi 15,5 ç.v.
Sifarişlə. Tiraj 300 nüsxə.

"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyi.
Naxçıvan şəhəri, Təbriz küçəsi, 1.